Xalqın qəzeti!

# Xalq qəzeti

№ 162 (30856) 6 avqust 2025-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# TAP – Azərbaycandan Avropaya “mavi axın” körpüsü

*“Odlar yurdu”ndan “Qoca qitə”nin 12 ölkəsinə 51 milyard kubmetr qaz nəql edilib*



Xəzər regionu ilə Avropa qitəsi arasında etibarlı enerji körpüsünə çevrilmiş Trans-Adriatik Qaz Boru Kəməri (TAP) vasitəsilə bu ilin birinci yarısında İtaliyaya, təxminən, 4,8 milyard kubmetr təbii qaz nəql olunub. Bu da 2024-cü ilin müvafiq dövrü ilə eyni səviyyədədir. Bu barədə TAP AG şirkətinin səhmdarlarından biri olan “Snam” açıqlama yayıb. Bununla yanaşı, şirkət qaz kəmərinin gücünün potensial genişləndirilməsinə marağı qiymətləndirmək məqsədilə yeni məcburi olmayan bazar sınağı mərhələsinə start verilməsi ilə bağlı da məlumat verib. Xatırladaq ki, İtaliya Azərbaycanın ən çox “mavi yanacaq” ixrac etdiyi Avropa ölkəsidir. Təkcə onu qeyd etmək kifayətdir ki, hazırda bu ölkə idxal qazının, təqribən, 15 faizini TAP vasitəsilə tədarük edir.

*(ardı 7-ci səhifədə)*

## Dünya iqtisadiyyatında yeni reallıqlar: Azərbaycan–Çin iqtisadi əməkdaşlığı

**XXI əsrdə dünya iqtisadiyyatının strukturu kəskin dəyişir. Qərbə dayanan iqtisadi model zəifləyir, əvəzinə yeni güc mərkəzləri, xüsusilə Çin meydana çıxır. ABŞ və Çin arasında texnoloji-iqtisadi rəqabət qlobal ticarətə, maliyyə sistemlərinə və geoiqtisadi münasibətlərə yön verən əsas meyarlardan birinə çevrilir. Bu fonda Azərbaycan öz iqtisadi modelini yeni reallıqlara uyğunlaşdıraraq çoxqütblü iqtisadi əməkdaşlıq siyasəti yürüdür. Azərbaycanın Çin ilə iqtisadi əlaqələri təkcə ticarətlə məhdudlaşmır və texnologiya, rəqəmsal transformasiya, enerji sahələrində strateji sinerji yaratmağa yönəlib. Prezident İlham Əliyevin belə bir çoxvektorlu yanaşması ölkəmizin geoiqtisadi və qlobal mühitdə mühüm oyunçu mövqeyinin güclənməsinə xidmət edir.**



### Çoxqütblü qlobal iqtisadi sistemə keçid

Hazırda dünya iqtisadiyyatında dərin və çoxşaxəli struktur dəyişikliyi müşahidə olunur. ABŞ və Çin arasında getdikcə kəskinləşən rəqabət qlobal iqtisadi sistemin təkqütblü modeldən çoxqütblü düzənə keçidini sürətləndirir. Bu rəqabət əsasən yüksək texnologiyalar, qlobal dəyər zənciri, enerji təhlükəsizliyi və beynəlxalq valyuta sistemləri kimi strateji sahələrdə cəmlənmiş iqtisadi və geosiyasi maraqlar fonunda baş verir. Artıq bu qarşıdurma iqtisadi üstünlüklə yanaşı, yeni beynəlxalq iqtisadi qaydaların formalaşdırılması uğrunda mübarizə kimi səciyyələnir.

Belə bir kontekstdə qeyri-Qərb yönümlü iqtisadi ittifaqların güclənməsi yeni çəki mərkəzlərinin formalaşmasına səbəb olur. Ölkələr arasında milli valyutalarla ticarətin genişlənməsi, ortaq inkişaf banklarının rolunun artması və institusional iqtisadi koordinasiyanın dərinləşdirilməsi bu qurumların funksional və normativ təsir imkanlarını əhəmiyyətli dərəcədə artırır. Formalaşmaqda olan bu çoxqütblü iqtisadi sistem 4 əsas komponent üzərində qurulur:

*(ardı 6-cı səhifədə)*

## Enerji istehlakında sabit tarif mexanizmi



**Prezident İlham Əliyevin sərəncamı ilə “Elektroenergetika haqqında” qanuna edilən dəyişikliklər qüvvəyə minib. Yeni dəyişikliklərə əsasən, elektrik enerjisi sektorunda sabit tarifin tətbiqi qərara alınıb. Qanunda sabit tarif elektrik enerjisinin istehlak səviyyəsindən asılı olmayan sabit xarakterli xərclərin tənzimləyici tərəfindən müəyyənləşdirilən hissəsinin qarşılanması üçün hər bir istehlakçı üzrə tətbiq edilən aylıq tarif elementi nəzərdə tutulub.**

ardı səhifə ⇨ 9

## Qafqazdan Orta Şərqə




səhifə ⇨ 5

## Bizə problem yaratmayın!



səhifə ⇨ 3

## Tarixdən “2” alan səfir başqasına “dərs” keçir



səhifə ⇨ 3

## Sülhə yalnız gerçək addımlar aparır



səhifə ⇨ 4

## Ayda ilk atom elektrik stansiyası?



səhifə ⇨ 11

## Ermənilərin Göy məscid saxtakarlığı



səhifə ⇨ 8

## Əbədiyyətə ünvanlanan şəhidlik dastanı




səhifə ⇨ 9

# Naxçıvan Muxtar Respublikasının paylayıcı elektrik şəbəkəsinin yenidən qurulması və bərpası ilə bağlı əlavə tədbirlər haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Elektrik enerjisi sisteminin, o cümlədən paylayıcı elektrik şəbəkəsinin müasirləşdirilməsi və innovativ texnologiyaların tətbiqi əsasında təkmilləşdirilməsi ölkəmizin dayanıqlı sosial-iqtisadi inkişafı üçün xüsusi əhəmiyyət kəsb edir.

Son illərdə ölkəmizdə bu sahədə həyata keçirilən ardıcıl islahatlar enerji sisteminin idarə edilməsi və inkişafı fəlsəfəsində keyfiyyət dəyişikliyinə zəmin yaratmış, elektrik enerjisi ilə istehlakçıların daha etibarlı, davamlı, təhlükəsiz və səmərəli təchizatına xidmət etmişdir.

Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da iqtisadi inkişafın davamlılığının təmin edilməsi ilə bağlı görülən işlər, öz növbəsində, kommunal infrastrukturun, o cümlədən paylayıcı elektrik şəbəkəsinin keyfiyyətinin yüksəldilməsini, əhalinin fasiləsiz və təhlükəsiz enerjiyə çıxışını əsas prioritetlərdən birinə çevirir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Naxçıvan Muxtar Respublikasında paylayıcı elektrik şəbəkəsinin dayanıqlılığının təmin edilməsi, bu sahədə infrastrukturun daha da yaxşılaşdırılması, istehlakçıların enerji təchizatının səmərəliliyinin və keyfiyyətinin artırılması məqsədilə **qərara alıram:**

**1** "Naxçıvan Muxtar Respublikasının paylayıcı elektrik şəbəkəsinin yenidən qurulmasına və bərpasına dair 2026–2030-cu illər üçün Tədbirlər Planı" (bundan sonra – Tədbirlər Planı) təsdiq edilsin (əlavə olunur).

**2.** "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin icrasını təmin etsin və icranın gedişi barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

**3** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilməsi məqsədilə növbəti illərdə dövlət büdcəsi layihələrində tələb olunan maliyyə vəsaitinin nəzərdə tutulması üçün zəruri tədbirlər görsün;

3.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 5 avqust 2025-ci il**

*Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 5 avqust tarixli Sərəncamı ilə təsdiq edilmişdir*

# Naxçıvan Muxtar Respublikasının paylayıcı elektrik şəbəkəsinin yenidən qurulmasına və bərpasına dair 2026–2030-cu illər üçün

# TƏDBİRLƏR PLANI

| Sıra №-si | Tədbirin adı | İcraçı qurum | İcra müddəti (illər üzrə) |
|---|---|---|---|
| **1. 110 və 35 kV-luq yarımstansiyaların yenidən qurulması və elektrik verilişi xətlərinin çəkilməsi** | | | |
| 1.1 | 110/35/10 kV-luq "Koroğlu" yarımstansiyasının yenidən qurulması, "Azərişıq" ASC-nin yeni inzibati binasının və idarəetmə mərkəzinin tikintisi | "Azərişıq" ASC | 2026 |
| 1.2 | 35/10 kV-luq "Nəzərabad" yarımstansiyasının yerinin dəyişdirilərək yenidən qurulması | "Azərişıq" ASC | 2026 |
| 1.3 | 110/35/10 kV-luq "Sədərək" yarımstansiyasının yenidən qurulması | "Azərişıq" ASC | 2027 |
| 1.4 | 35/10 kV-luq "Sədərək" yarımstansiyasının yenidən qurulması | "Azərişıq" ASC | 2027 |
| 1.5 | 35/10 kV-luq "Əbrəqunus" yarımstansiyasının yenidən qurulması | "Azərişıq" ASC | 2027 |
| 1.6 | 35/10 kV-luq "Qarabağlar" yarımstansiyasının yenidən qurulması | "Azərişıq" ASC | 2027 |
| 1.7 | 35/10 kV-luq "Qışlaq" yarımstansiyasının yenidən qurulması | "Azərişıq" ASC | 2027 |
| 1.8 | 35/10 kV-luq "Cəhri" yarımstansiyasının yenidən qurulması | "Azərişıq" ASC | 2027 |
| 1.9 | 110/35/10 kV-luq "Şərur" yarımstansiyasının yenidən qurulması | "Azərişıq" ASC | 2028 |
| 1.10 | 35/10 kV-luq "Düylün" yarımstansiyasının yenidən qurulması | "Azərişıq" ASC | 2028 |
| 1.11 | 35/10 kV-luq "Mahmudkənd" yarımstansiyasının yenidən qurulması | "Azərişıq" ASC | 2028 |
| 1.12 | 35/10 kV-luq "Sənaye qovşağı" yarımstansiyasının yenidən qurulması | "Azərişıq" ASC | 2028 |
| 1.13 | 35/10 kV-luq "Parağaçay" yarımstansiyasının yenidən qurulması | "Azərişıq" ASC | 2028 |
| 1.14 | 35/10 kV-luq "Sələsüz" yarımstansiyasının yenidən qurulması | "Azərişıq" ASC | 2028 |
| 1.15 | 35/10 kV-luq "Hava Limanı" yarımstansiyasının yenidən qurulması | "Azərişıq" ASC | 2028 |
| 1.16 | 35/10 kV-luq "Xətai" yarımstansiyasının yenidən qurulması | "Azərişıq" ASC | 2029 |
| 1.17 | 35/10 kV-luq "Xanlıqlar" yarımstansiyasının yenidən qurulması | "Azərişıq" ASC | 2029 |
| 1.18 | 35/10 kV-luq "Nehrəm" yarımstansiyasının yenidən qurulması | "Azərişıq" ASC | 2029 |
| 1.19 | 35/10 kV-luq "Keçili" yarımstansiyasının yenidən qurulması | "Azərişıq" ASC | 2030 |
| 1.20 | 35/10 kV-luq "Hərbi hissə" yarımstansiyasının yenidən qurulması | "Azərişıq" ASC | 2030 |
| 1.21 | 110 və 35 kV-luq elektrik verilişi xətlərində yenidənqurma işlərinin aparılması | "Azərişıq" ASC | 2026–2030 |
| **2. 6–10 kV-luq və 0,4 kV-luq elektrik şəbəkələrində yenidənqurma işlərinin aparılması** | | | |
| 2.1 | Naxçıvan şəhəri ərazisində, Babək, Şahbuz, Sədərək, Culfa, Kəngərli, Ordubad və Şərur rayonlarında istismar müddəti bitmiş transformator məntəqələrinin yenidən qurulması | "Azərişıq" ASC | 2026–2030 |
| 2.2 | Naxçıvan şəhəri ərazisində, Babək, Şahbuz, Sədərək, Culfa, Kəngərli, Ordubad və Şərur rayonlarında 6–10 kV-luq elektrik verilişi xətlərində yenidənqurma işlərinin aparılması | "Azərişıq" ASC | 2026–2030 |
| 2.3 | Paylayıcı elektrik şəbəkələrində itkilərin azaldılması məqsədilə 0,4 kV-luq elektrik şəbəkəsinin özüdaşıyan izolyasiyalı naqillərlə yenidən qurulması | "Azərişıq" ASC | 2026–2030 |
| **3. Elektrik şəbəkələrində qəza hallarının aradan qaldırılması, SCADA (şəbəkələrin real vaxt rejimində avtomatik idarə olunması) sisteminin qurulması və elektrik sayğaclarının dəyişdirilməsi** | | | |
| 3.1 | Yarımstansiyaların uzaqdan idarə edilməsi üçün SCADA (şəbəkələrin real vaxt rejimində avtomatik idarə olunması) sisteminin qurulması | "Azərişıq" ASC | 2026–2030 |
| 3.2 | Naxçıvan Muxtar Respublikasının ərazisində istismar müddəti keçmiş elektrik sayğaclarının dəyişdirilməsi məqsədilə nəzarət və ölçü cihazlarının alınması və quraşdırılması | "Azərişıq" ASC | 2026–2030 |
| 3.3 | Naxçıvan Muxtar Respublikasının paylayıcı elektrik şəbəkəsinin maddi-texniki təchizatının möhkəmləndirilməsi | "Azərişıq" ASC | 2026–2030 |

# Baş nazir Mərkəzi Asiya dövlət başçılarının görüşünə hazırlıq iclasında

**Avqustun 5-də Türkmənistanın Türkmənbaşı şəhərindəki "Avaza" milli turizm zonasında Mərkəzi Asiya ölkələrinin Dövlət başçılarının 7-ci məşvərət görüşünə hazırlıq iclası keçirilib.**



Nazirlər Kabinetindən bildiriblər ki, Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iclasda iştirak edib.

*

**Həmin gün Avazada Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev və Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov arasında üçtərəfli görüş keçirilib.**

Nazirlər Kabinetindən bildirilib ki, Ə.Əsədov Azərbaycan Prezidenti




İlham Əliyevin salamlarını Türkmənistan Xalq Məsləhətinin sədrinə və Özbəkistanın dövlət başçısına çatdırıb.

Qurbanqulu Berdiməhəmmədov və Şavkat Mirziyoyev Prezident İlham Əliyevin salamlarına görə minnətdarlıqlarını bildiriblər, onların da salamlarını Azərbaycanın dövlət başçısına çatdırmağı xahiş ediblər.

Qurbanqulu Berdiməhəmmədov və Şavkat Mirziyoyev Azərbaycanın Mərkəzi Asiya ölkələri ailəsində, Dövlət başçılarının Məşvərət şurasında xüsusi yerinin olduğunu, Azərbaycan Prezidentinin bu istiqamətdə çox iş gördüyünü vurğulayıb və Azərbaycanın region ölkələri ilə birlikdə Avrasiya, habelə bütün dünya üçün böyük əhəmiyyət kəsb etdiyini bildiriblər.

Q.Berdiməhəmmədov Mərkəzi Asiya ölkələri və Azərbaycan formatının artıq faktiki olaraq mövcudluğunu, bu əməkdaşlığın günün tələbinə çevrildiyini və bu formatın daimi praktikaya çevrilməsinin zəruriliyini qeyd edib.

Türkmənistan Xalq Məsləhətinin sədri Prezident İlham Əliyevin Azərbaycan-Türkmənistan-Özbəkistan formatında əməkdaşlığı vacib saydığını qeyd edib və bu görüşü belə bir yeni formatın əsasının qoyulması kimi qiymətləndirib.

Üçtərəfli formatın ilk görüşündə humanitar, mədəni əlaqələrin inkişafının vacibliyi və iqtisadi əməkdaşlıq mövzuları müzakirə edilib. İqtisadi sahədə ən aktual istiqamətlər kimi nəqliyyat, logistika, enerji sektorlarında strateji əməkdaşlığın daha da genişləndirilməsinə qarşılıqlı maraq ifadə olunub.

Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov Azərbaycanda səfərdə olarkən Prezident İlham Əliyev ilə Füzuli rayonunda məscidin tikintisi, habelə Füzuli və Arxadağ şəhərlərinin qardaşlaşması ilə bağlı razılığın əldə olunduğunu bildirib.

*

**Türkmənbaşı şəhərində işgüzar səfərdə olan Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov dünən Gürcüstanın Baş naziri İrakli Kobaxidze ilə görüşüb.**



Əli Əsədov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin salamlarını Gürcüstanın Baş nazirinə çatdırıb. İrakli Kobaxidze Prezident İlham Əliyevin salamlarına görə minnətdarlığını bildirib, onun da salamlarını Azərbaycan dövlətinin başçısına çatdırmağı xahiş edib.

Görüşdə Azərbaycan-Gürcüstan strateji tərəfdaşlığının müxtəlif sahələrdə yüksək səviyyəsindən məmnunluq ifadə olunub, qarşılıqlı faydalı əməkdaşlığın iqtisadi-ticari, investisiya, nəqliyyat-tranzit, energetika, humanitar və digər istiqamətlərdə genişləndirilməsi ilə bağlı məsələlər nəzərdən keçirilib.

***XQ***

# Hərbi prokuror hərbi qulluqçularla görüşüb

**Baş prokurorun müavini – hərbi prokuror, ədliyyə polkovniki Bəhruz Əhmədov müdafiə nazirinin müavini – Quru Qoşunların komandanı, general-polkovnik Hikmət Mirzəyevlə birlikdə dövlət sərhədlərində qulluq edən hərbi qulluqçularla görüşüb.**



Müxtəlif hərbi hissələrdə birgə keçirilən görüşlərdən öncə ümummilli lider Heydər Əliyevin və şəhidlərimizin əziz və unudulmaz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Çıxış edənlər dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, Birinci vitse-prezident Mehriban Əliyevanın dəstəyi və xalqın əzmkarlığı ilə əldə olunan uğurlardan bəhs ediblər.

Daha sonra hərbi qulluqçuların qarşısında hüquqi maarifləndirici məzmunda çıxışlar olub, onları maraqlandıran suallar cavablandırılıb.

***XQ***

# Hərbçilərimiz "Agile spirit" təlimində

**Gürcüstanda keçirilən çoxmillətli "Agile spirit" hərbi təlimində Azərbaycan Müdafiə Nazirliyinin yüksək rütbəli hərbçiləri müşahidəçi qismində iştirak edirlər.**



Gürcüstan Müdafiə Nazirliyinin məlumatına görə, beynəlxalq təlimə ölkənin Qərb Müdafiə Qüvvələrinin komandanı, briqada generalı Koba Qriqoliya və ABŞ-ın Corciya ştatının Milli Qvardiyasının nümayəndəsi, polkovnik Uilyam Koks birgə rəhbərlik edirlər.

Xatırladaq ki, "Agile spirit 2025" regionun iki ölkəsində – Gürcüstan və Türkiyədə keçirilir ki, bu da regional əməkdaşlığın möhkəmlənməsinə töhfə verir.

***XQ***

# Bizə problem yaratmayın!

## *Yaxud “stəkanda fırtına” qoparmaq istəyənlərə zəruri xatırlatma*

**Azərbaycan insan hüquqlarına dair qoşulduğu konvensiya, müqavilə və paktlarda göstərilən müddəalara riayət edən, beynəlxalq hüququn təsbit etdiyi prinsipləri gözləyən bir ölkədir. Müstəqilliyini bərpa etdiyi dövrdən etibarən Azərbaycan Respublikası Avropa İnsan Hüquqları Konvensiyasında göstərilən prinsiplərə, “Konsulluq əlaqələri haqqında” Vyana Konvensiyasının müddəalarına, BMT Baş Məclisinin 1984-cü il dekabrın 10-da qəbul etdiyi “İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan davranış və cəza növlərinə qarşı Konvensiya”nın tələblərinə, “İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında” Roma Konvensiyasına riayət edir. Dünyada açıq siyasət yürüdən, çoxsaylı nüfuzlu beynəlxalq tədbirlərə ev sahibliyi edən rəsmi Bakı bütün ölkələrlə, xüsusilə də qonşuları ilə səmimi əməkdaşlıq mühitinə yönəlik əlaqələrə üstünlük verir.**



Müvəqqəti saxlanılan və yaxud həbsxanada cəzasını çəkən yerli və xarici vətəndaşların hüquq və imtiyazları qüvvədə olan “Azərbaycan Respublikasında insan hüquqlarının qorunması haqqında” Qanunla tənzimlənir. Qanunvericiliyin tələblərinə uyğun olaraq, məhkum və həbs edilmiş şəxslər ailə üzvləri və yaxınları ilə telefonla danışmaq və onlarla görüşmək, bağlama almaq hüquqlarından istifadə edirlər. Burada heç bir ayrı-seçkiliyə yol verilə bilməz.

*

“İran İslam Respublikasının Xarici İşlər Nazirliyinin mətbuat katibi İsmayıl Bəqainin, guya, Azərbaycanda İran əsilli məhbuslarla pis rəftar edilməsi ilə bağlı iddialarının heç bir əsası yoxdur”.

Bunu Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə İran Xarici İşlər Nazirliyinin sözçüsü İsmayıl Bəqainin Azərbaycanda həbsdə olan İran vətəndaşları ilə bağlı iddialarına münasibət bildirərkən deyib. A. Hacızadə şərhində qeyd edir ki, həbsdə saxlanılan əcnəbilər, o cümlədən İran İslam Respublikasının vətəndaşları mütəmadi olaraq tibb-sanitariya bölməsində müayinələrdən keçirlər. Bununla yanaşı, İranın Azərbaycandakı səfirliyinin əməkdaşları tərəfindən öz vətəndaşları üçün gətirilmiş dərman preparatları tibb xidmətinin əməkdaşları tərəfindən normativ aktların tələblərinə uyğun qaydada qəbul edilib və məhkumlara çatdırılıb.

Yəni Azərbaycan tərəfinin, həmçinin bir sıra İran vətəndaşları ilə bağlı humanistlik nümayiş etdirdiyi Tehrana yaxşı məlumdur. Azərbaycan XİN rəsmisi iranlı həmkarının diqqətinə onu da çatdırır ki, məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında Azərbaycan Respublikası Prezidentinin 26 may 2025-ci il tarixli sərəncamı ilə 5 nəfər İran vətəndaşı əfv olunub.

Daha sonra A.Hacızadə Bəqaiyə xatırladır ki, sorğu verilməsinə baxmayaraq Azərbaycan Respublikası vətəndaşlarının işləri ilə bağlı İran İslam Respublikasında keçirilən məhkəmə iclasları, həmin iclaslar zamanı qəbul edilən qərarlar barədə Azərbaycan tərəfinə məlumat verilmir.

*

Bu günlərdə İran XİN-in sözçüsü İsmayıl Bəqainin adı başqa dezinformasiyada da hallandı. O, Ermənistan mediasına müsahibəsində Azərbaycanın İsrailə öz ərazisindən İrana qarşı istifadə imkanı yaratması barədə dediklərini təkzib etməyə məcbur oldu. Bəqai erməni jurnalistin təxribatçı sualına cavabında bildirib ki, Prezident Pezeşkianla Azərbaycan lideri İlham Əliyev arasında baş tutan telefon danışığında bu məsələyə toxunulub, amma Bakının hücuma cəlb olunduğu anlamında danışılmadığını açıqlayıb. Bəqai bunun konkret ittiham deyil, ümumi xarakterli çağırış olduğunu deyib. “Qaşınmayan yerdən qan çıxarmaq” buna deyirlər. Ona sifarişin hansı cinahdan verildiyi məlum olsa da, Azərbaycan keçənləri elə keçmişdə buraxaraq, ikitərəfli, regional və transmilli layihələrdə birgə əməkdaşlığa hazır olduğunu açıq və səmimi şəkildə bəyan edib.

A.Hacızadənin vurğuladığı kimi, ölkəmiz hər zaman bu kimi məsələlərin siyasiləşdirilmədən, ikitərəfli müstəvidə, diplomatik kanallarla müzakirəsinin tərəfdarı olub: “Digər məsələlərlə yanaşı, bu istiqamətdə danışıqlar 15 aprel 2025-ci il tarixində Tehran şəhərində Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və İran İslam Respublikasının Xarici İşlər Nazirliyi arasında növbəti konsulluq məsləhətləşmələri zamanı aparılıb”.

Ardınca XİN rəsmisi onu da qarşı tərəfin nəzərinə çatdırır ki, İran İslam Respublikasında saxlanılan və həbs edilən bir çox vətəndaşlarımız barədə məlumatlar ölkəmizin Tehrandakı diplomatik missiyasına təqdim edilmir, onlara əksər hallarda Azərbaycanın İrandakı diplomatik missiyaları və ailə üzvləri ilə görüşməyə və telefon əlaqəsi yaratmağa, 1998-ci ilin 21 fevral tarixində Bakı şəhərində imzalanmış “Azərbaycan Respublikası Hökuməti və İran islam Respublikası Hökuməti arasında azadlıqdan məhrum edilmiş məhkumların cəza çəkmək üçün verilməsi haqqında Müqavilə”nin müddəalarına uyğun olaraq cəzasının qalan hissəsini Azərbaycan Respublikasında çəkmək üçün müraciətin təqdim edilməsinə icazə verilmir.

Hesab edirik ki, beynəlxalq hüquqa, eləcə də humanizm prinsipi kimi bəşəri dəyərə söykənən bu cavabın qarşısında İran XİN-in sözçüsünün deməyə sözü olmayacaq.

***

**Mövzu ilə bağlı XQ-yə açıqlama verən siyasi icmalçı Tofiq Abbasov** bu məsələnin, sanki, yox yerdən tapılmış kimi ortaya atıldığına diqqəti çəkdi: “Açıq şəkildə görürük ki, İran tərəfinin Bakıya qarşı arqumentləri



tükənib və heç nədən uydurma iddialar səsləndirilir. Hesab edirəm ki, bu, elə böyük və ciddi əhəmiyyət kəsb edən məsələ deyil ki, İran Xarici İşlər Nazirliyinin sözçüsü belə açıqlama versin. Madam ki, cənab Bəqai bu məsələyə toxunmağı vacib sayıb, Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi ona yerindəcə, operativ şəkildə, həm də arqumentli və tutarlı cavab verdi. Təbii ki, burada hansısa ikili yanaşmadan, nöqsandan söhbət gedə bilməz. Azərbaycan Penitensiar Xidməti kifayət qədər böyük təcrübəyə malik peşəkar qurumdur. Bu prosesdə xidmət tərəfindən yerli, yaxud xarici vətəndaşlara münasibətdə heç bir fərq qoyulmadan eyni standartlar tətbiq edilir. O da məlumdur ki, belə həssas sahədə olan vəziyyəti vətəndaş cəmiyyətinin nümayəndələri, hüquq müdafiəçiləri daim diqqətdə saxlayırlar. Onlar vaxtaşırı istər məhbus həyatı yaşayanlara, istərsə də saxlanılanlara baş çəkir, giley-güzarlarını dinləyir və müvafiq orqanların nəzərinə çatdırırlar. Bu zaman bu və ya digər səbəbdən nəzarətə götürülmüş İran vətəndaşlarına sərt yanaşmanın tətbiq edilməsi, onların gözüm-çıxdıya salınması, yaxud saxlanma şəraitinin keyfiyyətsiz olması mümkün deyil. Çünki həmin yerlərin özünəməxsus qayda və prosedurları var. Əgər hər hansı insan qanunu pozubsa və məhkəmə onun barəsində hökm veribsə və o, cəzaçəkmə müəssisəsində müəyyən müddət qalmalıdırsa, hamı kimi, eyni şəraitdə cəzasını çəkir. Yəni, şərait hamı üçün eynidir. Azərbaycan vətəndaşları, xarici ölkə vətəndaşları üçün bərabər şərait yaradılır”.

Bu məsələnin süni surətdə şişirdilməsini bir daha vurğulayan siyasi şərhçiyə görə, adətən, bu cür hallar yarananda, bununla bağlı xüsusi kanallarla iki ölkə arasında informasiya mübadiləsi həyata keçirilir: “Eləcə də beynəlxalq təşkilatlar tərəfindən təmas dəhlizləri yaradılır və narazılığa səbəb ola biləcək məsələlər mütəxəssislərin iştirakı ilə dərhal dinlənilir, müzakirə edilir. Ortaq məsləhətləşmələrdən sonra isə konkret məsələ ilə bağlı lazımi qərarlar verilir. Konkret bu halda İran XİN-in süni şəkildə rəngləri tündləşdirdiyini görürük. Sanki Tehran bu yolla ikitərəfli münasibətlərdə problem yaratmağa çalışır. Axı, İran–Azərbaycan münasibətlərində yeni mərhələnin başlandığını nəzərə alsaq, əlavə problem yaratmağa lüzum yoxdur. Son üç ayda İran Prezidenti Məsud Pezeşkian iki dəfə Azərbaycana səfər etdi. İkinci səfərində İqtisadi Əməkdaşlıq Təşkilatının Xankəndində keçirilən sammitinə qatıldı. O, ikitərəfli münasibətlərin perspektivi ilə bağlı olduqca nikbin açıqlamalar verdi. Yəni, umu-küsüləri arxada qoyaraq, keyfiyyətcə yeni bir mərhələyə adlamaq ərəfəsindəyik. Azərbaycan Prezidenti İlham Əliyevin iranlı həmkarını necə böyük ehtiramla qarşılamasına, qardaş sevgisi ilə səmimi təmaslarda olmalarına şahidlik etdik. Bu səmimiyyət özünü onların gələcəyə yönəlik uğurlu əməkdaşlığa verdikləri mesajlarda aydın şəkildə göstərdi”.

Olub-keçənləri arxada buraxmaq və yalnız irəli baxmaq! İran Prezidenti Məsud Pezeşkianın Azərbaycana iki səfərinin məzmununu bu cür ifadə etmək mümkündür. Möhkəm siyasi iradəyə söykənən qarşılıqlı istək və arzu problemsiz dövrə qədəm qoymağın rəhnidir.

Beləliklə, ekspertin də qeyd etdiyi kimi, təsadüfdən ortaya atılmış kimi görünən, “stəkanda fırtına” yaratmağa bənzəyən bu süni problem nə mədəni, dini və tarixi bağlara malik qonşu xalqlar, ölkələr arasında yeni ruhda formalaşmağa başlayan və uğurlu perspektivə yönələn əlaqələrə, nə də iki liderin şəxsi münasibətlərindəki etimad və səmimiyyətə xələl gətirə bilər.

***İmran BƏDİRXANLI***
***XQ***

# Tarixdən “2” alan səfir başqasına “dərs” keçir

## *Deyəsən, Dekotini öz ölkəsinin dünyanın dörd bir tərəfində törətdiyi cinayətləri “unudub”*

**Fransanın Ermənistandakı səfiri Olivye Dekotininin verdiyi açıqlamalar və sosial şəbəkədə etdiyi paylaşımlarla diplomat adına və bu peşəyə xələl gətirdiyi heç kəsə sirr deyil. O, tərəfsiz diplomatik mövqe sərgiləmək əvəzinə, açıq şəkildə ermənipərəst xətti yeritdiyini hər addımda nümayiş etdirir. Dekotininin çıxışlarında tez-tez Ermənistanın təhlükəsizliyi, sabitliyi və suverenliyi ön plana çəkilir, amma regionda sülhün bərqərar olması üçün əsas şərt olan ədalətli yanaşma nədənsə yaddan çıxır. Xüsusilə, səfirin birtərəfli mövqeyi Fransanın uzun illərdir yürütdüyü qərəzli siyasətin davamı kimi qiymətləndirilir. Dekotininin bəyanatları Ermənistandakı revanşizmə və hələ də mövcud olan separatizmə dolayı dəstək nümunələridir. Bu isə onun fəaliyyəti barədə ciddi suallar doğurur.**



Səfir kimi əsas vəzifəsi Fransa–Ermənistan münasibətlərinin daha yüksək səviyyəyə qaldırılması olan Dekotini bugünlərdə missiyasını “unudaraq” “X” platformasındakı hesabında 2014-cü il avqustun 3-də “İraq İslam Şam Dövləti”nin (İŞİD) yezidi kürdlərin soyqırımına başladığını yazıb. Əlbəttə, bura qədər yazılanlarla işimiz yoxdur. Bizi hiddətləndirən Dekotinin yazdıqlarının ikinci hissəsidir. Beləliklə, ermənipərəstliyi ilə ad çıxarmış başabəla diplomatın yazdıqlarını oxuyaq: “Bu, 1915-ci il “erməni soyqırımı”nın təkrarı idi. Eyni qırğınlar, zorakılıqlar, digər dinin daşıyıcılarına zorakı münasibətlər...”

Qeyd etdiyimiz kimi, Dekotininin diplomatik mandatı, mahiyyət etibarilə, Fransa ilə Ermənistan arasında siyasi, iqtisadi və mədəni əlaqələrin inkişafını təmin etmək, bölgədə sülhə və sabitliyə töhfə vermək olmalıdır. Lakin son paylaşımı göstərir ki, o, bu missiyasını ya unudub, ya da bilərəkdən kənara qoyaraq daha çox birtərəfli ideoloji təbliğatla məşğuldur. Dekotini 2014-cü ildəki məlum hadisələrdən bəhs edərkən bunu 1915-ci ildə yaşanan olaylarla müqayisə etməklə kifayətlənmir, həm də bu iki fərqli tarixi hadisəni eyniləşdirərək açıq şəkildə siyasi mövqe ortaya qoyur. İlk baxışdan bu cür ifadələr insan haqları və tarix qarşısında həssas yanaşmanın təzahürü kimi təqdim edilə bilər. Lakin məsələ ondadır ki, bu yanaşma özündə diplomatik neytrallıqdan çox, bir xalqın keçmişindən siyasi məqsədlərlə istifadə edilməsini ehtiva edir. Tarixi hadisələrin hüquqi-siyasi qiymətləndirilməsi müvafiq beynəlxalq instansiyaların səlahiyyətindədir. Nə BMT, nə də Beynəlxalq Ədalət Məhkəməsi 1915-ci il hadisələrini “soyqırımı” kimi tanımayıb. Bu baxımdan Fransanın rəsmi təmsilçisinin öz ölkəsinin mövqeyini bütün beynəlxalq hüquq prinsiplərinin fövqündə göstərməsi və bunu başqa bir hadisə, yəni yezidilərin faciəsi ilə paralel aparması ictimai rəyə təsir göstərməyə yönəlmiş təxribatçı təşəbbüsdür.

Bu cür açıqlamalar təkcə tarixə yanlış baxışın ortaya qoyulması deyil, həm də regional münasibətlərə zərər vuracaq yanaşmanın göstəricisidir. Türkiyə və Azərbaycan uzun illərdir ikili standartlardan əziyyət çəkir. Ankara və Bakı bölgəmizə, burada yaşanmış olaylara Qərb ölkələrinin obyektiv və balanslı münasibət sərgiləməsinə çağırış edirlər. Lakin bu təşəbbüs isti qarşılanmır. O.Dekotininin sonuncu paylaşımı göstərir ki, onlar tarixi öz karlarına gəldikdə xatırlayırlar. Yəni özlərinə sərf etdikdə müəyyən xalqların yaşamış olduqları ağrılar xatırlanmağa, belə deyək, layiq görülür, digərlərinin acıları isə ya görməzlikdən gəlir, ya da bilərəkdən susdurulur. Dekotini belə obyektivdirsə, bir dəfə də Xocalı, Malıbəyli, Meşəli, Qaradağlı, Başlıbel faciəsini xatırlasın, son 37 ildə azərbaycanlıların başına gətirilən müsibətlərdən danışsın. Amma yox, danışmaz. Onun başqa xalqların ağrılarına “həssaslığı” yalnız siyasi məqsədə uyğun gələndə işə düşür.

Bəli, müsyö Dekotininin paylaşımındakı ən problemli və bizi hiddətləndirən əsas səbəb onun Türkiyəni açıq şəkildə qondarma “erməni soyqırımı”nda ittiham etməsidir. Diplomatik etika baxımından bu cür iddialar həm ciddi qüsur, həm də açıq qərəz nümunəsidir. Çünki bu ifadə ilə, o, qeyd etdiyimiz kimi, hələ də beynəlxalq hüquqi qərarlarla təsdiqlənməmiş və təsdiqlənməsi mümkün olmayan bir məsələdə konkret tərəf tutur. Üstəlik, bu mövqeyi ilə Ermənistanın illərdir təbliğ etdiyi saxta tezisləri təkrar edir. Türkiyənin dəfələrlə arxivləri açmağa, tarixçiləri ortaq komissiya yaratmasına çağırmasına baxmayaraq, bu çağırışlara susqun qalan dairələr, görünür, tarixə obyektiv baxmaq əvəzinə, onu siyasi alətə çevirməyə üstünlük verirlər. Dekotininin bu açıqlaması da məhz belə bir niyyətin məhsuludur. Yəni, məqsəd nə tarixə aydınlıq gətirmək, nə də bölgədə barış mühitinə töhfə verməkdir. Məqsəd Türkiyəni beynəlxalq müstəvidə ləkələmək və Ermənistanın uydurduğu “əzabkeş xalq” mifini davam etdirməkdir.

Əgər Dekotini və onun kimi diplomatlar, siyasətçilər tarixi hadisələr qarşısında “həssaslıq” göstərmək istəyirlərsə, ilk növbədə öz ölkələrinin keçmişinə baxsalar daha ədalətli olar. İŞİD-in törətdiyi əməllər kontekstində Türkiyənin adını qondarma “soyqırımı” ilə hallandıran, dolayısı ilə qardaş ölkəni olmazın məsələlərdə ittiham edən Fransa özü bəşəriyyətə qarşı törədilmiş bir çox ağır cinayətlərin müəllifidir. Bu cinayətlər təkcə ötən əsrə aid deyil, həm də müasir dövrdə dəfələrlə gündəmə gətirilmiş, amma heç vaxt tam məsuliyyətə cəlb olunmamış əməllərdir. Gəlin, həmin faktların bəzilərinə diqqət yetirək.

Əlcəzairin fransız zülmü altında inlədiyi dövrdə (1830–1962) burada bir əsrdən çox davam edən sistemli repressiya və soyqırımı həyata keçirilib. Təkcə 1954–1962-ci illərdə müstəqillik müharibədə təxminən 1,5 milyon əlcəzairli qətlə yetirilib. Minlərlə insan işgəncələrə məruz qalıb, kəndlər yandırılıb, mülki əhali “təmizləmə əməliyyatları” ilə qırılıb.

Asiyanın cənub şərqində, Hind–Çin yarımadasında yerləşən müasir Vyetnam və İndoneziya dövlətlərində müstəmləkəçilik də Fransanın üz qarasıdır. Fransa Vyetnamda yüz minlərlə insanı istismar edib. Məcburi əmək, təhsil hüquqlarının tapdanması və etirazların qəddarlıqla yatırılması bu siyasətin tərkib hissəsi idi. Xüsusilə 1946–1954-cü illərdə fransız hərbçiləri tərəfindən dinc əhaliyə qarşı zorakılıq və edamlar geniş yayılmışdı.

1994-cü ildə baş verən Ruanda soyqırımı zamanı, yəni 800 minə yaxın tutsi və hutunun qətlə yetirildiyi prosesdə Fransanın o dövrdəki hökuməti bölgədəki rejimə dəstək verməkdə və qırğınlara göz yummaqla ittiham olunur. Fransa hərbi və diplomatik vasitələrlə həmin rejimi qoruyub saxlayıb.

Afrikada nüvə sınaqları və insan haqlarının pozuntuları da yaddan çıxa bilməz. Beşinci Respublika 1960-cı illərdə Sahara səhrasında onlarla nüvə sınağı həyata keçirib. Bu sınaqlar nəticəsində ətraf mühitə və yerli əhaliyə dəyən ziyan hələ də davam edir. Çoxsaylı yerli sakinlər bu səbəbdən xərçəngə və genetik xəstəliklərə düçar olublar. Ən yeni tariximizdə Yeni Kaledoniya, Polineziya və digər koloniyalarda yerli xalqlara qarşı assimilyasiya siyasəti rəsmi Parisin dəyişmək istəmədiyinin göstəricisidir. Fransa bu bölgələrdə uzun illər yerli mədəniyyətləri sıxışdırıb, dildə və dinlərdə assimilyasiya aparıb, yerli liderləri sürgün və ya təzyiqlə neytrallaşdırıb. Buna görə də, yaxşı olardı ki, müsyö Dekotini öz ölkəsinin törətdiyi gerçək cinayətləri xatırlasın, nəinki başqalarına tarix dərsi keçməyə cəhd etsin.

***Səxavət HƏMİD***
***XQ***

### Ekspert rəyi

**İlyas HÜSEYNOV,**
**politoloq**



– Fransa dövlətinin Ermənistandakı səfiri Olivye Dekotini hər zaman qeyri-standart düşüncələri ilə diqqət mərkəzinə düşür. Onun sonuncu paylaşımı da müəyyən qədər qeyri-ordinardır. Çünki yezidi kürdlər barədə fikir bildirir. Bu paylaşım daha çox politoloji, regional geosiyasi məsələləri əhatə edən və müəyyən qədər ideoloji əsasları olan düşüncələri əks etdirir. Diplomatlar, adətən, dövlətlərin və regionların daxili işlərinə bu cür açıq şəkildə müdaxilə etməkdən çəkinirlər. Onların əsas missiyası ikitərəfli əlaqələri daha da gücləndirməkdən, iqtisadi fayda əldə etməkdən və təmsil etdikləri dövlətlərin maraqları qorumaqdan ibarətdir. Belə görünür ki, Fransa və Ermənistan arasında heç bir iqtisadi maraq yoxdur. Səfir də məcbur qalıb geopolitik məsələlərə burnunu soxur. Çünki 2014-cü ildə İraqda yezidi kürdlərin təqib olunması Ermənistana və Fransaya aid olmayan məsələdir.

Burada Bəşər Əsəd rejiminin devrilməsi, Türkiyənin İraq və Suriyada maraqlarının təmin olunması və qondarma erməni “soyqırımı” olaylarının gündəmdə saxlanılması məsələsi var. Fransa dövləti bu prosesin arxasında dayanır. Çünki kürdlər, assurilər, ermənilər, yunanlar zaman-zaman “türklərin qəzəbinə tuş gəlmiş xalqlar” kimi təqdim olunur və Fransa da ümumilikdə, bu ideoloji əsasları təşkil edən və Türkiyəyə təzyiqləri gücləndirən metodologiyanı tətbiq etməyə çalışır. Bunu ilk baxışdan, yəni, adi gözlə görmək mümkün deyil. Lakin bunun arxasında çox güclü təhdid, şantaj, xəbərdaredici fikirlərin olduğunu sezmək mümkündür. Çünki hazırda Suriyada vətəndaş müharibəsi də bitib, yeni hökumət formalaşıb. Suriya Ərəb Respublikasının keçid dövrü Prezidenti Əhməd Əl Şaraa xalqının həyat şəraitini yaxşılaşdırmaq və təhlükəsizliyini təmin etmək üçün mühüm addımlar atır. Hətta avqustun 2-də Azərbaycan qazının Türkiyə ərazisindən Suriyaya ixracına başlanılıb. İlkin mərhələdə ildə Suriyaya 1,2 milyard kubmetr təbii qazın verilməsi planlaşdırılır. Azərbaycan və qardaş Türkiyə Suriyanın təhlükəsizliyi, iqtisadi inkişafı, xalqının rifahı üçün əllərindən gələni edirlər və bundan sonra da edəcəklər. Belə görünür ki, Fransa səfiri bundan narahat olub və 11 il öncə Suriyada təqiblərə məruz qalmış yezidi kürdlər məsələsini ortaya atır. Hesab edirəm ki, bu cür yanaşmalar heç bir diplomata başucalığı gətirmir və bulanıq suda balıq tutmaq niyyətini ifadə edir.

# Sülhə yalnız gerçək addımlar aparır

## *İrəvan yenə sərhəddə şuluq salır, yalanların arxasında gizlənir*

**Avqustun 4-də Ermənistan Müdafiə Nazirliyi, guya, Azərbaycan Ordusunun Sünik rayonu ərazisində döyüş mövqeləri arasında yol tikintisi aparan ekskavatora atəş açdığına dair məlumat yayıb. Azərbaycan Müdafiə Nazirliyi bu məlumatı qəti şəkildə təkzib edərək, Ordumuz tərəfindən qeyd olunan istiqamətdə hər hansı atəşin açılmadığını bəyan edib. Nazirlik Erməni tərəfinin yaydığı informasiyanın tamamilə əsassız olduğunu və dezinformasiya xarakteri daşıdığını vurğulayıb.**



Qeyd edək ki, Azərbaycan və Ermənistan arasında münasibətlərin hərbi müstəvidə, əsasən də şərti sərhəddə zaman-zaman gərginləşməsi müşahidə olunur. Xüsusilə 2020-ci ilin noyabrında imzalanan üçtərəfli bəyanatın şərtlərinə baxmayaraq, sərhədyanı bölgələrdə müxtəlif vaxtlarda atəşkəsin pozulması halları qeydə alınır. Bu pozuntuların əksəriyyəti Ermənistan tərəfindən həyata keçirilən təxribatlar nəticəsində baş verir. Rəsmi İrəvan bu insidentləri ört-basdır etmək, məsuliyyəti Azərbaycan üzərinə atmaq məqsədilə davamlı olaraq saxta və təhrif olunmuş məlumatlar yayır.

Yalan və dezinformasiya xarakterli informasiyalar təkcə Bakıya qarşı deyil, həm də beynəlxalq ictimaiyyətə yönəlmiş mesaj kimi qiymətləndirilir. Ermənistan bu kimi saxta məlumatlar, dezinformasiya vasitəsilə Azərbaycanı, guya, sülh prosesinə zidd addımlar atan tərəf kimi qələmə verməyə çalışır. Halbuki faktlar tamamilə əksini göstərir. Azərbaycan Müdafiə Nazirliyi hər dəfə yayılan bu tip məlumatlara operativ şəkildə reaksiya verir, reallığı üzə çıxarır və ictimaiyyətə sübutlara əsaslanan açıqlamalar təqdim edir. Bu yanaşma informasiya müharibəsində obyektivliyin qorunması və ictimai rəydə manipulyasiyanın qarşısının alınması baxımından olduqca vacibdir.

*

Onu da qeyd edək ki, İrəvanın yalan məlumat yaymaq siyasəti yalnız hərbi sahədəki təxribatlarla məhdudlaşmır. Həqiqət budur ki, Ermənistan dəfələrlə Azərbaycan Ordusunun sərhəddəki mövqelərini və yaşayış məntəqələrini atəşə tutur, pilotsuz uçuş aparatları və dronlar vasitəsilə kəşfiyyat uçuşları həyata keçirməyə çalışır. Bu cür addımlar regionda onsuz da həssas olan hərbi-siyasi tarazlığı pozur, yeni gərginlik ocaqları yaradır. Təəssüf ki, Ermənistan bu cür təxribatlarını gizlətmək üçün dezinformasiyanı əsas vasitəyə çevirərək beynəlxalq auditoriyanı da çaşdırmağa çalışır.

Məsələnin daha təhlükəli tərəfi isə Ermənistan tərəfindən davamlı olaraq yayılan bu saxta məlumatların regionda sabitliyə və sülhə birbaşa təhlükə yaratmasıdır. Belə təxribatlar hərbi eskalasiya riskini artırmaqla yanaşı, Cənubi Qafqazda mühüm regional iqtisadi layihələrin və nəqliyyat-kommunikasiya xətlərinin icrasına da mənfi təsir göstərir. Münaqişənin yenidən alovlanması ehtimalı yalnız Azərbaycan və Ermənistan üçün deyil, ümumilikdə, region üçün böyük təhdid yaradır. Buna görə də vəziyyətin düzgün qiymətləndirilməsi və reallığın təhrif edilməsinə imkan verilməməsi çox vacibdir.

Ümumiyyətlə, bu cür yanaşmalar, xüsusilə siyasi sabitliyin pozulduğu, ictimai narazılığın artdığı dövrlərdə daha da intensivləşir. Ermənistan rəhbərliyi daxili çətinlikləri, o cümlədən iqtisadi geriləmə, sosial narazılıq, siyasi parçalanma kimi problemləri arxa plana keçirmək məqsədilə xaricdən "təhdid" görüntüsü yaratmağa çalışır. Bu zaman informasiya manipulyasiyası əsas alətlərdən birinə çevrilir. Daxili gərginliyə isə Rusiyanın Gümrüdəki 102 saylı hərbi bazasının gücləndirməsi, ölkədə çevriliş ehtimalı ilə bağlı şayiələr səbəb olur.

Xarici siyasət baxımından isə Ermənistanın bu davranışları regionda güc balansını dəyişmək və beynəlxalq ictimaiyyətin diqqətini müəyyən istiqamətə yönəltmək məqsədi daşıyır. Ermənistan rəhbərliyi həm də müxtəlif beynəlxalq platformalarda özünü "təhlükə altında olan tərəf" kimi təqdim etməklə, dəstək qazanmağa çalışır. Bu isə bir növ informasiya müharibəsi taktikasına çevrilib.

Bütün bunlar göstərir ki, Ermənistanın mövcud yanaşması təkcə spontan addımlar olmayıb, həm daxili siyasi məqsədlərə çatmaq, həm də xarici siyasətdə öz maraqlarını qorumaq üçün düşünülmüş bir strategiyanın tərkib hissəsidir.

Yada salaq ki, rəsmi İrəvan dezinformasiya yaymaqla yanaşı, konstitusiyasında hələ də Azərbaycana qarşı ərazi iddialarını qoruyub saxlayır. Bu isə onu göstərir ki, Ermənistan rəhbərliyi sülhə hazır deyil və əksinə, prosesi uzatmaqla status-kvonu qoruyub saxlamağa çalışır. Əgər Ermənistan həqiqətən sülh istəyirsə, ilk növbədə, özünün əsas qanunlarında Azərbaycana qarşı ərazi iddialarının yer aldığı müddəaları aradan qaldırmaq üçün praktiki addımlar atmalıdır. Lakin bu istiqamətdə indiyədək heç bir konkret irəliləyiş müşahidə olunmur. Əksinə, Ermənistan tərəfi silahlanmaqda, hərbi mövqelərimizi hədəfə almaqda, sərhəddə gərginlik yaratmaqda davam edir.



Bütün bu təxribatların fonunda diqqət çəkən digər məqam Ermənistan rəhbərliyinin xarici dairələrin diktəsi ilə hərəkət etməsidir. Politoloq Mətin Məmmədlinin də qeyd etdiyi kimi, Ermənistanın bu addımları ölkəni silahlandıran və regionda vəziyyəti daha da gərginləşdirmək istəyən bəzi xarici mərkəzlərin sifarişi ilə atılır: "Bu, yalnız sülh danışıqlarını çətinləşdirmir, həm də müqavilənin imzalanmasını əngəlləyir. Eyni zamanda, Ermənistan ictimaiyyətində yanlış illüziyaların yaranmasına səbəb olur, onun silahlanmasına rəvac verir. Silahlanmada Fransa və Hindistan yaxından iştirak edir. Bu isə onu göstərir ki, Ermənistan bölgədəki sabitliyi pozmaq üçün alətə çevrilib". Xüsusilə Qərbdəki bəzi mərkəzlər Ermənistanı müxtəlif vədlərlə ovutmaqla, onu silahlandırmaqla və revaşist əhval-ruhiyyəni təşviq etməklə bölgədə yenidən hərbi qarşıdurma yaratmağa çalışırlar.

Mövcud vəziyyət göstərir ki, əslində sülhə daha çox ehtiyacı olan tərəf məhz Ermənistandır. Azərbaycan öz ərazi bütövlüyünü təmin etmiş, beynəlxalq hüququn prinsiplərinə əsaslanan siyasət yürütmüş və regionda sabitliyin əsas təminatçısına çevrilmişdir. Ermənistan isə işğalçılıq siyasətinin acı nəticələri ilə üz-üzə qalmış, siyasi, iqtisadi və hərbi baxımdan zəifləyərək beynəlxalq aləmdə nüfuzunu itirmiş vəziyyətdədir. Buna baxmayaraq, Ermənistan rəhbərliyi Bakının bölgədə yaratdığı reallığı qəbul etmək və sülhə doğru ciddi addımlar atmaq əvəzinə, təxribatlar və dezinformasiyalarla vəziyyəti gərginləşdirməyə davam edir.

Beləliklə, Ermənistan tərəfindən sərhəddə atəşkəsin pozulması kimi yalan məlumatlar nə real vəziyyəti əks etdirir, nə də regional sabitliyə xidmət edir. Əksinə, gərginliyi artırır və tərəflər arasında formalaşmış birbaşa dialoq imkanlarını zəiflədir. Belə halların təkrarlanmaması üçün Paşinyan iqtidarı beynəlxalq hüquq normalarına riayət etməli, informasiya müharibəsi metodlarından imtina etməli və sülhə yönəlmiş praktiki addımlar atmalıdır.

Əks halda, sülh prosesinin irəliləməsi qeyri-mümkün olacaq və region yeni qarşıdurmalar təhlükəsi ilə üzləşəcək. Azərbaycanın mövqeyi isə açıq və birmənalıdır: Sülh yalnız real addımlarla mümkündür, yalanlarla və təxribatlarla yox.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Rusiya mediası niyə susmalıdır?

## *Yaxud erməni goreşənliyinə rəvac verənlər haqqında nekroloq*

**Məlum olduğu kimi, erməni əsilli rus rəssamı İvan Ayvazovskinin (Ovanes Ayvazyan) Xankəndidə Qarabağdakı rus sülhməramlıları tərəfindən quraşdırılmış abidəsinin sökülməsinə daha bir reaksiyanı "Moskovskiy Komsomolets" nəşri verib. Yada salaq ki, bu, ötən həftə Rusiya Prezidentinin beynəlxalq məsələlər üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoyun TASS-da yayımlanmış müsahibəsindən sonra ikinci reaksiya sayıla bilər.**




Qeyd edək ki, cənab Şvıdkoy Ayvazovskinin abidəsinin sökülməsini Rusiya mədəniyyətinə hörmətsizlik kimi qiymətləndirmişdi. Bu şəxsin daha əvvəl Azərbaycanda rus mədəniyyəti ilə bağlı tədbirlərin ləğvinin ölkəmiz mədəni mühitini yoxsullaşdıracağına dair fikirlərini də bilirik. Ancaq "Moskovskiy Komsomolets" "Bakı Ukraynanın ardınca abidələrə müharibə elan edir" sərlövhəli yazısında daha "irəli" gedib. Nəşr, öz aləmində, məlum olayla nasist Almaniyasının vaxtilə mədəni irsə təcavüzü arasında paralel aparıb.

Ümumən, "Moskovskiy Komsomolets" müəllifi Marina Perevozkina olan yazısında bir çox mətləblərə toxunub. Bu sırada Ayvazovskinin öyülməsindən tutmuş, Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin reaksiyasına, o cümlədən AZƏRTAC-ın yaydığı bəyanatda hazırkı Rusiya şəhərlərinin əsl adlarının çəkilməsinədək bir çox cəhətləri vurğulamaq mümkündür.

Ən başlıcası isə hiss olunur ki, müəllifə daha çox yer edən qədim Azərbaycan şəhərinin Stepanakert yox, məhz Xankəndi adlandırılmasıdır. Xanım Perevozkina ən müxtəlif həyasızlıq formaları ilə qondarma Stepanakertə haqq qazandırmaq yolu tutur. Daha bir vacib məqam odur ki, "Moskovskiy Komsomolets" Ayvazovskinin heykəlinin sökülməsini onun erməni mənşəyi ilə əsaslandırıb. Halbuki, Azərbaycan XİN-in açıqlamasında Rusiya sülhməramlılarının, belə demək mümkünsə, abidə özbaşınalığından söz açılır, bildirilir ki, Ayvazovskinin heykəlinin quraşdırılması ölkəmizlə razılaşdırılmayıb.

"Moskovskiy Komsomolets" tərəfindən irəli sürülmüş digər cəfəng fikirlər barədə söz açmağa ehtiyac duymuruq. Məqsədimiz bir vacib saydığımız məqamı qabartmaqdır. Bunun üçün isə azacıq tarixə ekskurs etmək niyyətindəyik. O tarixə ki, onun xarakterizə edən başlıca məqam rus işğalıdır. O işğal ki, 1813-cü ilin Gülüstan və 1828-ci ilin Türkmənçay müqavilələri ilə rəsmiləşmişdi.

Bəli, Rusiya tərəfindən Azərbaycan torpaqlarının işğalı başa çatdıqdan sonra bölgəyə ermənilərin yerləşdirilməsinə başlanmışdı. Proses erməni vilayətinin formalaşdırılması ilə başlanmışdı. 1918-ci ildə isə Ermənistan Respublikası yaranmışdı. Qurama dövlətin paytaxtı qədim Azərbaycan şəhəri olan İrəvan olmuşdu. İrəvanın sovet işğalından sonra Ermənistan SSR-in paytaxtı olduğu da məlumdur.

O da məlumdur ki, məhz sovet hakimiyyəti illərində Ermənistanda azərbaycanlıların mədəni-tarixi irsinin sistemli şəkildə məhvinə start verilmişdi. Əslində, proses Çar Rusiyasının başlatdığı, SSRİ-nin davam etdirdiyi iki yüz illik erməni planının tərkib hissəsi olmuşdu. Çar Rusiyası hayları bölgədə türk-müsəlman dünyasını parçalamaq üçün yerləşdirmişdi. Bakının erməniləşdirilməsi, habelə 1918-ci ilin mart soyqırımı da eyni mənfur ssenarinin tərkib hissəsi idi. Sovetlər Birliyi isə bir qədər fərqli yol seçdi. Ermənilərə böyük imtiyazlar və ərazilər vermiş sovet hakimiyyəti, eyni zamanda, Ermənistanda azərbaycanlılara məxsus tarixin silinməsinə qol çırmamışdı. Ümumən, SSRİ-nin mövcudluğu dövründə anti-Azərbaycan fəaliyyət həmişə özünü göstərmişdi. Tam qətiyyətlə demək olar ki, bu "fəaliyyətin" qarşısına çıxan isə Ulu öndər Heydər Əliyev olmuşdu. Sovet rəhbərliyi kluarlarındakı tendensiyalardan yaxşı xəbərdar olan bu böyük dühа həm qətiyyəti, həm də səriştəsi ilə böyük oyunları pozmuş, ifadələri, çıxışları ilə bir çox məkrli niyyətləri beşiyindəcə boğmuşdu. Təsadüfi deyil ki, Ümummilli liderin SSRİ-dəki hakimiyyət olimpindən uzaqlaşdırılmasından dərhal sonra ermənilərin Qarabağ avantürası start götürmüşdü. O avantüra ki, onun qızışdırılmasında SSRİ rəhbərliyi "müstəsna" rol oynamışdı. O SSRİ ki, bugünkü Rusiya özünü onun ardıcılı sayır.

Bəli, Rusiya illər ərzində Ermənistan tərəfindən Azərbaycan torpaqlarının işğalda saxlanılmasına göz yumdu. Üstəlik, təcavüzün reallaşmasında ölkəyə birmənalı dəstək göstərdi. Diqqət, yetirək, otuz ilədək davam etmiş işğal dövründə Azərbaycanın mədəni mirası hay vandallığına məruz qaldı, xalqımızın abidələri erməniləşdirildi. SSRİ işğalı zamanında da eyni proseslər yaşandı. Sovetlər Birliyinin ali rəhbərliyi Ermənistan SSR rəhbərliyinin respublikadakı türk-müsəlman irsinə aşkar təcavüzünə göz yumdu. Bu gün İrəvandakı Göy Məscid Azərbaycan irsinin, deməkolar, yeganə salamat nümunəsidir. Məscid 90-cı illərdə İran Mədəniyyət Mərkəzinə icarəyə verilmişdi. Sən demə, abidənin şiə məscidi olması onun İran məscidi olması deməkimiş.

Qeyd edək ki, Göy məscid azərbaycanlı-türk Qacarlar sülaləsinin mirasıdır, Azərbaycan memarlığı üslubunda tikilib. Bu yerdə Prezident İlham Əliyevin yerli televiziya kanallarına müsahibəsindəki bir fikri xatırlatmaq istərdik: "1918-ci ildə Azərbaycan Demokratik Respublikası yarananda bir gün sonra (29 mayda – red.), əfsuslar olsun ki, İrəvan şəhəri ermənilərə verildi. Halbuki bunun heç bir əsası yox idi. İrəvan qədim Azərbaycan şəhəridir, Azərbaycan xalqı əsirlər boyu orada yaşayıb və İrəvanın bu gün silinməkdə olan tarixi görkəmi Azərbaycan memarlıq abidəsinin çoxəsirlik mövcudluğunu təsdiqləyir. Və İrəvan o şəhərlərdəndir ki, sanki orda "köhnə şəhər" yoxdur. Sadəcə ona görə ki, ora Azərbaycan şəhəri olub və o da sökülüb-dağılıb".

Ümumən, mədəniyyət nümunələri və tarixi abidələr insanları birləşdirən dəyərlərdir. Bu dəyərlər xalqlar arasında anlayışa xidmət etməlidir. Ermənistan bu anlayışdan həmişə uzaq olub. Yalnız Göy məscidin timsalında onu demək olar ki, ölkə irqçiliyi və azərbaycanofobiyanı özünün ideoloji mübarizə predmeti kimi görüb. Hələ müasir Ermənistan ərazisində yüzlərlə dağıdılmış türk-müsəlman irsi nümunəsi var ki, onlardan söz açmaq üçün ayrıca nəinki məqalələrə, hətta əsərlərə ehtiyac var. Sözümüzün canı isə odur ki, bu gün Ermənistanın tarixi-mədəni irsə təcavüzü kontekstində reallaşdırdığı hər bir vandallıq aktının arxasında rus imperializminin izləri var və bu gün eyni imperializm xislətinin daşıyıcıları TASS, "Moskovskiy Komsomolets" kimi media orqanlarında bizə dərs deməyə qalxmasınlar. Çünki Cənubi Qafqazda mədəni irsə münasibətdəki vandallıq aktlarının təməlində rus imperializminin də xisləti dayanır.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Dövlətçilik uğrunda savaş yeni mərhələdə




**III MƏQALƏ**

## Prinsipial mövqe

Gənc nəslə strateji sərvət kimi diqqət göstərilməsi dövlətçilik savaşında prinsipial mövqeni ifadə edir. Çünki indi bir sıra kənar dairələr əsas olaraq Azərbaycan dövlətçiliyini içəridən sarsıtmağa üstünlük verirlər. Vətən müharibəsi göstərdi ki, Azərbaycan dövlətini hərbi güclə zəiflətmək və ya onun dayaqlarını laxlatmaq mümkün deyildir. Əksinə, kənardan təzyiq və təhlükə nə qədər yüksək olursa, cəmiyyət bir o qədər birləşir. Bu birliyin əsas qüvvəsini isə gənclər təşkil edir. Azərbaycan gəncləri II Qarabağ müharibəsində böyük qəhrəmanlıq və dəyanət nümayiş etdirdilər. Bir nəfər də olsun fərarilik etmədi. Əksinə, yüz minlərlə azərbaycanlı gənc döyüş meydanına can atırdı. Çox qısa müddətdə aydın oldu ki, azərbaycanlı gənclərin mənəvi hazırlığı yüksək səviyyədədir. Onlarda vətənpərvərlik duyğusu böyükdür.

Bu səbəblərdən, Azərbaycan dövlətçiliyi uğrunda savaş postmüharibə mərhələsində tədricən mənəvi, əxlaqi, ideoloji və mədəni müstəviyə transfer etdi. Hazırda geniş anlamda, Azərbaycan dövlətçiliyi uğrunda savaş hər şeydən öncə Azərbaycan insanı uğrunda mübarizə xarakteri almışdır. Bu məqam cəmiyyət üçün yeni vəzifələri meydana çıxarır. İlham Əliyevin gənclərə müraciətinin təməlində bu məsələ dayanır. Burada təbii ki, milli ənənələrə, milli-mənəvi dəyərlərə sadiqlik xüsusi yer tutmalıdır. O da sağlam ailə məsələsinə yeni səviyyədə strateji anlam verir. Dövlətçilik və sağlam ailə mövzusu bu baxımdan bir-biri ilə sıx əlaqədə nəzərdən keçirilməlidir. Azərbaycan Prezidentinin sözün həqiqi mənasında sağlam ailə modelini yeni tarixi mərhələdə dövlətçilik uğrunda mübarizədə ön sırada görməsi gerçəkliyə tam uyğundur.

## Azərbaycan cəmiyyətində ailə

İndi sosial şəbəkələrdə və KİV-də ailə ilə bağlı informasiyalara böyük həssaslıq yaranmışdır. Azərbaycan cəmiyyəti həmişə ailənin mənəvi-əxlaqi dayaqlarına ciddi surətdə bağlı olduğundan toplum bu məsələni indi də öz mənəvi sağlamlığının mərkəzi və əsas təşkiledici faktoru kimi təsəvvür edir. Ailə Azərbaycan cəmiyyətinin ənənəsində çox ağır və xüsusi rolu olan faktor kimi qəbul edilmişdir. Çünki Azərbaycan cəmiyyətinin özüntəşkili fəlsəfəsinin dayağı və əsas daşıyıcı subyekti məhz ailədir. Bu baxımdan Azərbaycan ailəsinin sağlamlığı uğrunda mübarizə avtomatik olaraq Azərbaycan cəmiyyəti və dövlətçiliyi uğrunda savaş kimi qəbul edilir.

Prezident İlham Əliyevin lider olaraq doğru addımı ondan ibarətdir ki, dövlət quruculuğunda Azərbaycan ailəsi faktorunu vətəndaş cəmiyyətinin inkişafının mərkəzinə yerləşdirmişdir. Bu mənada, obrazlı desək, "hər şey ailədən başlayır". Lakin onunla məhdudlaşmır. Çünki Azərbaycan dövlətçiliyində ailənin sağlamlığının bir aspekti törəyə bağlıdırsa, digəri təhsillə əlaqəlidir. Yəni məktəbə dayanıqlıdır. Onların hər hansı birinin axsaması bütövlükdə ailədə və ümumi halda cəmiyyətdə ciddi problemlər yaradır. Biz məsələnin tarixi və siyasi aspektinə keçmədən öncə, bir mühüm sosial və ideoloji məqamı vurğulayaq.

## Ailənin təməllərini sarsıtma üsulları

Çoxdandır ki, Azərbaycan informasiya məkanında bu və ya digər aldadıcı üsullarla bir sıra dairələr Azərbaycan ailəsinin təməllərinin sarsıdılmasına yönəldilmiş informasiyaları tirajlayırlar. Bunu iki aspektdə etməyə çalışırlar. Birincisi, yad ailə modellərini Azərbaycan ailəsinin özünütəşkil qaydalarından daha mütərəqqi olduğunu təbliğ etməyə cəhdlər göstərirlər. Bunun üçün bütün əsrlərdə hər bir cəmiyyətdə rast gəlinən neqativ münasibətləri yalnız Azərbaycan ailəsinə aid etməyə çalışırlar.

Məsələn, xüsusilə qadının hansısa cinayətini bizim ailə ənənələrimiz, dinimiz və dövlətçilik məfkurəmizlə bağlamağa çalışırlar. Son illərdə eyni fəndi Türkiyəyə tətbiq etmək cəhdlərinə rast gəlinir. Türkiyə ailələrinə əsasən ifrat açıq-saçıqlığı və ictimai yerlərdə qadınların geniş təhqir edilməsini aid etməyə çalışırlar. Bunun fonunda həm Türkiyədə, həm də Azərbaycanda ailələrdə heyvanlara sevgi deyil, qəddarlıq hissinin tərbiyə edildiyi görüntüsü yaratmaq tendensiyası özünü göstərir.

İlk baxışdan gündəlik məişət həyatının prosesləri kimi görünən bu informasiyaların şüuraltı təsiri tamamilə fərqli məqsədlərə xidmət edir. Bununla "bir gülləyə iki hədəfi vurmaq" məqsədini güdürlər. Birincisi, konkret olaraq Azərbaycan cəmiyyətinin özünütəşkilinin bazası olan ailə modelini gözdən salır, onu artıq köhnəlik və şiddət "yuvası" kimi göstərməyə çalışırlar. İkincisi, bu neqativ halın ümumiyyətlə türk toplumlarına aid olduğu təəssüratı yaratmaq niyyəti aydın görünür. Yəni bütövlükdə türk ailə modeli müasir tələblərə cavab vermir. "Bəs nə etməli?" sualı buradan avtomatik yaranır.

"Bizim qoçaq müasirlər" onun "dərmanı"nı da təqdim edirlər. Bunun üçün Qərbin və bütövlükdə xristian dünyasının ailələrini nümunə kimi göstərən "faktlar"ı "sakitcə" sırıyırlar. Məsələn, ingilis ailəsi necə istirahət edir və ya amerikan ailəsi hansı sürətlə ictimai yüksəlişə nail olur. Bunların fonunda yad ailələrin hansı böyük sevgi ilə heyvanlara münasibət göstərdiyini də təbliğ edirlər. Buna görədir ki, Azərbaycan Prezidenti yeni tarixi mərhələdə dövlətçilik kontekstində "ailə tərbiyəsi hər bir gənc üçün, hər bir uşaq üçün əsas tərbiyədir. İkinci yerdə məktəb tərbiyəsidir" tezisini xüsusi vurğulayır.

Bu, adi yanaşma deyildir. Bizim yuxarıda sadəcə bir qismini vurğuladığımız neqativ prosesə dövlət və cəmiyyət səviyyəsində reaksiya verilməsi zəruriliyinin dəqiq ifadəsidir. Bəli, uşaq ailədə tərbiyə almalıdır, küçələrdə və ya yad məkanların üstünlük təşkil etdiyi yerlərdə yox! Ailə başçıları hər bir uşağının məsuliyyətini fərdi və ya tayfa səviyyəsində deyil, bütöv cəmiyyət miqyasında dərk etməlidir. Bu da kifayət etmir. Yeni tarixi mərhələ hər bir ailənin bu problemə birbaşa dövlətçiliyin gələcək taleyi kontekstində baxmasını tələb edir.

Azərbaycan Prezidentinin ailə və gənclərin tərbiyəsi məsələsini birbaşa dövlətçilik uğrunda mübarizə kontekstində qoymasının tarixi, siyasi və ideoloji əsasları vardır.

## Ailə və cəmiyyətin özünüyaratması

Qədimdən Azərbaycan ailəsi bütövlükdə cəmiyyətin özünü yaratmasının əsas vahidi olmuşdur. Buna cəmiyyətdə üç qanunun (hüququn) qarşılıqlı əlaqəsi çərçivəsində nail olunmuşdur. Bunlardan biri hökmdar qanunu (hakimiyyətin qanunlarına əməl etmək), ikincisi divan qanunu (parlamentin çıxardığı qanunlara uymaq) və üçüncüsü, törə, yəni cəmiyyətin özünüyaratması qanunudur (ona Yosun qanunu da deyirlər). Bu üç qanunda aparıcı və müəyyənedici rolu cəmiyyətin özünüyaratması üsulları oynamışdır. Belə ki, Azərbaycanda ailənin yaradılması fəlsəfəsi nəsil, kök, qəbilə, tayfa, xalq və millətin formalaşmasının əsasını təşkil etmişdir. Əgər Azərbaycan ailəsinin yaradılması fəlsəfəsi yad qaydalara uyğun aparılsa, ümumi səviyyədə formalaşacaq cəmiyyəti Azərbaycan cəmiyyəti adlandırmaq mümkün olmayacaq. Bu da dövlət quruculuğunun xalq suverenliyindən qaynaqlanmadığının göstəricisi ola bilər. Belə bir istiqamət Azərbaycan dövlətçiliyinin davamlı və dayanıqlı olmaq ənənəsinə uyğun deyildir. Bir sözlə, hətta Azərbaycan dövləti o halda mövcud olmaya bilər.

Burada ailənin formalaşmasında ənənə ilə müasirliyin vacib nisbəti məsələsi başqa mövzudur. Onun təhlili fərqli yanaşma tələb edir.

## Ailə və toplumun siyasi birliyi

Ailə birliyi tarixən Azərbaycanda siyasi birliyin təməli olmuşdur. Çoxlu sayda faktlar mövcuddur ki, ən kritik situasiyalarda belə, qarşıdurmadan birliyə ailələrin fəallığı sayəsində keçilmişdir. Nəsil, kök, tayfa strukturunda elə ailələr mövcud olur ki, onlar həlledici söz deyə bilirlər. "Böyük-kiçik" və "ağsaqqal-gənc" dixotomiyası çərçivəsində əsrlərlə münaqişələrin qarşısı alınmış və toplum birləşmişdir. Deməli, ailə kritik vəziyyətlərdə bütövlükdə cəmiyyətin parçalanmasının qarşısını ala bilir. Müasir Azərbaycan tarixi bu cəhətin indi də rol oynadığını bir neçə dəfə göstərmişdir. Deməli, ailə birliyi hazırkı dönəmdə də Azərbaycan cəmiyyətinin siyasi birliyini stimullaşdıra bilər.

Əgər toplumun həmrəyliyinin bu dayağını zəiflətsələr, birbaşa siyasi birliyə ziyan vurulmuş olacaq. Ailə ənənələri üzərində bərqərar olunmuş bir cəmiyyətin transformasiyası proses olaraq magistral xətdən çıxırsa, onun düzəlməsi uzun çəkir. Yeri gəlmişkən, müasir fransız tarixşünaslığında zadəgan ailə ənənəsi də cəmiyyətin formalaşmasında çox ciddi rol oynayan faktor kimi təhlil edilmişdir.

P.Nora, F.Aries və başqaları maraqlı nəticələr almışlar. Məsələn, F.Aries orta əsr fransız zadəgan ailəsinin mental, psixoloji, sosial, ünsiyyət və s. özəlliklərini tədqiq etməklə bütövlükdə fransız cəmiyyətinin mentallığı, özünüyaratma fəlsəfəsi ilə bağlı nəzəri qənaətlər əldə etmişdir. Onların əsasında F.Aries Fransanın kollektiv yaddaşını və kollektiv mentallığını təhlil etmişdir. Bütün bunlar ailənin yaranmasının sonrakı mərhələlərdə hansı mexanizmlərlə bütövlükdə cəmiyyətin transformasiyasına təsir etdiyinin mühüm cəhətlərini elmi izah etmyə imkan verir.

Müasir dövrdə hər bir cəmiyyəti mədəniyyəti, mənəviyyatı, tarixi yaddaşı və mentallığı ilə xarakterizə edirlərsə, onda dövlət quruculuğunun perspektivi ilə cəmiyyətin özünyaratması fəlsəfəsi arasında vəhdətin varlığına qətiyyən şübhə yeri qalmır. Prezident İlham Əliyevin ailə və gənclərin ailədə tərbiyəsi məsələsini yüksək dərəcədə dövlət quruculuğu kursu ilə əlaqələndirməsinin tarixi və siyasi səbəbləri bu fikirlərdən bir daha aydın olur. Ailənin sağlamlığı uğrunda savaş siyasi kontekstdə həm də dövlətçilik uğrunda savaşın tərkib hissəsidir. Yeni tarixi mərhələdə bu aspektin rolu daha da artmışdır!

Yuxarıda aparılan təhlilin fonunda Prezident İlham Əliyevin aşağıdakı fikri çox əhəmiyyətlidir. Ölkə lideri demişdir: "Azərbaycançılıq ideologiyası, azərbaycançılıq prinsipləri Azərbaycanda çoxdan bərqərar olub. Ulu öndər Heydər Əliyevin bizə qoyduğu dəyərli miraslardan biri də məhz azərbaycançılıq məfkurəsidir. Biz – onun davamçıları isə bu müsbət meyilləri öz tərəfimizdən daha da gücləndiririk. Azərbaycanda yaşayan bütün xalqlar vahid, mehriban ailə kimi yaşayır. Bizim birliyimizi pozmaq istəyənlər nə qədər cəhd göstərsələr də buna nail ola bilməyiblər və heç vaxt nail ola bilməyəcəklər. Çünki biz hamımız bir amal uğrunda birləşmişik".

Bu tezis problemi avtomatik olaraq ideoloji müstəviyə yönəldir. Azərbaycan dövlətçiliyi uğrunda savaşda ideoloji faktorun təbliğat və təşviqatın sintezi kimi oynadığı rol yeni tarixi mərhələdə yeni məna çalarları alır. Həmin məsələ Prezident İlham Əliyevin "bizim ailəmiz türk ailəsidir" tarixi kəlamı kontekstində çox əhəmiyyəli görünür.

Çünki burada, ümumiyyətlə, hər bir cəmiyyətdə ailənin yaranması, onun sosial funksiyaları ilə eyni etnosa mənsub bir neçə xalqın birliyinin simvolu olan "ailə" anlayışının sosial, siyasi, geosiyasi, təhlükəsizlik, inkişaf, əməkdaşlıq və s. funksiyaları arasında fərqləri görmək gərəkdir. Yəni bir neçə cəmiyyəti birləşdirən "türk ailəsi" anlayışı nələri ehtiva edir və onun dövlətçilik uğrunda mübarizənin yeni mərhələsindəki rolu nələrdən ibarət ola bilər?

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

**Azərbaycanın enerji diplomatiyası son illər siyasi-strateji və təhlükəsizlik prizmasında da təsir gücünə malik olan çoxvektorlu alət rolunu oynayır. Əvvəllər yalnız iqtisadi maraqların təmininə xidmət edən bu siyasət bu gün artıq yeni geosiyasi reallıqlar fonunda Prezident İlham Əliyevin rəhbərliyi ilə formalaşan strateji vizion sayəsində transformasiyaya uğrayaraq daha mürəkkəb və çoxqatlı regional dinamikanın mühüm komponentinə çevrilir. Bakı son illərdə enerji siyasətini təkcə Avropa bazarlarına istiqamətləndirməklə kifayətlənməyib, eyni zamanda, Cənub istiqamətində – Yaxın Şərqə doğru yeni strateji dəhlizlərin qurulmasına başlayıb. Məhz bu istiqamətdə Suriyanın bərpası kontekstində siyasi iradə ilə atılan addımlar Azərbaycanın regional təsir gücünü artırmaq üçün yumşaq güc alətlərinə nə dərəcədə səriştəli şəkildə yanaşdığını sübut edir.**

# Qafqazdan Orta Şərqə

## *Enerji diplomatiyamız sərhədləri aşıb*




Suriyanın İdlib, Afrin, Əl-Bab və Cerablus bölgələrinə Azərbaycan qazının nəqli bu ölkənin uzunmüddətli müharibə nəticəsində məhv olmuş sosial-iqtisadi infrastrukturunun yenidən qurulmasına real və praktik töhfə verməklə yanaşı, Azərbaycanın öz xarici siyasət alətlərində enerji vasitəsilə sabitlik transferinə keçdiyini göstərir. Qazın tədarükü sayəsində bu bölgələrdə həyat normal ritminə qayıdacaq



– kiçik sənaye müəssisələri fəaliyyətə başlayacaq, insanlar öz doğma yerlərinə qayıtmağa təşviq olunacaq, sosial sabitlik hissi bərpa ediləcək.

Prosesin səthi humanitar təşəbbüs kimi görünməsi mümkün olsa da, əslində daha dərin və strateji baxışın məhsuludur. Azərbaycanın bu yanaşması enerji siyasətini coğrafi baxımdan şaxələndirməklə yanaşı, siyasi mövqeyini də genişləndirməyi hədəfləyir. Əgər bu gün Azərbaycan Avropada etibarlı enerji tərəfdaşı kimi tanınırsa, artıq Yaxın Şərqdə də eyni statusa iddialıdır. Bakı regional əməkdaşlıq formatlarını yalnız diplomatik ritorika ilə deyil, konkret infrastruktur layihələri və enerji təminatı vasitəsilə qurur.

Eyni zamanda, bu siyasət Türkiyə ilə əlaqələrin daha strateji xarakter almasında katalizator rolunu oynayır. İki ölkənin Suriyanın şimal-qərb bölgələrindəki koordinasiyası birgə hərəkət mexanizmlərinin dərinləşdiyini və qarşılıqlı maraqların konkret sahələrdə – enerji, təhlükəsizlik, bərpa – uzlaşdırıldığını göstərir. Azərbaycan qazının məhz Türkiyənin nəzarətində olan ərazilərə yönəldilməsi siyasi niyyətin ifadəsidir: əslində bu addım Bakı ilə Ankaranın Yaxın Şərqdə sinxron hərəkətini və birgə geosiyasi layihələrə rəhbərlik etdiyini nümayiş etdirir.

Azərbaycanın Yaxın Şərqdəki yeni enerji xətti onun diplomatik-dövlətçilik məntiqinin dəyişdiyini, öz resurslarından geosiyasi güc mənbəyi kimi istifadə etməkdə nə qədər sistemli və ardıcıl davrandığını da təsdiqləyir. Azərbaycanın Suriyaya qaz ixracı layihəsi regional güclərin geosiyasi maraqlarının üst-üstə düşdüyü strateji bir platformadır. Təşəbbüsün gerçəkləşməsində Türkiyə ilə Azərbaycan arasında uzun illərdir qurulan qarşılıqlı strateji etimad və sinxron koordinasiya həlledici rol oynayır. Əslində, bu, iki ölkənin birgə hərəkət mexanizmlərinin artıq post-münaqişə zonalarına da daşındığını göstərir. Ankaranın Suriyanın şimal-qərbində – İdlib, Afrin, Əl-Bab və Cerablusda – nəzarəti altında saxladığı ərazilər, həm təhlükəsizlik baxımından, həm də sosial-iqtisadi stabilliyin qurulması üçün siyasi laboratoriya rolunu oynayır. Azərbaycan məhz bu konteksdə həmin bölgələrə enerji ixrac etməklə özünü həm də regional bərpa tərəfdaşı kimi təqdim edir.

Türkiyə ilə sinxron şəkildə aparılan bu siyasət həm də Ankaranın regional strategiyası ilə Azərbaycanın xarici siyasət prioritetlərinin üst-üstə düşməsinin təzahürüdür. Əgər daha əvvəl Bakı ilə Ankara əsasən Avrasiya dəhlizləri üzərində əməkdaşlıq edirdilərsə, indi bu əməkdaşlıq Yaxın Şərqdə sosial mühəndislik və post-münaqişə idarəçiliyi səviyyəsinə keçib. Azərbaycan qazının Suriyaya yönləndirilməsi həm də regional enerji xəritəsini dəyişdirir. Artıq Bakı təkcə TAP və TANAP vasitəsilə Avropaya çıxan ölkə deyil, eyni zamanda, Cənubdan Yaxın Şərqə strateji enerji arteriyası açan regional gücdür. Bütün bu addımlar isə onu gələcəkdə İordaniya, Livan və hətta İraq bazarları üçün də cəlbedici enerji təchizatçısına çevirir.

Əslində, bu modelin əsasında sadə bir məntiq dayanır: sabitlik enerji ilə başlayır, iqtisadi bərpa enerji ilə canlanır, sosial nizam isə enerji təchizatı fonunda sabitləşir. Azərbaycan bu mənzərədə yeni oyun qaydaları ilə çıxış edir – qlobal siyasətdə böyük olmaq üçün böyük ölkə olmaq vacib deyil, doğru anda doğru mövqedə olmaq kifayətdir. Və hazırda Bakı məhz belə bir mövqe tutub – öz resursları ilə yeni sabitlik modellərinin memarı roluna iddia edir. Azərbaycanın Suriyaya qaz ixrac etməsi ilə başlayan yeni mərhələ təkcə enerji siyasətində transformasiya deyil, eyni zamanda, ölkənin beynəlxalq siyasi imicinin və regional güc statusunun yenidən dizaynıdır. Hazırkı proses Azərbaycanın illərdir üzərində çalışdığı multivektorlu xarici siyasət kursunun konkret nəticələr verməyə başladığını göstərir.

Yaxın Şərqdəki güc balansı son onilliklərdə sabitlikdən daha çox dinamika ilə xarakterizə olunub. Ərəb Baharı, Suriyada və İraqda baş verən vətəndaş müharibələri, transsərhəd terror şəbəkələrinin yüksəlişi və böyük güclərin bir-biri ilə toqquşan maraqları bu regionu təhlükəsizlik baxımından dünya xəritəsinin ən çətin guşələrindən birinə çevirib. Məhz belə bir məkanda Azərbaycan resurs əsaslı, amma məqsədyönlü yumşaq güc siyasəti ilə görünməyə başlayıb. Hədəf nəzarət və ya dominasiya deyil – hədəf sabitlik, təsir və reputasiya qazancıdır.

Azərbaycan qazının Suriyaya ixracı bu çərçivədə həm də beynəlxalq münasibətlərdə yeni tip davranış modelinin təcəssümüdür. Bakı gücünü göstərmək üçün iqtisadi imkanlarına və sabitlik transferinə söykənir. Əslində, bu yanaşma beynəlxalq sistemdə getdikcə daha çox dəyər qazanan "etibarlı aktor" kateqoriyasına daxil olmaq deməkdir – yəni öhdəliyinə sadiq, davamlı, rasional və proqnozlaşdırıla bilən tərəfdaş.

Prosesin bir başqa mühüm aspekti Azərbaycanın resurslarını xarici siyasətin strateji kapitalı kimi dəyərləndirməsidir. Suriyada tətbiq olunan bu model əgər uğurla davam etsə, Azərbaycan üçün bir presedentə çevriləcək və digər post-münaqişə zonalarına da ixrac ediləbiləcək. Qarşıdakı dövrdə İraq, İordaniya və Livan kimi ölkələr Azərbaycanın enerji və sosial sabitlik paketinin potensial müştəriləri və faydaçıları ola bilərlər. Digər tərəfdən, bu siyasət beynəlxalq təşkilatların və böyük güclərin də diqqətini çəkəcək. Çünki Azərbaycanın bu modeldə oynadığı rol nə təkbaşına hərbi dominantlıqdır, nə də, sadəcə, donor fəaliyyəti. Bakının bu addımı strateji tərəfdaşlıq, koordinasiya və texnoloji-humanitar dəstəyin vəhdətidir. Belə modellər isə xüsusilə çoxqütblü sistemin dərinləşdiyi, transregional sabitliyin getdikcə daha çox fragmentləşdiyi dövrdə nadir və nümunəvi yanaşmalardır. Son olaraq qeyd edə bilərik ki, Suriya modelinin uğuru Azərbaycanı enerji ixracatçısından sabitlik ixracatçısına çevirəcək – bu isə dövlət doktrinasının yeni mərhələyə qədəm qoyması deməkdir. Uğurun arxasında isə məqsədyönlü diplomatiya, güclü siyasi iradə və uzaqgörən liderlik dayanır.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Dünya iqtisadiyyatında yeni reallıqlar: Azərbaycan–Çin iqtisadi əməkdaşlığı

(əvvəli 1-ci səhifədə)



Birinci komponent BRICS+ ticarət modelidir. Bu model ABŞ dollarının beynəlxalq ticarətdə hegemon rolunu zəiflətməyi və əvəzində milli valyutalarla hesablaşmaların payını artırmağı hədəfləyir. Təsadüfi deyil ki, Rusiya və Çin qarşılıqlı ticarətin 90 faizindən çoxunu yuan və rubl ilə həyata keçirilir. Hindistan və BƏƏ isə bir sıra neft müqavilələrini rupi və dirhəmlə bağlamağa başlayıblar. Bu tendensiyalar ABŞ dollarının qlobal dominantlığının zəifləməsi və regional valyuta alternativlərinə marağın artması ilə nəticələnir.

İkinci komponent texnoloji suverenlikdir. Çin və ABŞ arasında texnologiya sahəsində liderlik uğrunda mübarizə getdikcə kəskinləşir. Çin "Made in China 2025" strategiyası çərçivəsində daxili texnoloji istehsal və innovasiya imkanlarını genişləndirməyə çalışır. ABŞ isə kritik texnologiyalar sahəsində dominantlığını qorumaq üçün ticarət məhdudiyyətinə üstünlük verir. Çin Huawei, Tencent, SMIC kimi nəhəng texnoloji şirkətləri vasitəsilə süni intellekt, bulud hesablama və 5G infrastrukturu sahələrində qlobal liderlik ambisiyasını davam etdirir.

Üçüncü komponent regional iqtisadi ittifaqların güclənməsidir. Regional Əhatəli İqtisadi Tərəfdaşlıq (RCEP) hazırda dünya ticarətinin təxminən 30 faizini təşkil edən ən böyük sərbəst ticarət platformasına çevrilmişdir. Avrasiya İqtisadi İttifaqı Rusiya ətrafında inteqrasiya olunmuş iqtisadi məkan funksiyasını daşıyır. ASEAN isə Cənub-Şərqi Asiyada iqtisadi inteqrasiyanın əsas lokomotivi kimi çıxış edir. Bu strukturlar qlobal ticarət axınlarını Qərb mərkəzindən kənara yönəltmək üçün alternativ mexanizmlər formalaşdırır.

Dördüncü komponent yeni investisiya banklarının yaranmasıdır. Bu çərçivədə BRICS-in yaratdığı Yeni İnkişaf Bankı, habelə Çinin təşəbbüsü ilə qurulan Asiya İnfrastruktur İnvestisiya Bankı mühüm rol oynayır. Hər iki qurum Bretton Woods sisteminə alternativ kimi çıxış edir. Bu maliyyə təsisatları inkişafda olan ölkələr üçün daha əlçatan və siyasi şərtsiz maliyyələşmə imkanları yaradır. Məsələn, BRICS Bankı 8 ölkəyə ümumilikdə 3,5 milyard ABŞ dolları həcmində kredit ayırmış, bu vəsaitin əhəmiyyətli hissəsi rubl, yuan və digər qeyri-dollar valyutasında təqdim olunub.

## Avropa İttifaqının iqtisadi rolu: yeni çağırışlar

Avropa İttifaqı (Aİ) uzun illər qlobal iqtisadiyyatda "normativ güc" kimi çıxış etmişdir. Yəni, geniş iqtisadi potensiala malik olmuş və insan hüquqları, ətraf mühitin qorunması, eləcə də demokratik idarəetmə sahəsində qlobal standartların təşəkkülündə mühüm rol oynamışdır. Lakin son illərdə qlobal iqtisadi sistemdə Aİ-nin təsir gücü azalmaqdadır.

Bu, ilk növbədə, Aİ iqtisadiyyatının zəifləməsi ilə əlaqədardır. Beynəlxalq Valyuta Fonduna (BVF) görə, ötən il Aİ iqtisadiyyatı cəmi 0.9 faiz artmış, cari ildə isə bu göstərici 0.8 faiz olacaq. Zəif iqtisadi artım xüsusilə İttifaqın lokomotivi sayılan Almaniyada daha kəskin hiss olunur: ötən il Almaniya iqtisadiyyatı 0,2 faiz resessiyadan sonra bu il cəmi 0.1 faiz artacaq. Bu isə Avropanın sənaye və ixrac gücünün tədricən zəiflədiyini göstərir. İqtisadi artımın zəifləməsi investisiya axınlarını məhdudlaşdırır, məşğulluqda çətinliklər yaradır və sosial-iqtisadi sabitliyə təzyiqi artırır. Əksinə, BVF-nin proqnozuna görə, 2025-ci ildə 3.2 faiz-lik qlobal iqtisadi artımın 60 faizi Asiya-Sakit Okean regionu, xüsusilə Çin, Hindistan və digər inkişafda olan ölkələr tərəfindən təmin olunacaq. ABŞ iqtisadiyyatı sabitlik nümayiş etdirsə də, onun qlobal payı azalır.

Aİ-də iqtisadi dinamizmi zəiflədən digər mühüm amil demoqrafik tənəzzüldür. Aİ əhalisinin 21.3 faizi yaşı 65-dən yuxarı olan şəxslərdən ibarətdir. Əhalinin yaşlanması və əmək bazarında daralma xüsusilə Almaniya və İtaliya kimi ölkələrdə iqtisadi dinamikanı zəiflədib. Avrostata görə, 2025-ci ilə qədər bəzi Aİ ölkələrində işçi qüvvəsinin payı 1-2 faiz azalacaq. Onun qlobal sənaye bazarındakı payı da Asiya ölkələrinin yüksəlişi fonunda tədricən zəifləyir.

Texnologiya sahəsində geri qalmaq Aİ-nin qlobal iqtisadi mövqeyinin zəifləməsinin digər amillərindən biridir. ABŞ ÜDM-in təxminən 3,7 faizini tədqiqat və inkişaf sahəsinə ayırdığı halda, Aİ-də bu göstərici 2,3 faiz təşkil edir. Bu fərq Aİ-nin texnologiya və innovasiya sahəsində rəqabət qabiliyyətini zəiflədir və onun qlobal rəqəmsal dəyər zəncirində daha passiv, asılı və izləyici mövqe tutmasına səbəb olur. Son illər Aİ-nin texnoloji məhsullar ixracı 3 faizədək azalmışdır ki, bu da onun yüksək texnologiyalı sektorlarda dünya lideri mövqeyini itirdiyini göstərir. Nəticə etibarilə, Aİ texnoloji ticarət sahəsində "üçüncü aktor" statusuna geriləmiş, ABŞ və Çinin ardınca daha çox adaptasiya olunan və cavab verən tərəf kimi çıxış edir. Nəticədə Aİ texnoloji transformasiyada liderlik imkanlarını tədricən itirir.

Avropa İttifaqının 2050-ci ilədək karbon neytrallığı hədəfi çərçivəsində tətbiq etdiyi "Yaşıl razılaşma" təşəbbüsü sənaye sektorunda istehsal xərclərinin artmasına səbəb olmuşdur. Sərt ekoloji tənzimləmələr nəticəsində Aİ şirkətləri, xüsusilə enerji baxımından, ABŞ və Çinlə müqayisədə daha yüksək (orta hesabla 32 faiz) xərclərlə üzləşirlər. Bu fərq sənaye istehsalının digər regionlara miqrasiyasına, sərmayələrin azalmasına və Aİ-nin qlobal rəqabət qabiliyyətinin zəifləməsinə gətirib çıxarır. Beləliklə, yaşıl keçid prosesi ekoloji məqsədləri güdsə də, iqtisadi baxımdan Avropa sənayesinin mövqeyini zəiflətmişdir.

Bütün bu tendensiyalar Aİ-nin uzun illər əsaslandığı normativ gücdən funksional effektivliyə keçid perspektivinə dair suallar doğurur. Yəni Aİ texnologiya, süni intellekt və enerji sahəsində qlobal liderlik rolunu tədricən itirir və daha çox adaptasiya edən aktor kimi çıxış edir. Bu isə Aİ-nin qlobal iqtisadi transformasiyanın sürətləndiyi bir dövrdə yeni ticari-iqtisadi sahədə reallıqlara uyğunlaşmaqda ciddi çətinliklərlə üzləşdiyini göstərir.

## Qlobal iqtisadi balansın yenidən qurulması

BVF-nin 2025-ci il Dünya İqtisadi İcmalı qlobal ticarət sistemində köklü dəyişikliyin baş verdiyini göstərir. Bu prosesin mərkəzində isə Çin, ABŞ və Aİ arasında xarici ticarətdə struktur dəyişikliyi dayanır. Hazırda bu sahədə müşahidə olunan əsas tendensiyalar aşağıdakılardır:

1. Qarşılıqlı ticarətdə azalma və iqtisadi əlaqələrdə zəiflik. 2025-ci ilin ilk yarısında Çin–ABŞ ticarət dövriyyəsi 9.3 faiz azalmışdır. Bu azalma texnoloji məhsul ixracına məhdudiyyət, yüksək gömrük rüsumları və proteksionist siyasətin təsiri ilə izah olunur. ABŞ-ın "friend-shoring" strategiyası bu prosesin struktur elementinə çevrilmiş və Çinlə ticarət risklərinin azaldılması məqsədilə alternativ təchizat zəncirlərinə keçidə təkan vermişdir. Eyni zamanda, Çin–Aİ ticarəti də əhəmiyyətli zəifləyib. 2025-ci ilin ilk yarısında bu ticarət cəmi 1.2 faiz artmışdır ki, halbuki 2023-cü ildə bu göstərici 5.6 faiz olmuşdur. Aİ-nin texnologiya sektoruna yönəlmiş təhlükəsizlik standartları, karbon sərhəd tənzimləməsi (CBAM) və yeni gömrük tarifləri bu zəifləmənin başlıca səbəbləri sırasındadır.

2. İxracda texnologiya yönümlü transformasiya. Çinin ixracında əhəmiyyətli struktur dəyişikliyi başlayıb. Ənənəvi məhsullar olan tekstil, məişət texnikası və digər istehlak mallarının ixracı 6.4 faiz azalıb. Əvəzində yüksək texnoloji məhsullar – elektrikli nəqliyyat, batareyalar və bərpa olunan enerji texnologiyaları üzrə ixrac 18.7 faiz artıb. Bunun səbəbi daxili iqtisadi transformasiya və texnoloji məhsullara tələbin artması ilə izah olunur. Bu, Çinin qlobal texnologiya bazarında yeni mövqe axtarışında olduğunu, eləcə də iqtisadi modelini daha çox innovasiya üzərində qurduğunu göstərir.

3. Regional diversifikasiya və yeni bazarlara inteqrasiya. ABŞ və Aİ bazarlarında yaranan qeyri-müəyyənliyə qarşı Çin hökuməti alternativ ticarət marşrutlarına və regional tərəfdaşlığa yönəlmişdir. Məsələn, 2025-ci ilin ilk yarısında ASEAN ölkələri ilə ticarət dövriyyəsi 6.9 faiz artaraq 481 milyard ABŞ dollarına çatmışdır. Bundan əlavə, Çin–Rusiya və Çin–Mərkəzi Asiya ticarət əlaqələri də genişlənmiş, Qərb bazarlarından asılılığın nisbətən azalması və regional ticarət bloklarına inteqrasiyanın güclənməsi ilə nəticələnmişdir.

4. Geoiqtisadi parçalanma və qlobal güc balansının dəyişməsi. ABŞ və Aİ ilə iqtisadi əlaqələrdə yaranan gərginliklər, ticarət axınlarında struktur dəyişikliyi və texnoloji sahədə proteksionizm qlobal ticarət sisteminin parçalanmasına yol açır. Çin bu prosesə cavab olaraq iqtisadi inteqrasiya və ixracın strukturunun yenidən qurulması vasitəsilə daha dayanıqlı və regional yönümlü model formalaşdırmağa çalışır. Bu isə qlobal iqtisadi güc balansında yeni mərkəzlərin formalaşmasına və geoiqtisadi çəki mərkəzinin Qərbdən Asiyaya doğru yerdəyişməsini göstərir.

## Çinin artan gücü: yeni iqtisadi istiqamətlər

Belə bir fonda Çin dünya iqtisadiyyatında miqyas və struktur baxımından qlobal oyunçular arasında strateji mövqe qazanmışdır. Bu yüksəliş yeni ticarət marşrutlarının, texnoloji prioritetlərin və institusional güc mərkəzlərinin formalaşmasında mühüm rol oynayır. Zbiqnev Bjezinski "Böyük şahmat lövhəsi. Amerika ağalığı və onun geostrateji imperativləri" əsərində Çinin yüksəlişini Avrasiyanın iqtisadi taleyində dönüş nöqtəsi kimi qiymətləndirmişdir. Onun fikrincə, Çin yalnız iqtisadi miqyas baxımından deyil, həm də geoiqtisadi sistemdə yeni mərkəzlərin formalaşması potensialı ilə fərqlənir və bu, ABŞ-ın Avrasiyadakı üstünlüyünə alternativ ola bilər.

BVF-ə görə Çinin qlobal iqtisadiyyatda payı davamlı artır. Hazırda Çin alıcılıq qabiliyyəti pariteti ilə ÜDM-nin təxminən 18 faizini təşkil edir və növbəti onillikdə bu göstəricinin 25 faizə çatması proqnoz edilr. Bu artım texnoloji modernləşmə, daxili istehlakın genişlənməsi və regional ticarət əməkdaşlığının dərinləşməsi ilə bağlıdır. Bu inkişafın təməlində "Made in China 2025" sənaye strategiyası dayanır. Strategiya Çində aşağı texnologiyalı məhsullardan yüksək əlavə dəyərli, innovativ sənaye modelə keçidi hədəfləyir. Nəticə olaraq qlobal 5G texnologiya bazarının 35 faizi və elektrikli nəqliyyat vasitələri bazarının 40 faizə yaxını Çinin payına düşür. Texnologiya sektorunda Huawei, Xiaomi, Tencent və Baidu kimi nəhənglər süni intellekt, bulud platformaları və böyük məlumatların emalı sahəsində qlobal səviyyədə rəqabət aparır. Bu şirkətlər Çinin texnoloji potensialını və beynəlxalq texnologiya standartlarının formalaşmasında onun mövqeyini möhkəmləndirir.

Çinin iqtisadi inkişafında əsas rol oynayan "Dual Circulation" doktrinası bu prosesə mühüm dəstək vermişdir. Doktrina daxili bazarın güclənməsi, xarici asılılığın azalması və texnoloji suverenliyi hədəfləyir. BVF-ə görə, bu model iqtisadiyyatın balanslı və dayanıqlı transformasiyasını sürətləndirib. Daxili bazarın təşviqi, istehlak yönümlü iqtisadi artım və regional tarazlığın bərpası bu siyasətin əsas sütunlarıdır. 2025-ci ilin ilk yarısında Çinin daxili ticarət dövriyyəsi 9.8 trilyon ABŞ dollarına yaxınlaşmış, daxili istehlakın ÜDM-də payı isə 60 faizi üstələyir ki, bu da urbanizasiya və orta təbəqənin artımı ilə əlaqədardır.

Çin, eyni zamanda, qlobal iqtisadi münasibətlərdə RCEP və BRICS+ kimi alternativ inteqrasiya platformalarına önəm verir. Bu strukturlar vasitəsilə Çin yeni bazarlara çıxış imkanlarını genişləndirir və Qərbmərkəzli iqtisadi modeldən kənarda yeni institutlar, iqtisadi rejimlər yaradır. RCEP dünyanın ən böyük sərbəst ticarət zonasına çevrilib, BRICS+ isə inkişafda olan ölkələrlə maliyyə və texnoloji əməkdaşlıqda Çinin təsir dairəsini artırır. Bu yanaşmalar Çinə qeyri-Qərb iqtisadi sistemlərində dominant aktor kimi çıxış etmək imkanı verir.

Çin iqtisadiyyatının əsas struktur elementi dövlət kapitalizmi modelidir. Burada dövlət iqtisadi nizamlayıcı olmaqla yanaşı enerji, nəqliyyat, texnologiya və səhiyyə sahələrində aparıcı rol oynayır. Sinofarm, BYD, CATL kimi dövlət dəstəkli şirkətlər beynəlxalq arenada yüksək mövqe tutaraq Çin modelinin effektivliyini nümayiş etdirir. Bu, bazar və planlı iqtisadiyyat elementlərini birləşdirən, çevik və uzunmüddətli inkişaf üçün nəzərdə tutulan bir modeldir.

Henri Kissincerin 2011-ci ildə "Çin haqqında" əsərində qeyd olunur ki, Çin qlobal güc mövqeyinə tələsmir, lakin öz təsirini mərhələli şəkildə artıraraq müasir dövrün "təcavüzsüz ekspansiyası" modelini həyata keçirir. Bu model Çin üçün hərbi güc tətbiq etmədən iqtisadi mexanizmlər, texnologiya və infrastruktur vasitəsilə təsir dairəsini genişləndirmək imkanı yaradır. Kissincer Çinin "Bir kəmər, bir yol", Asiya İnfrastruktur İnvestisiya Bankı və Regional Əhatəli İqtisadi Tərəfdaşlıq (RCEP) kimi təşəbbüslərinin Bretton Woods sisteminə alternativ olduğunu bildirirmişdir.

Beləliklə, Çin artıq "qlobal fabrik" rolunu oynamaqla kifayətlənmir, geniş daxili bazarına əsaslanaraq texnoloji suverenliyi təmin edən modelə doğru irəliləyir. Bu yanaşma uzunmüddətli dayanıqlığı və inklüziv iqtisadi inkişafı dəstəkləyir. O, həmçinin istehsalçı ölkə funksiyasını tərk edərək texnologiya və institusional model ixrac edən qlobal aktora çevrilir. Ənənəvi iqtisadi güclərlə müqayisədə Çin daha çevik, dövlət yönümlü və məqsədli struktur islahatları həyata keçirərək qlobal iqtisadi sistemdə çoxqütblülüyün əsas dayaqlarından birinə çevrilir.

## Azərbaycanın Çinlə əməkdaşlığa yanaşması

Qlobal trendlərə uyğun olaraq, Azərbaycanın Çinlə münasibətləri ticarət çərçivəsində deyil, daha geniş bir geoiqtisadi baxışla formalaşmışdır. Bu yanaşmanın təməli 1994-cü ildə ümummilli lider Heydər Əliyevin Çinə səfəri zamanı ifadə etdiyi strateji fikirlərlə qoyulmuşdur. Həmin səfərdə Heydər Əliyev qeyd etmişdir ki, Azərbaycan Çinlə əməkdaşlığı gələcək üçün yol, sabitlik və inkişafın təməli kimi görür. Bu yanaşma Azərbaycanın Çinlə davamlı və sistemli iqtisadi tərəfdaşlığa əsaslanan strategiyasının təməlini qoymuşdur.

Prezident İlham Əliyevin rəhbərliyi dövründə bu strateji baxış daha da dərinləşmişdir. Yeni çoxqütblü iqtisadi reallıqlar fonunda bu baxış konkret layihə və platformalarla praktik məzmun qazanmışdır. Ələt Azad İqtisadi Zonası, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Bakı–Tbilisi–Qars dəmir yolu və Orta dəhliz kimi təşəbbüslər Azərbaycanın Çin modelindən rasional şəkildə faydalanmaq və adaptasiya niyyətini əks etdirir.

Təsadüfi deyil ki, Azərbaycanın beynəlxalq iqtisadi münasibətlərdəki mövqeyi qlobal sistemin müxtəlif elementləri ilə strateji və qarşılıqlı faydalı əməkdaşlığa əsaslanır. Prezident İlham Əliyevin rəhbərliyi ilə bu münasibətlər iqtisadi səmərəlilik, texnoloji yenilənmə və regional sinerji kimi aydın və praktik prinsiplər üzərində qurulmuşdur. Bu yanaşma sayəsində Azərbaycan Çini iqtisadi tərəfdaş və qlobal geoiqtisadi sistemin formalaşmasında mühüm rol oynayan strateji aktor kimi qiymətləndirir.

Buna uyğun olaraq Azərbaycan–Çin iqtisadi əməkdaşlığı ölkəmizin Avropa və Mərkəzi Asiya bazarlarına inteqrasiyasında körpü rolunu oynayır. Prezident İlham Əliyevin vurğuladığı kimi, bu çərçivədə birgə istehsala yönəlmiş daha kompleks strateji təşəbbüslər həyata keçirilir. Son illər Çin iqtisadiyyatı dövlət kapitalizmi modeli ilə güclü planlama, texnoloji irəliləyişlər və ixracyönlü sənaye klasterləri üzərində inkişaf etmiş, Azərbaycan bu modelin bəzi elementlərini öz iqtisadiyyatına ağıllı şəkildə uyğunlaşdıraraq texnoloji modernləşməni və dayanıqlı sənaye inkişafını təmin edir. Çin şirkətləri ilə reallaşdırılan birgə layihələr, eləcə də Ələt Azad İqtisadi Zonasındakı sənaye parkları bu yanaşmanın konkret təzahürləridir.

Nəticə etibarilə, Azərbaycanın geoiqtisadi strategiyası təkcə iqtisadi artım deyil, həm də qlobal dəyişikliklərə çevik uyğunlaşma qabiliyyəti baxımından dəyərləndirilir. Bu bacarıq ölkəyə qlobal iqtisadi güc mərkəzləri arasında tarazlığı qorumaq, innovasiyaya əsaslanan və gələcəyə yönəlmiş inkişaf trayektoriyası formalaşdırmaq imkanı verir.

Bütövlükdə, Azərbaycan ilə Çin arasında iqtisadi-ticari və texnoloji əməkdaşlıq aşağıdakı 5 əsas strateji istiqamət üzrə sistemli şəkildə formalaşdırılmışdır:

1. Tranzit və coğrafi üstünlüklərə əsaslanan dəyər yaradılması. Azərbaycanın əlverişli coğrafi mövqeyi strateji infrastruktur layihələri ilə iqtisadi dividendlərə çevrilir. Tranzit nəqliyyat layihələri vasitəsilə ölkəmiz Mərkəzi Avrasiya məkanında logistika və tranzit qovşağı kimi önəmli strateji rolunu artırır. Məsələn, 2025-ci ilin ilk yarısında Transxəzər dəhlizi üzrə yükdaşımaların 30 faizdən çox artması bu uğurun bariz göstəricisidir.

2. Qlobal geoiqtisadi balans və çoxtərəfli tərəfdaşlıq. Azərbaycanın qlobal miqyasda iqtisadi tarazlıq yaratmaq strategiyası ölkəyə mühüm üstünlüklər qazandırır. Ölkə "Bir kəmər, bir yol" təşəbbüsünə aktiv qoşulmaqla Şərq-Qərb ticarət yollarında vacib tranzit məntəqəsinə çevrilmişdir. Eyni zamanda, Aİ ilə enerji sahəsindəki əməkdaşlıq enerji təhlükəsizliyi və dayanıqlı ixrac yönümlü model baxımından strateji dəyər daşıyır. Bu çoxvektorlu yanaşma Azərbaycanın həm Şərq, həm də Qərblə qarşılıqlı faydalı əlaqələr quraraq geoiqtisadi baxımdan sabit, etibarlı tərəfdaş imicini gücləndirir.

3. Rəqəmsal transformasiya və texnoloji əməkdaşlıq. Azərbaycanın növbəti strateji mərhələsi rəqəmsal suverenliyin gücləndirilməsi və xarici texnologiyaların lokallaşdırılması ilə bağlıdır. Huawei, ZTE və digər aparıcı Çin texnoloji şirkətləri ilə əməkdaşlıq ölkənin rəqəmsal infrastrukturunun inkişafına töhfə verir. Bu proses ölkənin innovasiya potensialını artırmaqla yanaşı, texnologiya asılılığını azaldır və yeni sənaye sahələrinin formalaşmasına zəmin yaradır.

4. Yaşıl enerji gündəliyi. Azərbaycanın "yaşıl enerji ixracatçısı"na çevrilmək hədəfi, xüsusilə azad edilmiş ərazilərdə həyata keçirilən bərpa olunan enerji layihələri fonunda ölkəyə yeni strateji status qazandırır. Bu sahədə Çin və digər ölkələrlə texnoloji əməkdaşlıq, həm enerji, həm də rəqəmsal sahədə sinxron transformasiyanı mümkün edir. Rəqəmsallaşma ilə enerji keçidinin paralel aparılması Azərbaycanın regional "yaşıl texnologiya qovşağı"na çevrilməsi üçün şərait yaradır.

5. Çinlə selektiv iqtisadi inteqrasiya və balanslı yanaşma. Ölkənin Çinlə artan iqtisadi əlaqələri təkcə ticarət deyil, həm də texnologiya, infrastruktur və sərmayə sahələrini əhatə edir. Lakin bu inteqrasiya bəsit imitasiya üzərində deyil, milli maraqlara uyğunlaşdırılmış selektiv strateji yanaşma ilə həyata keçirilir. Azərbaycan Çin və Avropa arasında texnoloji və iqtisadi körpü rolunu oynayır və bununla daha çevik, kompleks regional aktora çevrilir. Bu yanaşma ölkəyə həm Şərq, həm də Qərb modellərini sintez etmək imkanı yaradır. Nəticədə unikal və milli xüsusiyyətlərə uyğun bir iqtisadi model formalaşır.

## Şərqə açılan yol: Çinlə iqtisadi sinerji potensialı

Dünya iqtisadiyyatının ağırlıq mərkəzinin Şərqə doğru dəyişməsi və Çinin iqtisadi güc və qlobal texnoloji platformaların yaradıcılarından biri kimi ön plana çıxması fonunda Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan geoiqtisadi mühitdə strateji körpü rolunu oynayan önəmli aktora çevrilir. Ölkəmizin Çinlə əməkdaşlığı artıq ticarət əlaqələrindən kənara çıxaraq, çoxşaxəli strateji sinerji əsasında inkişaf edir. Bu əməkdaşlıq Azərbaycanın inkişaf planları ilə Çin iqtisadiyyatının yeni ticarət və sərmayə ehtiyaclarını uyğunlaşdırır.

Azərbaycanla Çin arasında əməkdaşlığın dərin təməli hər iki ölkənin iqtisadi idarəetmədə dövlətin aktiv rolunu qorumasına əsaslanır. Çin iqtisadiyyatı dövlət kapitalizmi modeli üzərində yüksəlir və yüksək texnologiyalı sənaye və texnoloji modernləşmə ilə fərqlənir. Paralel olaraq, Prezident İlham Əliyevin rəhbərliyi ilə 2022–2026-cı illər üçün hazırlanan Sosial-iqtisadi İnkişaf Strategiyası dövlətin iqtisadi proseslərdə yönəldici funksiyasını gücləndirir və rəqəmsal, "yaşıl" və bilik əsaslı iqtisadi sistemin formalaşmasına şərait yaradır. Bu konseptual yaxınlıq texnologiya transferi, birgə müəssisələrin yaradılması və lokallaşma proseslərində uzunmüddətli və dayanıqlı əməkdaşlıq üçün əlverişli zəmin yaradır.

2024-cü ildə iki ölkə arasında ticarət dövriyyəsi 3,7 milyard ABŞ dollarına çatmışdır. Ən əhəmiyyətli məqam isə ticarətin strukturunun dəyişməsidir: əvvəllər ənənəvi malların üstünlük təşkil etdiyi dövriyyədə son vaxtlar yüksək texnoloji məhsulların payı davamlı artmışdır. Bu, Azərbaycanın xarici ticarətinin həm miqyas baxımından, həm də keyfiyyətcə yenilənməsi və daha dayanıqlı struktur əldə etməsi deməkdir.

"Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası" çərçivəsində Çinlə texnoloji əməkdaşlıq yeni mərhələyə qədəm qoymuşdur. Çin şirkətlərinin Azərbaycana birbaşa investisiyaları artıq 1 milyard ABŞ dollarını keçmiş, Huawei, ZTE və BYD kimi nəhənglər ölkəmizin informasiya-kommunikasiya texnologiyaları və rəqəmsal infrastrukturlarında aktiv iştirak edir. 5G şəbəkələrinin genişləndirilməsi, ağıllı texnologiyaların tətbiqi, məlumat təhlükəsizliyi və rəqəmsal idarəetmə platformalarının qurulması kimi layihələr həm iqtisadi inkişafı, həm də milli rəqəmsal suverenliyi gücləndirir.

Azərbaycanın Şərq-Qərb nəqliyyat dəhlizlərində strateji mövqeyi Çinlə iqtisadi əlaqələrə əlavə dinamika verir. Orta dəhliz üzrə yük daşımalarının 30 faizdən çox artması ölkəmizin logistika və enerji qovşağı kimi rolunun gücləndiyini təsdiqləyir. Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və Ələt Azad İqtisadi Zonası Çin məhsullarının Avropaya çıxışını sürətləndirən infrastrukturlardır və Azərbaycanın regional geoiqtisadi körpü funksiyasını möhkəmləndirir.

Azərbaycanın "yaşıl enerji" strategiyası Çinlə texnoloji əməkdaşlıqda yeni prioritet sahələr müəyyən edir. Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən enerji layihələrində Çin texnologiyalarının tətbiqi geniş imkanlar açır. "Ağıllı" enerji şəbəkələri, effektiv enerji sistemləri, "yaşıl" nəqliyyat və elektrikli nəqliyyat vasitələrinin lokallaşdırılması üzrə əməkdaşlıq ölkəmizin iqlim məqsədlərinə uyğunlaşmasına və enerji ixracının diversifikasiyasına töhfə verir.

Beləliklə, Azərbaycanın Çinlə əməkdaşlığa yanaşması yalnız iqtisadi-ticari maraqlarla məhdudlaşmır, əksinə, geoiqtisadi, texnoloji, rəqəmsal və ekoloji vektorları özündə birləşdirən çoxtərəfli strateji konsepsiyaya çevrilmişdir. Bu yeni konsepsiya selektiv iqtisadi inteqrasiya, dövlət kapitalizminin lokal adaptasiyası, rəqəmsal və yaşıl transformasiyanın sinxronluğu, eləcə də regional geoiqtisadi körpü funksiyasının möhkəmləndirilməsi kimi əsas prinsipial istiqamətləri ehtiva edir.

Azərbaycan bu yanaşma ilə həm iqtisadi maraqlarını qoruyur, həm də dəyişkən və çoxqütblü qlobal iqtisadi sistemdə çevik, balanslı və proaktiv aktor kimi çıxış edir. Nəticə etibarilə formalaşan Azərbaycan–Çin iqtisadi əməkdaşlıq modeli ölkəmizin gələcək inkişaf strategiyasında uzunmüddətli dayanıqlıq, texnoloji suverenlik və qlobal sinerji yaradan yeni geoiqtisadi baxışın praktik ifadəsi kimi dəyərləndirilə bilər.

***Şaiq ADIGÖZƏLOV,***
***iqtisad üzrə fəlsəfə doktoru***

# TAP – Azərbaycandan Avropaya "mavi axın" körpüsü




**(əvvəli 1-ci səhifədə)**

TAP Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Şahdəniz" yatağından çıxarılan qazı Avropaya nəql edir. Boru kəməri Türkiyə – Yunanıstan sərhədində (Kipoi) Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) ilə birləşir və beləcə, Yunanıstan və Albaniya ərazilərindən, ardınca Adriatik dənizdən keçərək İtaliyanın cənub sahillərinə çıxır. TAP həm də mövcud və potensial interkonnektorlar vasitəsilə Cənub-Şərqi Avropa ölkələrinin qazla təchizatına vasitəçilik edir.

Bununla yanaşı, Cənub Qaz Dəhlizinin sonuncu seqmenti olan bu boru kəməri 2022-ci ilin oktyabr ayından istismara verilmiş Yunanıstan – Bolqarıstan (IGB) interkonnektoruna da bağlıdır və onun vasitəsilə Xəzər qazı Bolqarıstana tədarük olunur. Ümumi uzunluğu 182 kilometr olan interkonnektorun 150 kilometrlik hissəsi Bolqarıstan ərazisindən keçir. Yaxın gələcəkdə boru kəmərinin illik ötürücülük qabiliyyətinin 3-5 milyard kubmetrə çatdırılacağı gözlənilir. Hələlik isə "Bulgargaz EAD" dövlət şirkəti ilə Şahdəniz konsorsiumu arasında imzalanmış müqaviləyə əsasən Bolqarıstan ölkəmizdən ildə 1 milyard kubmetr qaz alır. Bütövlükdə isə, TAP-ın Yunanıstan və Albaniyaya, həmçinin, İtaliyanın cənub sahillərinə çıxışı ölkəmizdən Avropa bazarlarına daha çox qazın ixracına əlavə imkanlar yaradır.

Yeri gəlmişkən, Trans-Adriatik Boru Kəməri Azərbaycan qazının böyük bazarlara çıxarılmasını təmin edən mühüm infrastrukturdur. TAP-ın ərsəyə gəlməsində ölkəmizin çox böyük rolu olub. Təsadüfi deyil ki, 2013-cü ildə boru kəmərinin tikintisi ilə bağlı imzalanmış müqavilənin iştirakçıları olan təsisçi şirkətlərin 60 faizi məhz Azərbaycandakı hasilatçılar idi. Bunlar, əsasən, hər biri 20 faiz iştirak payına malik SOCAR, BP və "Statoyl" şirkətləri olub. Yəni, TAP-ın ərsəyə gəlməsinə sərf olunan əziyyətin, çəkilən xərcin yarıdan çoxu Azərbaycan və tərəfdaşlarının payına düşür. Hazırda isə TAP-ın pay sahibləri BP (20 faiz), SOCAR (20 faiz), "Snam" (20 faiz), "Fluxys" (20 faiz) və "Enagas" (20 faiz) şirkətləridir.

Trans-Adriatik Qaz Boru Kəmərinin tikintisi 2020-ci ilin oktyabrında başa çatıb. Xəzərin Azərbaycan sektorunda yerləşən "Şahdəniz" yatağının 2-ci işlənmə mərhələsi çərçivəsində hasil edilən təbii qazın TAP kəməri vasitəsilə Avropaya nəqlinə isə həmin il dekabrın 31-də başlanılıb. Prosesin ilk günündə kəmərlə 10,7 milyon kubmetr qazın Avropaya ixracı qeydə alınıb. Bununla da, ölkəmiz tarixdə ilk dəfə öz təbii qazını boru kəmərləri ilə Avropa bazarına çıxarmaq imkanı qazanıb.

2021-ci ildə ölkəmizdən "köhnə qitə"yə 8 milyard 150 milyon kubmetr təbii qaz ixrac olunub. Avropada Azərbaycan qazına tələbatın getdikcə çoxalması ilə əlaqədar həm alıcı ölkələrin, həm də "mavi yanacağ"ın həcmi ildən-ilə artıb. Təkcə onu qeyd etmək kifayətdir ki, hazırda Azərbaycan 14 ölkəyə təbii qaz ixrac edir ki, bunun da 12-si Avropa dövlətləridir. 2024-cü ildə həmin ölkələrə 12,9 milyard kubmetr qaz ixrac olunub. Ümumilikdə, ötən müddətdə TAP Avropaya 51 milyard kubmetrdən artıq Azərbaycan qazı nəql edib.

Trans-Adriatik Qaz Boru Kəmərinin ümumi uzunluğu 878 kilometr təşkil edir ki, bunun da 550 kilometri Yunanıstanın şimal hissəsindən, 215 kilometri Albaniya ərazisindən, 105 kilometri Adriatik dənizinin dibi ilə, 8 kilometri isə İtaliya ərazisindən keçir. Hazırda kəmərin ötürücülük qabiliyyəti ildə 12 milyard kubmetr qaz təşkil edir. 2027-ci ilin sonunadək isə bu həcmin 20 milyard kubmetrə çatdırılması nəzərdə tutulub.

# Orta Dəhliz 20 mininci qatarı qəbul edib

**2013-cü ildə ilk qatarın xəttə buraxılmasından bəri Çin – Avropa dəmir yolu xəttinin Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz) ilə 20 min qatar keçib. 20 mininci qatar Şimali Çində, Daxili Monqolustan Muxtar Rayonunda yerləşən Erenhot dəmir yolu limanından yola düşüb. Qatar 55 konteynerlə Avropaya doğru səmt götürüb.**



Orta Dəhlizlə yola salınmış 20 min qatarın 10 mini son 3 ilin payına düşüb. Xatırladaq ki, bu marşrutla 10 mininci qatar 2022-ci ildə yola salınmışdı. Hazırda ekspress 73 marşrut üzrə fəaliyyət göstərir, Almaniya və Polşa da daxil olmaqla 10-dan çox ölkədə 70-dən artıq logistika mərkəzini birləşdirir və Çinin 24 vilayətində 60-dan çox şəhəri əhatə edir.

Yeri gəlmişkən, Türkiyənin logistika şirkətiolan "Pasifik Eurasia"nın baş direktoru Fatih Erdoğan iyulun sonunda Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu ilə Çindən Türkiyəyə 2 yük qatarının yola salınmasını şərh edərkən bildirib ki, Orta Dəhliz artıq, sadəcə, bir ideya deyil. O, addım-addım gerçəyə çevrilir. Onun sözlərinə görə, ənənəvi dəniz marşrutları ilə müqayisədə Orta Dəhliz təkcə daha qısa yol təqdim etmir, həm də idarəetmə imkanlarını artırır. "Bu qatarlar təkcə konteyner daşımır, həm də baxış, etimad, strategiya və ortaq gələcək daşıyır", – deyə o əlavə edib.

Qeyd edək ki, Orta Dəhliz regionun bir sıra ölkələrindən keçən, Asiya ilə Avropanı birləşdirən nəqliyyat və ticarət marşrutudur. Bu marşrut ənənəvi Şimal və Cənub dəhlizlərinə alternativdir. Marşrut Çindən başlayan bu nəqliyyat marşrutu Qazaxıstan, Özbəkistan və Türkmənistan kimi Mərkəzi Asiya ölkələrindən keçərək Xəzər dənizi, Azərbaycan, Gürcüstan və Türkiyə ərazilərini qət edib Avropaya çatır. Orta Dəhliz Asiyanın şərq bölgələrini, o cümlədən Çini Avropa ilə birləşdirən, daha uzun dəniz yollarından yan keçməklə quru yolu təklif edir.

# Sənaye zonaları 17,2 milyard manatlıq məhsul satıb



**Azərbaycanda yaradılmış sənaye zonalarında 2015-ci ildən bu il iyulun 1-nə qədər 17,2 milyard manatlıq məhsul satılıb. Bunun da 5,53 milyard manatlıq hissəsi ixrac edilib. Bu barədə İqtisadiyyat Nazirliyinin tabeliyindəki İqtisadi Zonaların İnkişafı Agentliyi məlumat yayıb.**

Bildirilib ki, təkcə cari ilin birinci yarısında sənaye zonalarında 1,83 milyard manatlıq satış həyata keçirilib ki, bunun da 583,5 milyonluq hissəsi ixracın payına düşüb. Ötən ilin eyni dövrünə nisbətən satış 28,7 faiz, ixracı isə 22,4 faiz artıb.

Sənaye zonalarında istehsal edilən polimerlər, karbamid, polad və polietilen borular, tütün məmulatları, divar kağızları, müxtəlif təyinatlı ayaqqabılar, sürtkü yağları, ferroərintilər, müxtəlif növdə kabellər, şüşə lövhələr, tikinti kimyəviləri, ipliklər, elektrod və s. məhsullar ABŞ, Kanada, Çin, Hindistan, İngiltərə, Almaniya, Birləşmiş Ərəb Əmirlikləri, Yunanıstan, İsrail, Avstriya, Norveç, Çexiya, İspaniya, Belçika və s. ölkələr daxil olmaqla, ümumilikdə, 70-dən artıq ölkəyə "Made In Azerbaijan" brendi adı altında ixrac olunub.

Son illər ölkədə istehsalın genişləndirilməsi, idxalın əvəz edilməsi və yeni ixrac imkanlarının yaradılması baxımından əlverişli mexanizm kimi diqqət çəkən sənaye zonalarına sahibkarların cəlb edilməsi, investisiyaların yatırılması və yeni iş yerlərinin yaradılması istiqamətlərində mühüm işlər görülür. Təkcə onu qeyd etmək kifayətdir ki, 2013-cü ildən indiyə qədər sənaye zonaları üzrə ümumi investisiya həcmi 8,03 milyard manat olan 160 sahibkarlıq subyektinə rezidentlik, 12 sahibkara isə qeyri-rezidentlik statusu verilib. Ötən müddətdə sahibkarlar sənaye zonalarına 6,88 milyard manatdan çox investisiya yatırıblar. Bunun da hesabına 10 min 900 daimi iş yeri yaradılıb.

# Vergi güzəştləri və rəqəmsallaşma iqtisadiyyata yeni nəfəs verir

***6 ayda büdcə gəlirləri proqnozu 106 faiz yerinə yetirilib***




**Azərbaycanda vergi sisteminin təkmilləşdirilməsi istiqamətində müasir dövrün çağırışlarına uyğun aparılan məqsədyönlü islahatlar müsbət nəticələrlə diqqət çəkir. Rəqəmsallaşma, hüquqi bazanın təkmilləşdirilməsi, vergi ödəyicilərinin fəaliyyətinə həssaslıqla yanaşılması və insan kapitalının inkişafının diqqətdə saxlanılması ölkəmizin iqtisadi inkişafına, sahibkarlıq mühitinin sağlamlaşdırılmasına və dövlət büdcəsinin dayanıqlığının gerçəkləşdirilməsinə mühüm töhfə verir. Bu, bir daha göstərir ki, Azərbaycan dövləti vergi siyasətinə iqtisadi inkişafın və sosial rifahın önəmli dayağı kimi yanaşır.**

Bütün bunların nəticəsidir ki, 2025-ci ilin yanvar – iyul aylarında İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xəttilə dövlət büdcəsinə 10 milyard 558,4 milyon manatdan çox vergi daxil olub, proqnoza 106 faiz (2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 285,6 milyon manat və ya 2,8 faiz çox) əməl edilib. Qeyri-neft-qaz sektorunda daxilolmalar 7 milyard 588 milyon manatdan çox olub, proqnoz 103,4 faiz (keçən ilin eyni dövrünə nisbətən 643,9 milyon manat və ya 9,3 faiz çox) icra edilib. Ödənilən vergilərin 71,9 faizi qeyri-neft-qaz sektoruna, 28,1 faizi isə neft-qaz sektoruna aid olub.

Bundan başqa, 2025-ci ilin yanvar-iyul aylarında muzdlu işçi sayının və əməkhaqqı fondunun "ağarması" nəticəsində məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalar 3 milyard 699,7 milyon manatdan (əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 12,4 faiz və ya 409,4 milyon manatdan artıq) çox olub. Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar isə 2024-cü illə müqayisədə 13,6 faiz artıb və 2 milyard 446,3 milyon manatdan çox təşkil edib.

Dövlət Vergi Xidmətinin məlumatında daha sonra bildirilir ki, işsizlikdən sığorta haqları üzrə daxilolmalar 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 10,7 faiz artaraq 130,8 milyon manat olub, qeyri-büdcə təşkilatları üzrə daxilolmalar 12,2 faiz artıb və 98,9 milyon manat təşkil edib. İcbari tibbi sığorta haqları üzrə daxilolmalar isə ötən ilin eyni dövrünə nisbətən 10,8 faiz artıb və 641,1 milyon manatdan çox olub. Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar 10,5 faiz artaraq 449,3 milyon manat təşkil edib.

Bütün bunlar deməyə əsas verir ki, son illərdə Azərbaycanda həyata keçirilən iqtisadi islahatlar çərçivəsində vergi sisteminin modernləşdirilməsi və onun səmərəliliyinin artırılması istiqamətində mühüm addımlar atılıb. Vergi siyasətində şəffaflığın təmin olunması, sahibkarlıq fəaliyyətinin dəstəklənməsi və dövlətin maliyyə dayanıqlığının gücləndirilməsi məqsədilə gerçəklədirilən təşəbbüslər ölkəmizin iqtisadi idarəetmə sistemində keyfiyyətcə yeni mərhələyə keçidi şərtləndirib.

Vergi inzibatçılığı sahəsində tətbiq edilən innovativ mexanizmlər isə bu sahədə çevikliyin və səmərəliliyin artırılmasına zəmin yaradıb. Xüsusilə son illərdə elektron vergi idarəçiliyi sisteminin təkmilləşdirilməsi, vergi ödəyiciləri ilə münasibətlərdə şəffaflığın artırılması və insan amilinin təsirinin minimuma endirilməsi məqsədilə rəqəmsal texnologiyaların tətbiqinə başlanılıb. Vergi orqanları ilə vətəndaşlar arasında əlaqələrin elektron müstəviyə keçirməsi ilə inzibatçılığın çevikliyi və obyektivliyi yüksəlib, bu isə, öz növbəsində, vergi yığımında artımla nəticələnib.

Elektron qaimə-faktura, elektron vergi hesabatları, e-kassa sistemləri və digər rəqəmsal həllər artıq geniş istifadə olunur. Bu texnoloji vasitələr sayəsində vergi uçotu dəqiq aparılır, vergidən yayınma halları ciddi şəkildə azalır, dövlət büdcəsinə daxilolmalar isə nəzərəçarpacaq dərəcədə yüksəlir. Eyni zamanda, rəqəmsallaşmanın tətbiqi ilə vergi ödəyicilərinin işi də asanlaşır, inzibati yük azalır və əməliyyatların operativliyi təmin edilir.

Azərbaycanda vergi sahəsində həyata keçirilən islahatların mühüm istiqamətlərindən biri də qanunvericilik bazasının təkmilləşdirilməsidir. Xüsusən də Vergi Məcəlləsinə edilən son dəyişikliklər vergi ödəyicilərinin hüquqlarının daha dolğun qorunmasını və onların maraqlarına uyğun çevik vergi mexanizmlərinin formalaşmasını gerçəkləşdirir. Məsələn, sahibkarlıq fəaliyyəti göstərməyən və ya müəyyən dövrlərdə vergi tutulması əməliyyatları həyata keçirməyən şəxslərə vergi hesabatı təqdim etmədiklərinə görə maliyyə sanksiyasının tətbiq edilməməsi ilə bağlı yeni qayda mühüm humanist yanaşmanın göstəricisidir. Bu addım bir tərəfdən vergi ödəyicilərinin cərimə yükünü azaldırsa, digər tərəfdən də onların dövlətə olan inamını və etimadını möhkəmləndirir.

Eyni zamanda, sadələşdirilmiş vergi sisteminin daha da təkmilləşdirilməsi, vergi güzəştlərinin və stimulların tətbiqi, xüsusilə kiçik və orta sahibkarlığın inkişafını hədəfləyən dəyişikliklər vergi siyasətində daim diqqətdə saxlanılır. Bununla yanaşı, vergi sistemində səmərəliliyin artırılması da təkcə texnologiya və qanunvericiliklə məhdudlaşmır. Bu sahədə insan kapitalının inkişafı və idarəetmə strukturlarında institusional islahatlar paralel şəkildə həyata keçirilir.

Bundan əlavə, vergi sistemində vətəndaş məmnunluğunun artırılması məqsədilə "bir pəncərə" prinsipi üzrə xidmətlər, müasir çağrı mərkəzləri və rəqəmsal yardım platformaları fəaliyyət göstərir. Vergi ödəyicilərinin suallarının operativ cavablandırılması və onlara hüquqi dəstək verilməsi dövlət-vətəndaş münasibətlərinin yeni keyfiyyət mərhələsinə keçdiyinin bariz ifadəsidir.

Aparılan islahatlar nəticəsində ölkəmizdə vergi intizamı əhəmiyyətli dərəcədə yaxşılaşıb, könüllü vergi ödənişlərinin səviyyəsi yüksəlib. Xüsusilə qeyri-neft sektorunda vergi daxilolmalarının artması ölkə iqtisadiyyatının şaxələndirilməsi istiqamətində aparılan siyasətin səmərəliyini təsdiqləyir.

Hazırda vergi inzibatçılığının keyfiyyətinin artması şəraitində qarşıda duran fiskal öhdəliklər üzrə proqnozların icra edilməsi, vergiödəyicilərinə xidmətlərin çeşidinin və keyfiyyətinin artırılması, risk əsaslı nəzarət sisteminin genişləndirilməsi, ortamüddətli perspektiv üçün vergi siyasəti üzrə məqsədlərin həyata keçirilməsi əsas istiqamətlərdir. Beləliklə, vergi siyasətinin iqtisadiyyatın, o cümlədən sahibkarlığın inkişafında, böyüməsində və güclənməsində iştirakı artmaqda davam edir.

# Kredit qoyuluşu 12 faiz artıb

**Mərkəzi Bankın (MB) məlumatına görə, cari ilin iyulun 1-nə Azərbaycan iqtisadiyyatına kredit qoyuluşu 30 milyard 232 milyon manat (aylıq müqayisədə 0,1 faiz, ilin əvvəlinə nisbətən 3,2 faiz, 2024-cü ilin eyni dövrü ilə müqayisədə isə 12 faiz çox) təşkil edib.**




Hesabat dövründə dövlət banklarının kredit qoyuluşu 7 milyard 449 milyon manata (illik müqayisədə 13,6 faiz çox) çatıb. Cari il ərzində dövlət banklarının ümumi kredit qoyuluşundakı xüsusi çəkisi isə 24,3 faizdən 24,6 faizə yüksəlib.

İyulun 1-nə bank olmayan kredit təşkilatlarının (BOKT) kredit qoyuluşu 1 milyard 760 milyon manat (illik müqayisədə 11,8 faiz çox) olub. İl ərzində BOKT-ların ümumi kredit qoyuluşundakı xüsusi çəkisi 5,8 faizə yüksəlib.

Qeyd edək ki, Azərbaycanda 22 bank fəaliyyət göstərir, onlardan 2-si dövlət payına malikdir. BOKT-ların sayı isə 56-dır.

***Səhifəni hazırladılar:***
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Ermənilərin Göy məscid saxtakarlığı

**Bu gün özlərini dünyaya qədim və mədəni xalq kimi sırımağa çalışan və tarixi Azərbaycan şəhəri İrəvanı qədim erməni şəhəri kimi təqdim edən ermənilər bu şəhərdə Göy məsciddən savayı, yaşı 250 ildən artıq hər hansı tarixi-memarlıq abidəsi göstərə bilmirlər. Çünki zaman-zaman hamısını yer üzündən siliblər.**

Uzun müddət soydaşlarımızın üzünə bağlanmış, qəsdən dağıdılıb bərbad vəziyyətə salınmış, İranla münasibətlər xatirinə salamat qalmış və saxtalaşdırmalarla təmir edildikdən sonra bu tarixi abidəni ya "fars məscidi", yaxud da "İran məscidi" kimi təqdim edirlər. İrəvan şəhərində mövcud olmuş məscidlər haqqında müxtəlif dövrlərdə İrəvanda olmuş səyyahların və Rusiya işğalından sonra İrəvan şəhəri haqqında yazan ayrı-ayrı müəlliflərin əsərlərində kifayət qədər məlumat öz əksini tapmışdır. Faktlara nəzər salaq.

İrəvan xanlığının Rusiya qoşunları tərəfindən işğal edilməsindən sonra kameral siyahıyalmalar həyata keçirilmişdir. 1831-ci ildə İvan Şopenin rəhbərliyi altında tərtib edilən "İrəvan şəhərinin kameral təsviri"ndə şəhərdə 8 məscidin mövcudluğu haqqında məlumat verilir. Qaladakı iki məsciddən birinin cəbbəxanaya (Sərdar məscidi), digərinin ərzaq mağazasına çevrildiyi qeyd edilir.

Məscidlərdən Zal xan, Novruzəli bəy, Sərtib xan məscidinin Şəhər hissəsində, Hüseynəli xan və Hacı İmamverdi məscidlərinin Təpəbaşı hissəsində, Hacı Cəfər bəy məscidinin isə Dəmirbulaq hissəsində yerləşdiyi göstərilir. Qaladakı Rəcəb paşa məscidinin işğaldan dərhal sonra rus pravoslav kilsəsinə çevrildiyini, İ.Şopenin qeyd etdiyi kimi, şəhərdə daha dağıdılmış dörd məscidin olduğunu nəzərə alsaq, deməli, İrəvanda azı 13 məscid mövcud olmuşdur.

İrəvan şəhərini təsvir edən bütün səyyahların və tədqiqatçıların əsərlərində həm ölçülərinin miqyasına, həm də gözəlliyinə görə şəhərin ən möhtəşəm memarlıq abidəsi kimi, Göy məscidin (digər adı Hüseynəli xan məscidi) adı birinci çəkilir. Miqyasına görə İrəvandakı Göy məscid Qafqazda ən böyük məscid olmuşdur.

Şərq memarlığının nadir nümunələrindən hesab edilən Göy məscidin inşasına Hüseynəli xan Qacarın hakimiyyəti dövründə 1760-cı ildə başlanılmış, 1766-cı ildə başa çatdırılmışdır.

İrəvan şəhərinin Rusiya işğalından sonra 1829-1832-ci illərdə kameral siyahıyaalma keçirən rus tarixçi-statistiki İvan Şopenin verdiyi məlumata görə, şəhərdə 8 məscid mövcud olmuşdur ki, onlardan 2-si Qalada, 6-sı isə şəhərdə yerləşmişdir.

1833-cü ildə fransız geoloqu və arxeoloqu, naturaçı Fredrik Dyubua de Monpere Qafqaza və Krıma etdiyi səyahətinin nəticəsi olaraq 1839-cu ildə Parisdə çap etdirdiyi "Qafqaz ətrafına səyahət" əsərinin 3-cü cildində Göy məscidi ətraflı təsvir etmişdir. Onun çəkdiyi Göy məscidin rəsmi müəllifin adıçəkilən əsərinə əlavə olaraq 1840-cı ildə çap edilən "Atlas"ın üçüncü hissəsində yer almışdır. Dyubua de Monperenin çəkdiyi rəsmlərin qravüralarını Erkül Nikole hazırlamışdır.

Göy məscidin məşhur rus fotoqrafı Dmitri Yermakov tərəfindən XIX əsrin 80-90-cı illərində çəkilmiş fotoları onun 1896 və 1901-ci illərdə çap etdirdiyi albomlara daxil edilmişdir. Dmitri Yermakovun İrəvan məscidləri ilə bağlı çoxsaylı fotolarının bir qismi hazırda Simon Canaşiya adına Gürcüstan Dövlət Muzeyinin Yermakov fondunda və Şalva Amiranişvili adına İncəsənət Muzeyində saxlanılır.



Göy məscid



İrəvanda dağıdılmış mədəni irsimizin şahidi

1897-ci ildə alman incəsənət tarixçisi və arxeoloqu Friedrix Sarre İrəvanda olmuş, Göy məscidin müxtəlif rakurslardan fotolarını çəkmiş və sonradan həmin məscidləri müsəlman tarixi abidələri kimi elmi tədqiqat dövriyyəsinə cəlb etmişdir. F. Sarrenin çəkdiyi fotoların bir qismi hazırda Berlindəki Dövlət Muzeyinin İslam İncəsənəti bölməsində saxlanılır.

1902-ci ildə İrəvan quberniyasının statistika komitəsinin "İrəvan quberniyasının 1902-ci il üçün yaddaş kitabçası" çap edilmişdir. Həmin kitabda göstərilir ki, İrəvan quberniyasında 310 məscid mövcuddur ki, onlardan 7-si İrəvan şəhərindədir. 1906-1911-ci illərdə İrəvan şəhərinin texniki işləmiş B.Mehrabov şəhərin planını və orada olan memarlıq abidələrinin siyahısını tərtib etmişdir. Mehrabov şəhərdə 8 məscid qeydə almışdır. Həmin məscidlər belə adlanırdı: Təpəbaşı, Şəhər, Sərtib xan, Göy məscid, Hacı Novruzəli bəy, Qala məscidi, Dəmirbulaq və Hacı Cəfər bəy məscidi.

Azərbaycan Respublikası Dövlət Arxivində saxlanılan 1949-cu ilə aid bir arxiv sənədində Ermənistan SSR ərazisində qeydə alınan azərbaycanlılara aid 15 memarlıq abidəsi haqqında məlumatlar öz əksini tapmışdır. Həmin siyahıda nə zaman inşa edildiyi, nə məqsədlə istifadə edildiyi göstərilməklə, İrəvan şəhərində 4 məscidin mövcudluğu qeyd edilmişdir. Həmin sənəddə Göy məscidin 1776-cı ildə inşa edildiyi göstərilmişdir.

İrəvanın mərkəzindəki "Örtülü bazar"-la üzbəüz yerləşən Göy məscidin ölçüləri 97,2 m X 66 m idi. Məscidin adı onun günbəzinin göy rəngli kaşı ilə üzlənməsi ilə bağlı idi. Məscidin həyətində fontanlı daş hovuz tikilmiş, ətrafına sıx kölgəli ağaclar əkilmişdi. Göy məsciddə ibadət üçün qadın və kişi zalları ayrıca olmuşdur ki, onlar da bir-biri ilə ya dəhliz, ya da pərdə ilə ayrılırdı. İbadət zallarının tavanı və divarları gül rəsmləri ilə bəzədilmişdi. Məscidin divarlardan və sütunlardan kişmir parçadan güllər düzəldilib asılırdı.

Erməni tarixçisi Tadevos Hakopyan "İrəvanın tarixi (1500-1800)" əsərində Eçmiədzin kilsəsinin yepiskopu Hovhanes Şahxatunyansa istinadən yazır: "Məscidin minarəsinin və günbəzinin bir hissəsi mavi saxsılarla üzlənmişdir. Əsas tikililər məscidin ərazisinin cənub və şimal tərəflərində idi. Yan tərəflərdə isə yardımçı tikililər və hücrələr yerləşirdi. Məscidin həyətində ətrafına sal daşlar döşənmiş və ağaclar əkilmiş bir balaca hovuz inşa edilmişdi. Məscidin 3 qapısı olmuşdur. İki kiçik qapı şimal və şərq istiqamətinə, böyük giriş qapısı isə cənuba baxırdı. Məscid binası cənub səmtində yerləşirdi.

Bina bir-biri ilə bağlı 3 salondan ibarət idi. Məscidin günbəzi digər iki kiçik zaldan hündür olan böyük salonun üzərində idi. Sadə görkəmli zalların yalnız həyətə baxan pəncərələri şəbəkə üslubunda işlənilmiş və rəngli şüşələrlə bəzədilmişdi. Həyətin şimal hissəsində kiçik bir ibadətxana da var idi. Məscidin minarəsi çox gözəl idi və İrəvanın tikililəri arasında ən hündür olduğundan şəhərin hər yerindən görünürdü. Azançı onun başına çıxaraq hər gün müsəlmanları ibadətə çağırırdı. Məscidin cənub portalının üzərindəki kitabədə Hüseynəli xanın adı və tikilmə tarixi həkk olunmuşdu."

1893-1894-cü illərdə və 1898-ci ildə İrəvanda səfərdə olmuş məşhur Britaniya səyyahı və coğrafiyaşünası Henri Linç yazdığı "Armenia" əsərində Göy məscid haqqında ətraflı məlumat vermiş, onun minarələrinin, həyətindəki hovuzun və fasadının foto şəkillərini kitaba daxil etmişdir.

Azərbaycan arxeoloqu və epiqrafçısı İsa Əzimbəyov 1928-ci ildə İrəvanda ekspedisiyada olmuşdur. Ekspedisiyanın nəticələrinə dair İ.Əzimbəyovun yazdığı "Tiflisin, İrəvanın və Naxçıvanın müsəlman kitabələri" adlı məqaləsində qeyd edir ki, Göy məscid iki ayrı korpusdan – qış və yay korpuslarından ibarətdir. O, qış korpusunun kompleksin cənubunda, yay korpusunun isə şimalda inşa edildiyini, onların isə mədrəsə ilə əhatə olunduğunu yazır. İ.Əzimbəyov məscidin çox böyük həyətinin olduğunu, orada çinar və qovaq ağaclarının ucaldığını yazır.

Erməni müəlliflərinin verdikləri məlumata görə, XX əsrin 30-cu illərində İrəvandakı bütün məscidlərin sökülməsi qərara alınsa da, erməni şairi Yeğişe Çarensin ciddi səyləri nəticəsində onun "Mavi brilyant" adlandırdığı Göy məscid muzeyə çevrilməklə yer üzündən silinməkdən xilas edilmişdi. 1936-cı ildən Göy məscidin binasında İrəvan şəhər Tarix muzeyi yerləşdirilmişdi. İkinci Dünya müharibəsi başladıqdan sonra Göy məsciddən bir müddət həm də hərbi sursat anbarı kimi istifadə edilmişdi. Müharibədən sonra Göy məsciddə həmçinin Təbiət muzeyi və 1952-ci ildən etibarən isə məscidin kiçik ibadət zalında astronomiya həvəskarları üçün Planetariya fəaliyyət göstərmişdir.

Erməni sovet rəssamlarından Martiros Saryanın, Setrak Arakelyanın, Anuş Sahinyanın, Qabriel Gürcyanın 1920-1930-cu illərdə çəkdikləri rəsm əsərlərində İrəvan şəhərinin simvolu kimi Göy məscid əks etdirilmişdir. 1991-ci ildə Ermənistan müstəqilliyini əldə etdikdən və müsəlman ölkələri ilə diplomatik münasibətlər qurulduqdan sonra Göy məscidin yenidən məscid kimi fəaliyyət göstərməsi zərurəti meydana çıxmışdı. 1991-ci ildə Təbiət muzeyi, 1994-cü ildə isə Tarix muzeyi məscid kompleksindən çıxarıldı.

1995-ci ildə İranla Ermənistan arasında imzalanan müqaviləyə əsasən İran hökuməti Göy məscidin yenidən qurulması xərclərini öz üzərinə götürdü. Rekonstruksiya işləri İranın "Bonyade Mostezəfan və Canbazane Enqelabe Eslami" fonduna həvalə edildi. Məsciddə son tamamlama işləri 2006-cı ildə başa çatdırılmışdır. Rekonstruksiya işləri məscid kompleksinin yalnız cənub-qərb və şimal hissəsində aparılmışdır. Göy məscidin 24 metrlik minarəsi, 28 hücrəsi, kitabxanası, böyük zalı, günbəzi və həyəti rekonstruksiya edilmişdir. Hazırda Ermənistan rəsmiləri Göy məscidi xaricdən gələn qonaqlara "Fars məscidi", yaxud da "İran məscidi" kimi təqdim edirlər.

Ermənistan hökumətinin 2015-ci il dekabrın 10-da keçirilən iclasında Mesrop Maştos-12 ünvanında yerləşən Göy məscid haqqında Mədəniyyət Nazirliyinin təqdim etdiyi layihə müzakirə edilmişdir. Təsbit edilmişdir ki, tarixi və mədəniyyət abidəsi kimi, Göy məscidin yerləşdiyi ərazi Ermənistan Respublikasının daşınmaz mülkiyyəti olaraq Mədəniyyət Nazirliyinin sərəncamındadır və dövlət mülkiyyəti olduğu üçün özgəninkiləşdirilə bilinməyən tarixi və mədəniyyət abidələrinin dövlət reyestrinə daxil edilmişdir. Həmçinin qərara alınmışdır ki, Göy məscid və onun yerləşdiyi ərazi istifadə hüququ ilə təmənnasız olaraq 99 illiyinə İran İslam Respublikasının Ermənistandakı səfirliyinə mədəniyyət mərkəzi kimi təhvil verilsin.

İran Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Hüseyn Cabiri Ənsari 28 dekabr 2015-ci ildə Tehranda keçirdiyi brifinqdə APA informasiya agentliyinin müxbirinin sualını cavablandıraraq demişdir ki, İrəvandakı Göy məscidin 99 illiyə İran İslam Respublikasının istifadəsinə verilməsi ilə bağlı bu ölkənin Ermənistandakı səfirliyi ilə müqavilə imzalanmışdır və həmin sənədə uyğun olaraq müvafiq işlər görülür.

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, İrəvan şəhərində 1988-ci ilədək fəaliyyət göstərən yeganə məscid Çətirli məscid və yaxud yerləşdiyi ərazinin adına uyğun olaraq adlandırılan Dəmirbulaq məscidi olmuşdur. Üzərindəki kitabədə məscidin hicri təqvimi ilə 1327-ci ildə – yəni miladi təqvimi ilə 1909-cu ildə inşa edildiyi göstərilmişdi. Məscidin minarəsi yox idi. Əvəzində məscid binasının damında açıq havada 1,5-2 metr hündürlüyündə kvadrat şəkilli meydança inşa edilmiş, onun üzərində dəmir barmaqlıqlarla əhatələnmiş məhəccər quraşdırılmışdı.

Dörd yanı açıq olan məhəccərin üstü dəmir təbəqə ilə örtüldüyündən bu məscid Çətirli məscid adlanırdı. 1988-ci il fevralın 23-də ermənilər Dəmirbulaq məscidini yandırmışdılar. 1990-cı ildə erməni vandalları Dəmirbulaq məscidini yer üzündən silərək, yerində hündürmərtəbəli bina inşa etmişlər.

Yuxarıda sadalanan faktlar sübut edir ki, təkcə İrəvan şəhərində deyil, bütövlükdə Ermənistan adlanan və özünü dünyanın sivil ölkəsi kimi beynəlxalq aləmə təqdim etməyə çalışan bir dövlətin ərazisində azərbaycanlılara məxsus tarixi-memarlıq abidələrinə, onların maddi irsinə qarşı sözün həqiqi mənasında mədəni vandalizm aktları həyata keçirilməsi bu gün də davam etdirilir.

Göy məscid bu gün ermənilər üçün bir kabusa çevrilib. Fürsət düşmüşkən onu sökmədiklərinə görə indi peşmançılıq çəkirlər. Yeganə yolları isə Göy məscidin mənsubluğunu farsların ayağına yazmaqdır. Əlahəzrət həqiqəti isə necə deyərlər, çuvalda gizlətmək mümkün deyil. Axı bu şəhərdə əsrlər boyu farslar deyil, türk-müsəlmanlar yaşayıblar. Məhv edilmiş zəngin mədəni irs də Qərbi Azərbaycan coğrafiyasına, bu torpaqlarda soyqırımına və deportasiyaya məruz qalmış soydaşlarımıza məxsusdur.

*Nazim MUSTAFA,*
*AMEA Tarix və Etnologiya İnstitutunun böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, Prezident Kitabxanası direktorunun müşaviri*

**Xuntaçıların məhkəməsi**

# Zərərçəkmişlər baiskarları ittiham edirlər

**Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi avqustun 5-də davam etdirilib.**







Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında (ehtiyat hakim Günel Səmədova) təqsirləndirilən şəxs bildiyi dildə, yəni, rus dilində tərcüməçi, habelə müdafiəsi üçün özünün seçdiyi vəkillə təmin olunub.

Hakim Zeynal Ağayev dindirmədən əvvəl məhkəmə prosesində ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə və zərərçəkmiş şəxslərin hüquqi varislərinə qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

Məhkəmədə ifadə verən zərərçəkmiş şəxs Şəmistan Sadıxovun hüquqi varisi – atası Əbdülağa Sadıxov bildirib ki, övladı Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən açılmış atəş nəticəsində həlak olub.

Dövlət ittihamçısı Təranə Məmmədovanın suallarını cavablandıran zərərçəkmiş şəxs Vüsal Məlikovun hüquqi varisi – atası Bəxtiyar Məlikov övladının Laçında Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən açılmış atəş nəticəsində həlak olduğunu söyləyib.

Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun suallarını cavablandıran zərərçəkmiş Cavad Məhərrəmovun hüquqi varisi - atası Sadiq Məhərrəmov övladının Ağdərə istiqamətində Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən açılmış atəş nəticəsində həlak olduğunu deyib.

Zərərçəkmiş Eltun Yunusovun hüquqi varisi - atası Cavanşir Yunusovun övladının Xocavənddə düşmən atəşi nəticəsində həlak olduğunu qeyd edib.

Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimlinin suallarını cavablandıran zərərçəkmiş Məmməd Qayıbov Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən atılmış mərminin partlaması nəticəsində xəsarət aldığını bildirib. Həmin vaxt Rahib Şıxıyev, Elmin Eyvazov və Şəhrət Qasımov da yaralanıb.

Əli Heydərov ifadəsində Ağdamda düşmən tərəfindən atılmış mərminin yaxınlığına düşərək partlaması nəticəsində özünün və Sabutay Ağabağırovun yaralandığını vurğulayıb.

Dövlət ittihamçısı Vüsal Abdullayevin suallarını cavablandıran zərərçəkmiş Fərid Aslanov Xocalıda Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən açılmış atəş nəticəsində xəsarət aldığını diqqətə çatdırıb.

Baş prokurorun böyük köməkçisi Vüsal Əliyevin suallarını cavablandıran Camal Həmidov Laçında düşmən tərəfindən atılmış minaatan mərmisinin partlaması nəticəsində yaralandığını bildirib.

Habil Qənbərov ifadəsində Xocavənd rayonunda minaatan mərmisinin partlaması nəticəsində yaralandığını deyib.

Afiq Süleymanov Ermənistanın mina terrorundan zərər çəkdiyini söyləyib. O, ifadəsində deyib ki, Ermənistan silahlı qüvvələrinin qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən basdırılmış minanın partlayışı nəticəsində xəsarət alıb.

Süleyman Qarayev ifadəsində Laçın rayonunda düşmən tərəfindən açılmış atəş nəticəsində yaralandığını söyləyib.

Zərərçəkmiş Kənan Əhədov ifadəsində Ağdam rayonunda avtomobillə hərəkətdə olarkən mina partlaması nəticəsində xəsarət aldığını diqqətə çatdırıb.

Zərərçəkmiş Rəşad Həziyev özündən əvvəl ifadə vermiş K.Əhədovun dediklərini təsdiqləyərək, hadisə zamanı yaralandığını, avtomobilin yararsız vəziyyətə düşdüyünü diqqətə çatdırıb.

Şəhriyar Zərbəliyev Xocalıda düşmən tərəfindən açılmış atəş nəticəsində yaralandığını deyib. O bildirib ki, həmin vaxt Emil Nəbiyev və Rövşən Əzimli də müxtəlif növ bədən xəsarətləri alıblar.

Sonra ifadə verən Abdulla Hacıyev Ağdərədə, Sadiq Həmidov Ağdamda Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən açılmış atəşlər nəticəsində xəsarət aldıqlarını qeyd ediblər.

Məhkəmənin növbəti iclası avqustun 12-nə təyin olunub.

*XQ*

Günün mövzusu

# Enerji istehlakında sabit tarif mexanizmi

(əvvəli 1-ci səhifədə)

Bu fikri bir qədər də konkretləşdirib qeyd edək ki, beynəlxalq təcrübədə elektrik enerjisinin tarif və qiymətlərinin tənzimlənməsi zamanı sabit tarifin tətbiqi halları



mövcuddur. Sabit tarifin əsas mahiyyəti şəbəkəyə qoşulan istehlakçıların sabit xərc şəklində aylıq müəyyən vəsait ödəməsindən ibarətdir. Sabit tarif istehlak miqdarı ilə bağlı deyil, bu, istehlakçı kateqoriyasından asılı olmayaraq tətbiq edilir və paylayıcı sistem operatorunun müəyyən xərclərinin qarşılanmasını şərtləndirir. Yəni mənzili olan, amma orada yaşamayan hər bir vətəndaş elektrik enerjisini sabit tariflə ödəyir.

Respublikada sabit tarifin səviyyəsi isə hələlik müəyyən olunmayıb. Energetika nazirinin müavini Orxan Zeynalov Milli Məclisin növbədənkənar sessiyasında sabit tarifin hər bir abonent üzrə aylıq 1 manatı keçməyəcəyini bildirib. Ekspertlər tərəfindən də qərarın hamıya, yəni əhalinin bütün qruplarına eyni qaydada şamil olunacağı vurğulanıb. Hətta bu model ev telefonu ilə də müqayisə edilib. Belə ki, ev telefonundan istifadə olunmasa belə aylıq abunə haqqı ödənilirsə, elektrik enerjisi ilə bağlı da oxşar mexanizmin tətbiq ediləcəyi diqqətə çatdırılıb.

"Elektroenergetika haqqında" qanun layihəsində qüvvəyə minən dəyişiklikdə, həmçinin sabit tarifin tətbiqi ilə bağlı elektrik enerjisi təchizatçısının və istehlakçının hüquq və vəzifələri, eləcə də sabit tarifin tətbiqindən irəli gələn məsələlər tənzimlənib.

Beləliklə, sabit tarif (məsələn, 1 manat) hamı üçün eynidir. Məqsəd elektroenergetika sisteminin sabit və dəyişməyən xərclərinin bütün məişət istehlakçıları arasında ədalətli şəkildə bölüşdürülməsidir.

Onu da deyək ki, "Elektroenergetika haqqında" Qanuna dəyişikliklər müəyyən sualların meydana çıxmasını da şərtləndirir. Bu zaman ən çox verilən suallardan biri "sabit tarif tətbiq olunması mövcud tarifi artıracaqmı?" – sualı ilə bağlıdır. Ekspertlər tərəfindən bu sual belə cavablandırılır: "Xeyr, sabit tarifin tətbiq olunması elektrik və qaz tariflərinin artımı demək deyil. Mövcud tarifin daxilində strukturlaşdırma aparılması və istehlakından asılı olmayaraq hər bir abonentin sabit tarifi ödəməsi nəzərdə tutulur. Ümumiyyətlə, "sabit tarif" xərc əsaslı tarif elementlərindən biridir. Sabit tarifin tətbiqində əsas məqsəd olan xidmət keyfiyyətinin artırılması mövcud istehlak tarifinin çəkilən xərclərin xarakterinə uyğun olaraq strukturlaşdırılması və təchizat sahələri üzrə sabit pul axınlarının formalaşdırılması hesabına əldə edilməsidir.

Bu gün vətəndaşları "elektrik enerjisi və qaz istehlak edən hər bir şəxs bunun ödənişindən əlavə sabit tarif də ödəməli olacaq?"– sualı da düşündürür. Cavab isə çox sadədir: Sabit tarifin tətbiqi ilə normativ səviyyədə elektrik enerjisi və qaz istehlak edən vətəndaş üçün əlavə ödəmə nəzərdə tutulmur. Başqa sözlə, sabit tarif hazırda mövcud tarifin daxilində istehlakçılar tərəfindən ödənilir. Bu baxımdan sabit tarifin tətbiqinə mövcud tarifin tərkibində strukturlaşdırılma kimi baxılması daha doğru olar.

Bəs sabit tarif nə vaxtdan tətbiq olunacaq? Bu sualın cavabına gəlincə, qanunun qəbulu bilavasitə sabit tarifin tətbiqi mənasına gəlmir, bunun üçün hüquqi zəmin yaranır. Sabit tarifin tətbiqi üçün Tarif Şurasının qərarı olmalıdır. Hazırda bununla bağlı hər hansı müzakirə də aparılmır.

"Elektroenergetika haqqında" Qanuna dəyişikliklərlə bağlı digər bir sual da birdən çox mənzili olan vətəndaşların yaşamadıqları evlərində elektrik enerjisi və qaz üçün ödəniş edib-etməyəcəkləri ilə əlaqədardır. Bununla bağlı bildirilir ki, sabit tarif elementinin tətbiqində əsas məqsədlərdən biri sabit xərclərin ədalətli ödənişinə nail olmaqdır. İstifadə edilməyən, başqa sözlə, istehlakı reallaşmayan mənzillərə sahib abonentlər sabit tarif üçün ödəniş edəcəklər. Çünki hazırda bu tipli mənzillərlə bağlı faktiki sabit xərclər digər abonentlər tərəfindən ödənilir.

Ümumiyyətlə, hər bir abonentin şəbəkəyə qoşulması zəncirvari texniki proses olmaqla istehsaldan başlamış ötürmə və paylama şəbəkəsi üçün güc tələbi, əlavə infrastruktur və maliyyə yükü yaradır. Yəni, abonentin şəbəkəyə qoşulması onun enerji istehlak edib-etməməsindən asılı olmayaraq, müəyyən xərclərin yaranmasını şərtləndirir. Belə olduğu təqdirdə, başqa bir haqlı sual da meydana çıxır: niyə istehlak etməyən passiv abonentlərin xərclərini digər vətəndaşlar ödəməlidir?



Beləliklə, sabit tarifin vahid formada olacağı, yoxsa qiymətləri dəyişən paketlər şəklində təqdim ediləcəyi ilə bağlı (yəni, 10, 15, 25, 50 manatlıq paketlər və s.) beynəlxalq təcrübədə vurğulandığı kimi, sabit tarifin tarif dövrünə aid sabit xərclərin həcmindən asılı olaraq aylıq sabit ödəniş formasında gerçəkləşəcəyi nəzərdə tutulur.

Nəhayət, sözügedən qanuna dəyişikliklərdən irəli gələn bir məqamın, yəni sabit tarifin hansı orqan tərəfindən müəyyənləşdiriləcəyinin aydınlaşdırılması da zəruridir. "Elektroenergetika haqqında" Azərbaycan Respublikası qanununun 9.2-ci maddəsinə və həmin Qanunun tətbiqi barədə ölkə Prezidentinin 2023-cü il 19 may tarixli Fərmanına əsasən, 2028-ci il 1 iyul tarixinədək elektroenergetika sahəsində tariflərin tənzimlənməsi Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası tərəfindən həyata keçirilir.

Sabit tarifin tətbiqinin müsbət nəticələri barədə fikir bildirən ekspertlərə görə, "Elektroenergetika haqqında" Qanunun tətbiqi nəticəsində kommunal sahədə bir sıra müsbət nəticələr əldə olunacaq. Belə ki, bundan sonra təchizat xərclərinin daha təkmil iqtisadi yanaşmalar əsasında tariflərə ötürülməsi gerçəkləşəcək, daha ədalətli tarif strukturunun formalaşdırılması, təchizat şəbəkələri üzrə dayanıqlığının təmin olunması baxımından təchizat subyektlərinə tarif daxilolmaları üzrə pul axınlarında sabitlik reallaşacaq, təchizat xidmətləri üzrə gəlir və xərclərin daha səmərəli proqnozlaşdırılması və dövri subsidiya tələblərinin tədricən aradan qaldırılması öz həllini tapacaq.

***V.BİNYATOĞLU***
***XQ***

## Ekspert rəyi



**Samir HEYDƏROV,**
**iqtisadçı-ekspert**

Son illərdə ölkəmizdə enerji sektorunda mühüm islahatlar həyata keçirilir. Bərpa olunan enerji mənbələrinin inkişafı, şəbəkələrin modernləşdirilməsi, enerji səmərəliliyi tədbirləri, eləcə də rəqəmsallaşma prosesləri elektroenergetika sahəsində əsas prioritetlərdən sayılır. Yeni sabit tarif modeli də bu islahatlar zəncirində mühüm halqalardan biridir.

Xüsusilə bərpa olunan enerji sahəsinə özəl sektorun marağının artırılması və investisiyaların cəlbi baxımından sabit tarifin tətbiqi mühüm əhəmiyyət daşıyır. Enerji bazarında tənzimlənən və proqnozlaşdırıla bilən mühitin yaradılması, həm dövlət, həm də özəl enerji şirkətləri üçün uzunmüddətli planlama imkanlarını genişləndirir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən bu qanunvericilik dəyişikliyi elektroenergetika sahəsində strateji baxışın və planlı inkişafın bir nümunəsidir. Sabit tarif sistemi enerji sektorunda maliyyə dayanıqlığını artırmaqla yanaşı, həm də vətəndaşların maraqlarının qorunması, şəffaf idarəetmənin gücləndirilməsi və innovativ texnologiyaların tətbiqi üçün şəraitin yaradılması baxımından mühüm əhəmiyyətə malikdir.

Yeni tarif modelinin əsas məqsədi elektrik enerjisinin sabit, dayanıqlı və keyfiyyətli təchizatını təmin etmək, enerji istehsalı və ötürülməsi üzrə xərclərin daha ədalətli şəkildə bölüşdürülməsi, eləcə də investisiya mühitinin yaxşılaşdırılmasıdır. Sabit tarif sistemi, xüsusilə şəbəkənin texniki istismarı və inkişafı ilə bağlı sabit xərclərin (məsələn, infrastrukturun saxlanılması, texniki heyət, avadanlıqların modernləşdirilməsi) qarşılanmasında mühüm rol oynayacaq.

Bundan əlavə, yeni sistem enerji istehsalçıları və şəbəkə operatorları üçün daha proqnozlaşdırıla bilən gəlir axını yaradacaq. Bu isə, öz növbəsində, sektora özəl investisiyaların cəlb olunmasını təşviq edəcək. Çünki sabit gəlir mənbələri olan enerji sektoru investorlar üçün daha az riskli və cəlbedici hesab olunur.

Yeni tarif mexanizminin tətbiqi vətəndaşlar üçün müəyyən üstünlüklər və yeniliklər də gətirəcək. Belə ki, bu sistem enerji təchizatının sabitliyini artıracaq, xüsusilə regionlarda elektrik enerjisinin fasiləsiz və keyfiyyətli çatdırılması təmin olunacaq. Sosial baxımdan daha balanslı sistemin qurulmasına zəmin yaradan bərabərlik prinsipi tətbiq ediləcək. Əlavə xərclərin qabaqcadan bilinməsi və aylıq planlamaların daha asan aparılması da reallaşacaq.

Qeyd etmək lazımdır ki, sabit tarif mexanizmi yalnız enerji istehlakı ilə bağlı dəyişkən xərcləri deyil, həm də istehsalat və infrastrukturun saxlanılması ilə bağlı baza xərcləri nəzərə alır. Bu, sistemin ümumi maliyyə sabitliyini gerçəkləşdirməyə kömək edir.

Yeni tarif mexanizmi hazırlanarkən sosial ədalət prinsipinə ciddi şəkildə riayət olunub. Dövlət bu prosesdə sosial həssas qrupların maraqlarını qorumağı prioritet hesab edir. Gözlənilir ki, aşağı gəlirli ailələr üçün tarif yükünün balanslaşdırılması məqsədilə dəstək mexanizmləri də tətbiq olunacaq. Beləliklə, sabit tarifin sosial yükü balanslaşdırılacaq və əhali üçün elektrik enerjisi sərfəli qalacaq.

**Şəhid jurnalist Məhərrəm İbrahimov barədə yazılmış "Jurnalist ömrünün əbədiyyət nəğməsi" kitabı milli mətbuatımızın 150 illik yubileyi günlərində ictimaiyyətə təqdim edilmişdi. Gənc qələm sahibinin yarımçıq kəsilmiş ömür yoluna işıq salan nəşrin nüsxələrinin bir hissəsi və elektron versiyası geniş oxucu auditoriyasında yayılmaq üçün bugünlərdə Milli Kitabxanaya təhvil verilib.**

# Əbədiyyətə ünvanlanan şəhidlik dastanı




Bu münasibətlə keçirilən mərasimdə kitabxananın direktoru, professor Kərim Tahirov AZƏRTAC-in Kəlbəcərdə xidməti vəzifəsini yerinə yetirərkən tank əleyhinə minanın partlaması nəticəsində həlak olmuş əməkdaşı barədə yazılmış dəyərli kitabın nüsxələrinin yayılmasını onlara həvalə etdiklərinə görə nəşrin müəllifinə və şəhidin ailəsinə təşəkkürünü bildirib. O qeyd edib ki, erməni qəsbkarların xalqımıza qarşı qanlı düşmənçiliyini, qeyrətli soydaşlarımızın bu xəyanət və vəhşiliklərə son qoymaq üçün apardığı şanlı mübarizəni tarixin yaddaşına həkk etməkdə belə kitablar ən yaxşı mənbədir. Dəyərli nəşrləri oxuculara çatdırmaq isə onların vəzifə və vətəndaşlıq borcudur.



Milli Məclisin deputatı Rizvan Nəbiyev, kitabın rəyçisi, fəlsəfə doktoru Hümbət Hüseynov, "Xalq qəzeti"nin baş redaktorunun müavini Tahir Aydınoğlu, "Real" televiziya kanalının əməkdaşı Kamran Qasımov, Səbail Rayon İcra Hakimiyyətinin nümayəndəsi Gülnar Məmmədova 2021-ci il iyunun 4-də Kəlbəcər rayonunun Susuzluq kəndinə gedən yolda Ermənistanın ölkəmizə qarşı düşmənçiliyinin gizli davamı olan mina terrorunun qurbanı olmuş Məhərrəm İbrahimovun xatirəsini əbədiləşdirən kitabın geniş yayılmağa layiq olduğunu söyləyiblər.

Onlar şəhid jurnalistin işğalçıların 30 il müddətində Qarabağda törətdiyi misilsiz vandallığın salnaməsini yaratmaqla milli yaddaşı zənginləşdirməyə, ermənilərin yırtıcı xislətini açıb dünyaya göstərməyə xidmət etdiyini vurğulayıblar.

Bildirilib ki, şəhidlik zirvəsində əbədiləşmiş qeyrətli jurnalistin ömür yoluna işıq tutan kitabın ölkənin kitab yayımı şəbəkəsinə verilməsi bu igidlik dastanının əbədiyyətə ərmağan edilməsidir. Yeni nəsillər belə kitablarla ata-babalarının tarixdə qazandığı ən böyük zəfər salnaməsini vərəqləyəcəklər. Məhərrəm İbrahimov kimi şəhidlərin yarımçıq ömrü isə xatirələrdə ölümsüzlük qazanacaq.

Kitabın müəllifi, şəhidin qardaşı Əsgər İbrahimov müraciətlərini qədirbilənliklə qəbul etdiklərinə, nəşrin ölkədə yayılmasını təşkil edəcəklərinə görə Mərkəzi Kitabxananın kollektivinə razılığını bildirib. Mərasimdə şəhid Məhərrəm İbrahimovun ailə üzvləri kitabxanaya daimi oxucu qəbul ediliblər.

***T.RÜSTƏMLİ***
***XQ***

# 30 ukraynalı uşaq da ölkəmizdə rahatlıq tapacaq



**Ukraynadakı müharibədən əziyyət çəkmiş uşaqların ölkəmizə gətirilərək reabilitasiya xidmətlərinə cəlb edilməsi işləri davam etdirilir.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin təşkilatçılığı ilə Ukraynadan daha 30 uşaq reabilitasiya xidmətləri ilə təmin edilmək üçün ölkəmizə gətirilib.

Uşaqlara agentliyin Qəbələ Uşaq Reabilitasiya Mərkəzində 10 günlük proqram çərçivəsində tibbi, sosial-psixoloji xidmətlər göstəriləcək. Uşaqlar üçün Qəbələ və Şəkidəki istirahət mərkəzlərinə, tarixi-memarlıq abidələrinə ekskursiyalar da təşkil olunacaq.

Xatırladaq ki, bundan əvvəlki 7 qrupla birlikdə ümumilikdə 200-dən çox ukraynalı uşaq ölkəmizə gətirilərək sosial-psixoloji reabilitasiya xidmətləri ilə təmin edilib.

***XQ***



*Qocaman qələm sahibləri*

# Nadir səslər xəzinədarı

**Ömrünün 60 ildən çoxunu jurnalistikaya həsr etmiş qocaman qələm sahibi Telman Qarayev daim peşəkarlığı ilə seçilib. Vaxtilə yatımlı-yapışıqlı səsini, peşəkar dil-üslubunu radiodan milyonların həvəslə dinlədiyi Əməkdar jurnalistin yubileyləri “Azərbaycan Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyətində, Yazıçılar Birliyinin Natəvan klubunda yaddaqalan görüşlərlə qeyd edilib.**



Telman Qarayev 1934-cü ilin avqustunda Ağdamın Sarıcalı kəndində dünyaya göz açıb. Azərbaycan Dövlət Universitetinin jurnalistika şöbəsini bitirdikdən sonra bir sıra qəzetlərdə şöbə müdiri işləyib. 1975-ci ildən isə həyatını Dövlət Teleradio Komitəsinə bağlayıb. Əvvəlcə televiziyanın musiqi redaksiyasında baş redaktor, sonradan isə radionun musiqi redaksiyasında şöbə müdiri, “Xalq yaradıcılığı” redaksiyasında redaktor müavini, məktublar, müxbirlər, yerli radio və canlı yayım birləşmiş qurumların rəhbəri kimi fəaliyyət göstərib. Vaxtilə bu sətirlərin müəllifi də teleradioda çalışıb. Peşəmizin “qaçdı-qovdu”su üzündən yaxın ünsiyyətimiz olmayıb, amma onu tanıyanlar hər zaman milli musiqinin, sənətin, mədəniyyətin fədaisi kimi səciyyələndiriblər. Verilişləri həmişə sonsuz maraqla izlənilib, sevə-sevə dinlənilib.

Telman Qarayevin “Sənətin keçdiyi yollar” kitabı bu baxımdan ən yaxşı bələdçidir. Evində yaratdığı “Səs muzeyi” də zəngin mənbədir. Orada kimlərin müsahibəsi, kimlərin ifası yoxdur: Qara Qarayevin, Fikrət Əmirovun, Niyazinin, Süleyman Ələsgərovun, Şövkət Ələkbərovanın...

İfa demişkən, Telman müəllimin şeirinə də mahnı bəstələnib. Özü də 17 il konservatoriyada nəzəriyyədən dərs deyib. “Qarabağdan olasan, musiqini anlamayasan?! Bu, düz olmaz. O vaxt şair eloğlum Famil Mehdi mənə dedi ki, yazılarını oxuyuram, hər mövzuda yaxşı yazırsan, amma mən istəyirəm sən sırf musiqi sahəsində ixtisaslaşasan, o yazıların daha yaxşıdır. Musiqi sahəsində yazmaq ürəyimdən çox keçirdi, yəqin ona görə yaxşı alınırdı”.

...Dediyimiz mahnıya gəlincə, Telman Qarayev Şuşanın itirilməsindən təəssüflənərək 1992-ci ilin yayında “Darıxıram, Şuşam mənim” şeirini qələmə alıb və Cavanşir Quliyevə verib. Şeir bəstəkarı anındaca “tutub”. Tezliklə yaxşı bir mahnı-elegiya yaranıb və Xalq artisti Flora Kərimova yanıqlı səslə oxuyub. İndi artıq arxada qalan Qarabağ əzablarına o mahnı bir rekviyem olsa da, Şuşanın geri alınması məramı ilə bitirdi:

**Oğul gərək dolaylardan keçib getsin,**
**Düşmənlərə sözün desin,**
**Dizin-dizin sənə yetsin,**
**Mən də bunu istəyirəm...**

Nə yaxşı ki, istəyi gerçəkləşdi Telman müəllimin. Doğrudur, bu yolda çoxlu şəhid verdik. Onlardan biri də elə şairin adaşı oldu – Telman Qarayev adında 21 yaşlı şəmkirli igid. Amma hamısının ruhu şaddır. Çünki Şuşa, Ağdam... bütün Qarabağ artıq 5 ildir ki, azadlığına qovuşub. Bir çox kəndlər kimi, onun doğma Sarıcalısı da məskunlaşıb.

Azərbaycan radiosunun “Qızıl fond”unda T.Qarayevin hazırladığı onlarca verilişin lent yazısı saxlanılır. “Arzu” musiqi poçtu, “Ürək telləri”, “Xalq inciləri”, “Romans axşamı”, “Gəzdim, gördüm obamı”, “Ömrümüzdən keçən səslər”, “Qərib axşamlar”, “Xeyrə qənşər”, “Dünya bir pəncərədir”, “Ömür yolu”, “Məktub həftəsi”, “Borc”, “Dünəndən bu günə”, “Özümüz, sözümüz”, “Dilək ağacı” və başqa proqramlar Telman Qarayevin yaradıcılıq nümunələridir. Milli radiomuzun salnaməsinə daxil olan 500-dək lent yazısı onun adı ilə bağlıdır.

“Telman Qarayevin “Səs muzey”ində 5000-dən artıq eksponat toplanmışdır. Bunlar onun ömründən keçən şəxsiyyətlərin fikrini-düşüncəsini, habelə zamanın nadir hadisələrini özündə əks etdirən audio və video kasetlərdir. Səliqə ilə rəflərə düzülmüş, “yaşına” və mövzusuna görə qruplaşdırılaraq, kartotekaya salınmışdır. Buradakı muzey qayda-qanunlarını, muzey səliqə-səhmanını görüb, təəccüblənməmək mümkün deyil. Ən heyrətlisi odur ki, muzey sahibi dünya işığından məhrum olsa da, hər bir eksponatın adını, məzmununu və yerini qəlbinin gözləri ilə görür. Amma geniş mənzildə gözədəyən yeganə varidatın bu rəflərdən ibarət olduğunu görəndə təəccüblənmədim. Çünki Telman bu eksponatları üçün ömrünü-sağlamlığını xərclədiyi kimi, son qəpiyini də əsirgəməyib...



Bunu da öyrənirik ki, Telman Qarayev Ağdamda keçirilən “Xarıbülbül” festivalının da aparıcısı olub, lenti “Səs muzeyi”ndə qalır. Onun “yaddaş muzeyi” də zəngindir. Söhbət edir ki, 1990-cı ilin “Qanlı yanvar” günü evlərinin eyvanından həyətdə 3 nəfərin güllələndiyini görüb. “Atəş səslərini eşidəndə onu yazmağa başladım, eyvana çıxanda uşaqlar da mənimlə gəldi, bizim eyvanı da atəşə tutdular. Uşaqlarla əyildik, Yenə də ürəyim rahat olmadı. Həyətə düşmək istədim, yoldaşımın da səsi düşüb lentə. Deyir ki, bu uşaqları yetim qoyub hara gedirsən. Baxdım ki, binanın qabağında 3 nəfəri güllələdilər, aşağı düşəndə utandım səsyazanı yararlılara tərəf tutmağa, amma o xırıltı səslərinin hamısı lentə yazıldı. Birinin ahı o səsdə necə var idi elə də qalıb. Bu səs də daxil olmaqla, lentə köçürdüyüm bütün səsləri qoruyub saxlamaq, onları insanlara çatdırmaq istəyirəm”.

Təəssüf ki, Telman müəllimin indi bunu etməyə fiziki imkanı yoxdur. Çünki 2006-cı ildə gözləri elə Bakıdakı Şəhidlər xiyabanını ziyarət edən zaman tutulub və belə olandan sonra çox işləri yarımçıq qalıb. “Şəhidlər xiyabanını ziyarət edəndə Fərizə ilə İlhamın məzarının yanında gözlərim qaralmağa başladı. Əbədi məşələ çatmamış gözlərim tamam tutuldu. Uşaqlara dedim ki, tutun əlimdən, heç nə görmürəm”...

Dünya işığından məhrum olsa da, Telman müəllim 20 ilə yaxındır ki, dünyaya bəsirət gözü ilə baxır. “Qarşıdan radionun 100 illiyi gəlir, hazırlaşıram ki, bununla bağlı da bir kitab buraxam. Radionun 80 illiyində 2 veriliş hazırladım – “Bir dünya, bir pəncərə” və “Ömür yolu”. Birincisini dünyadan köçən – radioda, televiziyada işləyən adamlar haqqında, ikincisini isə yaşayan, amma işləməyən adamlar üçün etdim. 180 veriliş yazdım həmin proqramlarda. Çox istərdim 100 illikdə də o verilişlərdən təqdim etsinlər. Jurnalistikadan, radiodan uzaq düşmək çox çətindir mənim üçün”.

Mərhum yazıçı-jurnalist Yusif Kərimovun onun evində qonaq olandan sonra yazmış olduğu qeydlər bu fədakar insan haqqında daha dolğun təsəvvür yaradır:

Telman Qarayevin mənzilində qonaq olduğum bir neçə saat ərzində sehrli aləmə, səslər dünyasına qovuşdum. Bu dünyada bəxtəvər günlərimizin nişanəsi ilə yanaşı, müsibətli günlərimizin də əks-sədasını eşitdim. Şuşaya – Cıdır düzünə qalxaraq, “Xarı Bülbül musiqi festivalı”nın iştirakçısına çevrildim. Qanlı 20 Yanvar gecəsinin atəş yağışına düşərək, düşmən gülləsinə tuş gəlmiş şəhid balamızın son sözlərini və iniltisini eşitdim. Səs toplusu içində sənət korifeylərinin canlı nəfəsini duydum. Deyirlər ki, səsimiz ruhumuzdur. Deməli, burada “ruhlar səltənətinə” qovuşdum...

Sonda yenə də Telman Qarayevin “Səs muzeyi” haqqında. Ümidvaram ki, bu nadir xəzinəyə rəsmi muzey statusu veriləcək. Bu məkanda Telmanın bələdçiliyi ilə silsilə verilişlər yaranacaq. Rəflərdə qərar tutan “səslər” canlanaraq, dönə-dönə yenidən danışacaq. Cənc nəslin yaddaşına hoparaq, gələcəyə köç edəcək...”

Azərbaycan radiosunun “Qızıl fond”unda T.Qarayevin hazırladığı onlarca verilişin lent yazıları saxlanılır. "Arzu" musiqi poçtu, "Ürək telləri", "Xalq inciləri", "Romans axşamı", "Gəzdim, gördüm obamı", "Ömrümüzdən keçən səslər", "Qərib axşamlar", "Xeyrə qənşər", "Dünya bir pəncərədir", "Ömür yolu", "Məktub həftəsi", "Borc", "Dünəndən bu günə", “Özümüz, sözümüz”, “Dilək ağacı” və başqa proqramlar Telman Qarayevin yaradıcılıq “övlad”larındandır.

Telman müəllimin şəxsi arxivində qəzet və jurnallarda çap etdirdiyi bütün materiallar səliqə ilə tikilib saxlanılır. Yaşının çox olmasına baxmayaraq, yazıb-yaratmaq eşqi onu tərk etməyib. Çatışmayan bircə gözlərinin nurudur ki, onu da, həmkarlarımızdan birinin dediyi kimi, ürəyinin işığı ilə əvəz edib. Arxivinin qiymətli materiallarının bir qismini – mətbuatda dərc edilmiş, musiqinin təbliği ilə bağlı yazılarını, efir məkanına həsr etdiyi məqalələrini toplayaraq üççildlik kitab hazırlayıb. Qalır çap məsələsi...

***Əli NƏCƏFXANLI***
***XQ***

# “Ömür kitabı” ingilis dilində

**Azərbaycan Respublikasının Bosniya və Herseqovinadakı səfirliyinin təşəbbüsü ilə xalq şairi Sabir Rüstəmxanlının məşhur “Ömür kitabı” əsəri ingilis dilində nəşr olunaraq Qərbi Balkan və Avropa oxucularına təqdim edilib.**

Kitab Sarayevoda fəaliyyət göstərən “Bookline” nəşriyyatında çapdan çıxıb. Əsərə yazdığı ön sözdə Azərbaycanın Bosniya və Herseqovinadakı səfiri, ədəbiyyatşünas-alim Vilayət Quliyev Sabir Rüstəmxanlının zəngin ədəbi irsindən məhz bu əsərin seçilməsini onun xalqımızın qədim tarixi, mədəniyyəti, mənəvi dəyərləri və mübarizə yolunu bədii-publisist dillə parlaq şəkildə əks etdirməsi ilə əsaslandırıb.

Səfirliyin nəşr proqramı çərçivəsində kitab Sarayevodakı diplomatik nümayəndəliklərə, ali məktəblərə, kitabxanalara və Avropanın nüfuzlu elmi mərkəzlərinə hədiyyə ediləcək.

***XQ***




**Təqvim yada salır**

# O, ulu sözün uzmanı idi



**Unudulmaz qələm dostumuz və həmkarımız, dilçi-ədəbiyyatşünas və publisist İlham Əli oğlu Abbasovun bu fani dünyanı tərk edərək, əbədiyyətə qovuşmasından 1 il keçir.**

İlham Abbasov 1957-ci ildə Goranboy şəhərində ziyalı ailəsində anadan olmuş, milli-mənəvi dəyərlərimizə dərin sevgi ruhunda böyüyüb tərbiyələnmişdi. 67 illik ömründə ana dilimizin tədqiqi və tədrisi, milli ədəbiyyatımızın təbliği, milli publisistikamızın yeni mövzularla zənginləşdirilməsi ilə bağlı zəngin və mənalı bir yaradıcılıq yolu keçmişdi.

Goranboyda orta məktəbi bitirdikdən və orduda xidmətdən sonra 2 il doğma rayonda fəhlə işləmiş, 1979-cü ildə Bakı Dövlət Universitetinin filiologiya fakültəsinə daxil olmuşdu. Ali təhsilini başa vurduqdan sonra – 1985-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetində baş laborant kimi elmi-pedaqoji fəaliyyətə başlayan istedadlı filoloq 1989–1999-cu illərdə bu ali məktəbdə laboratoriya müdiri işləmiş, 2002-ci ildən Azərbaycan dili və onun tədrisi metodikası kafedrasında müəllim və baş müəllim kimi fəaliyyət göstərmişdi.

Gənclik illərindən ölkənin müxtəlif qəzet-jurnalları ilə fəal əməkdaşlıq edən İlham Abbasov 1995-ci ildən pedaqoji fəaliyyəti ilə yanaşı, “Xalq qəzeti”ndə də işə qəbul edilmiş, humanitar siyasət şöbəsinin müdiri vəzifəsində çalışmışdı. Ötən illərdə qəzetin redaksiyasında bu sahəyə aid mövzularda yazıların yüksək peşəkarlıqla hazırlanmasına rəhbərlik edən təcrübəli qələm sahibi özü də silsilə publisistik yazılarla çıxış edirdi.

İlham Abbasov xəstəliyi ilə əlaqədar öz ərizəsi ilə qəzetimizdə fəaliyyətini dayandırandan sonra da arabir redaksiyamıza gəlir, hər birimizlə görüşüb səmimi söhbətlər edirdi. Onu narahat edən məsələlər barədə qəzet səhifələrində çıxışlar da edirdi. İlham Abbasov “Xalq qəzeti”ndə son çıxışı ulu Nizami Gəncəvinin əsərlərinin mövzu seçimi və fars dilində yazmasının səbəbləri, o cümlədən də paniranistlərin şairi əsassız olaraq, qərəzlə “fars” kimi qələmə vermələri barədə idi. Bir alim olaraq buna qarşı od püskürən dostumuz qəzetin 12 mart 2023-cü il tarixli sayına müsahibhəsində birmənalı olaraq bildirirdi ki, Nizami poeziyasının dili farsca olsa da, ruhu – məramı, ideyası türkcədir.

Nizami türk əsrinin, türk minilliyinin, türk məmləkətinin türk oğlu türküdür. Faktlarla sübut edirdi ki, Nizaminin türklüyə bağlılığı təkcə dil məsələsində deyil, şairin yaradıcılığının məzmun və ideya istiqamətlərində, onun dünyagörüşü və düşüncə tərzində də çox qabarıq və aydın şəkildə görünür. Nizami əsərlərində gözəl, mərd, qəhrəman, döyüşçü, sərkərdə, müdrik, rəhbər, adil anlayışlarını “türk” kəlməsi ilə ifadə edib. Gözəllik, yaxşılıq, təmizlik, doğruluq, mərdlik, qəhrəmanlıq, halallıq və müdriklikdən bəhs edəndə “türklük” sözünü işlədib...

Azərbaycan Mətbuat Şurasının dil üzrə eksperti olan İlham Abbasov ölkə mediasında ana dili normalarına əməl edilməsi ilə bağlı davamlı monitorinqlər aparılmasına rəhbərlik etmiş, dil qanunvericiliyi və ədəbi redaktə sahəsində metodik-tövsiyə vasitələri hazırlayıb nəşr etdirmişdi. Tələbəlik illərindən ölkənin ədəbi mühiti ilə sıx əlaqədə olan qələm dostumuz Azərbaycan Yazıçılar Birliyinin ədəbi tənqid bölməsinin fəaliyyətində də yaxından iştirak edib, dərin bilikli ədəbiyyatşünas, nadir söz xiridarı olaraq tanınıb. Onun ədəbi-bədii nəşrlərdəki çıxışları daim böyük maraqla qarşılanırdı.

Tanınmış dilçi-ədəbiyyatşünas və yurdsevər publisist İlham Abbasovun çoxsaylı elmi və populyar məqaləsi, “Əbədi vətən”, “Sənət duyğuları”, “Himnimizin müəllifi”, “Nobel mükafatçıları” kimi kitabları ona layiqli nüfuz qazandırmışdı. Dostu, mərhum professor Əzizxan Tanrıverdinin redaktorluğu ilə Xalq şairi Məmməd Arazın yaradıcılığı üzrə gəzişmələrlə müasir Azərbaycan poeziyasının bədii dil xüsusiyyətlərinə dair nəşr etdirdiyi “Məni şeirimdə gəz” (2020) kitabı ədəbi cameədə böyük maraq doğurmuşdu. Ondan 2 il sonra İlham Abbas çap etdirdiyi “Anamın dili” (2022) kitabının titul səhifəsində yazmışdı: “Həm də ana dili müəllimim olmuş anam Pakizə xanımın əziz xatirəsinə”. Ana dilini mənəvi Vətənimiz sayan müəllif, əsərində bu sahənin ən aktual məsələlərinə işıq tutmuş, özəl və gözəl fikirlərini qələmə almışdı.

Ötən ilin avqustunda – ömrünün yetkin, yaradıcılığının məhsuldar, pedaqoji fəaliyyətinin gərəkli bir dövründə İlham Abbasovun qəfil ölümü elm, təhsil və jurnalistikamız üçün ağır itki oldu. Artıq 1 ildir ki, onun ruhu anası Pakizə xanımın ruhuna qovuşub. Dəyərli soydaşımızın, peşəkar həmkarımızın və istəkli dostumuzun işıqlı xatirəsi daim qəlbimizdə yaşayacaq.

***Ə.DOSTƏLİ***
***XQ***

# Avazadan gələn avazımız



**Türkmənistanın Avaza Milli Turizm Zonasında BMT-nin Dənizə Çıxışı Olmayan İnkişaf Etməkdə Olan Ölkələr üzrə III Konfransı çərçivəsində “Azərbaycan Milli Günləri” başlanıb.**

Bir neçə gün davam edəcək tədbirin məqsədi Azərbaycanın zəngin mədəni irsini, incəsənət ənənələrini və müasir yaradıcılıq potensialını təqdim etməkdir. Proqram çərçivəsində Azərbaycan pavilyonunda milli sənətkarlıq nümunələri, nəşrlər, suvenirlər və tətbiqi sənət əsərləri təqdim olunacaq. Açıq hava sərgi zonasında xalçaçılıq, milli geyimlər, kəlağayı, şəbəkə və tikmə sənəti nümayiş etdiriləcək, həmçinin ustad dərsləri keçiriləcək. Kulinariya guşəsində milli mətbəximizin ənənəvi ləzzətləri təqdim olunacaq. Konsert proqramlarında milli musiqi, rəqslər və müasir səhnə performansları nümayiş etdiriləcək.

Dünən konfransın rəsmi açılışı çərçivəsində beynəlxalq Qala konserti təşkil olunub. Bu gün isə “Azərbaycan Milli Günü” möhtəşəm musiqi və rəqs proqramı ilə qeyd ediləcək. Daha sonra səhnəmizin tanınmış sənətkarlarının, ifaçılarının iştirakı ilə təşkil olunan “Azərbaycan Milli Günü” Qala konserti ilə yekunlaşacaq.

Azərbaycanın bu tədbirdə iştirakı yalnız mədəniyyət nümayişi deyil, həm də sülh, əməkdaşlıq və mədəni diplomatiyanın inkişafına mühüm töhfə olacaq.

***XQ***

Dost sözü

# Beləcə yazmır o, şeirlərini...



**Tələbə yoldaşım, dostum Vaqif Bəhmənlinin "Mən belə yazıram şeirlərimi" əsərinə**

**Dörd qat bükülürəm söz axtaranda,**
**Hürgüclü dəvənin beli oluram.**
**Həqiqət soruşub, düz axtaranda**
**Topuğu zəncirli dəli oluram.**
**Mən belə yazıram şeirlərimi.**

Müqayisə hər zaman yanlış və qüsurludur. Amma di gəl bəzi məsələlərin açarı elə müqayisədən keçir. Biri uğurunun səbəbini, yollarını, üsulunu, düsturunu etiraf edəndə istər-istəməz başqası özünü həmin qəlibə salıb "belə olsa mən də uğura çatardım" düşüncəsi keçirir ağlından. Bu nəticə səni qane eləmir, çünki quyuya su tökməklə olmur, gərək mənsəbində olsun. Onda tutursan başqa yolun ucundan. Uğursuzluğuna bəhanə axtarırsan. Bir də bunu bir matah kimi tərifləyərək edirsən. Minnət qoya-qoya. "Əşşi burda nə var ki? Onda olan şərait (pul, imkan, qohum, daha nə bilim nə) məndə olsa, mən ondan da yaxşı yazaram (oxuyaram, oynayaram və s.)"

Yaxud "Onu dəyərə, qiymətə mindirən var, məni gözləri götürmür, yoxsa mən ondan pis yazmıram ki". Sovet dövründə Azərbaycanda bir müəllimə "SSRİ xalq müəllimi" fəxri adı verilmişdi. Bu fəxri ad SSRİ Ali Sovetinin fərmanı ilə 1977-ci ildə təsis olunmuşdu və təhsil sahəsində nailiyyət qazanmış müəllimlər ona layiq görülürdülər. Azərbaycandan başqa bir müəllim bu "haqsızlığa" dözməyib SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri A. A. Qromıkoya sitəmli bir məktub yazmışdı: "Yoldaş Qromıko! Bu günlərdə Siz Filankəs müəllimə "SSRİ xalq müəllimi" adı vermisiniz. Fərmanı oxuyandan sonra dönüb öz həyat yoluma baxdım və gördüm ki, mən heç də o filankəsdən zəif müəllim olmamışam, indiyədək işlədiyim qırx il ərzində minlərlə şagird hazırlayıb dövlətə təhvil vermişəm Xahiş edirəm xidmətlərimi nəzərə alıb mənə də o fəxri adı verəsiniz." Şərh etməyəcəyəm! Çünki məqsədim qeybət eləmək yox, öz tənbəlliyimə dostumun gözəl şeirinin pəncərəsindən baxaraq "haqq qazandırmaqdır".

Jurnalistika emalatxanasına eyni vaxtda ayaq basmış olsaq da, Vaqif lirik, poetik qəlbə malik biri kimi o mətbəxin ustalarından idi artıq. Ona görə də o yazanda... mən yazmırdım. Həmin vaxtdan bəri həmişə mənə nəsə əngəl olur, kimsə çağırır, kimsə harasa göndərir, gah tələsirəm, gah gecikirəm. Əlqərəz, nə "hürgüclü dəvə", nə "topuğu zəncirli dəli" olmağa vaxt tapıram. İllər beləcə keçdi, dolandı. Bir də baxdım ki, Vaqif deyir:

**Sanki, bala çıxır, sınır yumurta,**
**Dərhal pərvazlannam neçə min yerdən.**
**Yaxa cıra-cıra, üz yırta-yırta,**
**Ölü götürürüəm elə bil yerdən.**
**Mən belə yazıram şeirlərimi.**

Deyirəm, ay qardaş, bir dayan, dur, bu nə həşirdi? Mən hələ başlamamışam. Beynimdə o qədər fikir var... Yazsam, sənin şeirlərin kölgədə qalacaq, bircə macal ver. Amma indi tələsik rayona gedirəm, əmioğlunun toyudu. Gəlib sənə elə bir yazı verəcəm ki, sevincdən ağlın duracaq. Nə yumurta, nə cücə? Nə ölü, nə molla?

**Dinləmir ki! Deyir:**
**Oğrunu tuturam qoruqda ikən,**
**Qoymuram talaya cərgəni, vəri.**
**Şilləni çırpıram varaqda ikən**
**Ağzının üstünə nadürüstlərin-**
**Mən belə yazıram şeirlərimi.**

Bax, bu olmadı. Mənim oğru-quldurla işim olmaz. Nadürüstlərlə varaq davası da mənlik döyül. Mən olsa-olsa kənarda durub baxaram, arada o Çarli Çaplin vardı ey, filmində içindən bir adam çıxıb rəqibini o ki var döyüb qaçıb yenə gizlənirdi sahibinin qılıfına, eləcə oğrunu-quldurru-nadürüstü cəzalandırıb özümü təmizə çıxararam ki, vicdanım rahat olsun. Bir də elə olur ki, mən gendən gəlib oğrunu tutmağa çalışana qədər gəlib görürəm ki, nə oğru qalıb, nə də oğurlanası əşya. Hər şey olur nur-əlanur. Təzədən çəkilirəm öz güşəmə, alıram əlimə kitabını dostumun, o da tənəsini vurur üzümə:

**Pud-pud ət kəsilir sanki ətimdən,**
**"Qarabağ" yazmağa qorxuram, qardaş.**
**Lap yerə girirəm xəcalətimdən,**
**Qələmi gözümə soxuram, qardaş.**
**Mən belə yazıram şeirlərimi.**
**Şükür Yaradana, bizə izin verdi**
**"Qarabağ" sözünü fəxrlə yazmağa,**
**Düşmənin pərənin pozan igidlər,**
**Həsrət qoymadılar bizi papağa.**

Az qala şeir yazmağa başladım ey. Artıq "xəcalətli düşmənin olsun" ibarəsi də yerinə düşdü. Yağı düşmən nə qədər cilov gəmirsə də dəmir yumruq qafasını elə silkələmədi ki, bir daha Qarabağa kəm baxsın. Yenə də ilanın ağına-qarasına lənət! Barıtı quru saxlamaqda fayda var.

**Qəm dərin dəryadı, gedib dərinə,**
**Sözün ağrısını yaxşı duyuram.**
**Sətirlər sonunda nöqtə yerinə**
**Bir damla qanlı göz yaşı qoyuram.**
**Mən belə yazıram şeirlərimi.**

**Qurut gözünün yaşını, qardaş.**
**Qəm-qüssə şələni daha yerə qoy.**
**Sənin yetmiş ildə çəkdiyin dərdi.**
**O hürgüclülər indi çəksin qoy.**

Sən axırda məni də qafiyə tutmağa öyrədəcəksən, Vaqif. Amma keçəl suya gedən döyül. Sadəcə ilham pərisi dediyin o gözəl yanımdan keçəndə səba yeli kimi məni də cilovlamaq istəyir, mən, o siz tərəflərdə nətər deyirlər, "tutux" vermirəm. Sən ağıllı tərpənmisən, altmış il bundan qabaq yapışmısan onun ətəyindən, indi kim-kimi ilhamlandırır, bir Allah bilir, çünki:

**Peşən can hərləmək, boş xəlbirsən ki,**
**Dəftərin, qələmin, dilin – Allahın.**
**Sözlərdən nərdivan düzəldirsən ki,**
**Yetsin ətəyinə əlin Allahın –**
**Sən belə yazırsan şeirlərini.**

Şükür, min şükür, sənin əlin Allahın ətəyindədi. Dilin dilimizin güzgüsü, şeirin şeirimizin incisi olub. Amma mən belə yazmıram yazılarımı. Çünki çörəyi ver çörəkçiyə, birini də üstəlik. Yoxsa mənim kimi? İyirminci ildə Qarabağı işğaldan azad etməyə başlayan igidləri tərənnüm edən yazı yazmaq istəyirdim. Mən düşünənə qədər rəşadətli oğullar torpaqları azad etdilər. Aradan beş il keçib, təkcə mən yox, bütün yazıçılar birliyi hələ gücənir ki, bir sanballı əsər ortaya qoysun, olmur ki, olmur. Bu yaxınlarda Azərbaycandan qayıdıb "On beş gün cənnətdə" adlı bir yazı başlamışdım ki, İsrail İranı vurdu. Dedim fəal mövqeli insan kimi mən əvvəl bu qlobal hadisəyə münasibət bildirim. İşin içinə girib İranmı haqlı, İsrailmi haqlı, Trampmı sülh göyərçini deyə düşünürdüm ki, cəmi oniki gündə müharibə bitdi. Bu qədər tələsikdə yazı yazmaq olar?

*Cəfər SADIQ,*
*Mə k a*

Sağlamlıq

# Pasport yaşı ayrı, bioloji yaş başqa...

**Sənədlərdə 30 yaşınız yazılıb, amma səhərlər yuxudan durandan sonra özünüzü 50 yaşlı biri kimi halsız və yorğun hiss edirsiniz? Bu, sadəcə, yorğunluq deyil, bədənin sizə verdiyi ciddi bir siqnal ola bilər. Endokrinoloqlar bununla bağlı fikir bildiriblər. Pasport yaşı ilə bioloji yaş arasındakı fərqi izah edərək, bioloji yaşın əsas göstəricilərinə diqqət çəkiblər.**

Öncə onlar bioloji yaş barədə məlumat veriblər. Həkimlərin sözlərinə görə, insanın özünü neçə yaşda hiss etməsi onun bioloji yaşıdır. Bu yaşın formalaşmasına və insanın gənc qalmasına təsir edən əsas amillər hormonlardır.

Onlar bildiriblər ki, gənc qalmağın açarı olan 3 əsas hormon bunlardır:

1. Dehidroepiandrosteron sulfat.
2. Estrogenlər.
3. Böyümə hormonu.

Bu hormonlar təkcə fiziki görünüşümüzə deyil, həm də iş qabiliyyətimizə, dərimizin vəziyyətinə, əzələ və sümük sistemimizin sağlamlığına, psixoloji durumumuza və hətta immunitetə ciddi təsir edir.

Bəs bioloji yaşı necə "gənc" saxlamaq olar? Həkimlərin tövsiyələrinə görə, bioloji yaşın pasport yaşını "ötməməsi" üçün gündəlik həyat tərzimizdə bunlara diqqət etməliyik:

– sağlam və balanslı qidalanmaq.
– kifayət qədər su içmək.
– gec yatmamaq.
– stresdən mümkün qədər uzaq durmaq.



Əgər bu qaydalara riayət etməyinizə baxmayaraq uzun müddət davam edən yorğunluq, halsızlıq hiss edirsinizsə, bu zaman endokrinoloqa müraciət etmək vacibdir. Ola bilər ki, orqanizmin hormon balansı pozulub və bədəniniz artıq "bioloji olaraq" yaşlanmağa başlayıb.

*Z.HÜSEYNLİ*
*XQ*

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

*ASCO-nun tabeliyindəki idarələrə tələb olunan ipli və ipsiz çəkmələrin (Lot - 1 və Lot - 2 üzrə) satın alınması məqsədilə*

AÇIQ TENDER ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2025-ci il avqustun 8-i saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.

Ünvan- Bakı, Mikayıl Useynov küçəsi 2.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

*ASCO-nun tabeliyindəki idarələrə tələb olunan taxta materiallarının satın alınması məqsədilə*

AÇIQ TENDER ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2025-ci il avqustun 11-i saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu- (012) 404-37-00, daxili: 1263.

Ünvan-Bakı, Mikayıl Useynov küçəsi 2.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

*ASCO-nun tabeliyindəki idarələrə tələb olunan avtoşinlərin satın alınması məqsədilə*

AÇIQ TENDER ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2025-ci il avqustun 13-ü saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu- (012) 404-37-00, daxili: 1263.

Ünvan-Bakı, Mikayıl Useynov küçəsi 2.

Supergüclərin rəqabəti

# Ayda ilk atom elektrik stansiyası?

## *ABŞ-ın kosmosda enerji üstünlüyünə doğru yeni addımı*

**ABŞ Milli Aeronavtika və Kosmik Tədqiqatlar Agentliyi – NASA qarşıdakı illərdə Ay səthində ilk nüvə enerji stansiyası qurmağı planlaşdırır. Bu mühüm və iddialı layihə dünya gücləri arasında kosmik sahədə gedən texnoloji və strateji rəqabətin yeni mərhələyə qədəm qoyduğunu göstərir.**



"Politico" nəşrinin məlumatına görə, NASA-nın rəhbər vəzifəsini müvəqqəti icra edən Şon Daffi bu həftə 100 kilovat gücündə nüvə reaktorunun Ay səthinə yerləşdirilməsi planını rəsmən elan edəcək. Reaktorun 2030-cu ilədək Ayda fəaliyyətə başlaması nəzərdə tutulur. Layihə üçün yaxın aylarda ixtisaslı podratçıların seçiminə başlanacaq.

Bu reaktor enerji müstəqilliyi və dayanıqlılığı baxımından gələcək Ay missiyaları üçün mühüm rol oynayacaq. Ayda günəş enerjisindən məhdud istifadə şəraitində nüvə enerjisi uzunmüddətli yaşayış və elmi-tədqiqat bazaları üçün ən real enerji mənbəyi sayılır.

Ekspertlər hesab edir ki, ABŞ-ın bu təşəbbüsünün əsas motivasiyalarından biri Rusiya və Çin arasında artan kosmik əməkdaşlıqdır. Xatırladaq ki, 2021-ci ildə Moskva və Pekin Beynəlxalq Ay Stansiyası qurmaq barədə razılığa gəliblər. Bu layihə çərçivəsində Rusiyanın 500 kilovat gücündə nüvə reaktoru hazırlayıb, 2033-cü ildən gec olmayaraq Ay səthinə göndərməsi planlaşdırılır.

Beləliklə, Ayda enerji üstünlüyü və infrastrukturun qurulması uğrunda dünya gücləri arasında real mübarizə başlamış sayılır. Ayda daimi baza yaratmaq təkcə texnoloji deyil, həm də strateji və geosiyasi məsələdir, çünki bu, Yerin yeganə təbii peykində gələcək təsir imkanlarını müəyyən edəcək.

NASA-nın planlaşdırdığı 100 kVt-lıq nüvə reaktoru, müqayisə üçün desək, təqribən 30-40 evin enerji tələbatını ödəyə bilər. Lakin bu ölçü, Ay səthində yerləşəcək modul yaşayış sistemləri, elmi avadanlıqlar, kommunikasiya sistemləri və digər infrastrukturun enerji təminatı üçün kifayət qədər səmərəli sayılır. Bundan əvvəl NASA 40 kVt gücündə reaktorlar üzərində də iş aparırdı, lakin indi layihənin miqyası artırılıb.

Ayda nüvə enerji stansiyasının qurulması təkcə NASA üçün deyil, bütövlükdə insanlığın texnoloji səviyyəsinin yeni göstəricisidir. ABŞ, Çin və Rusiya kimi böyük dövlətlərin bu sahədəki təşəbbüsləri göstərir ki, XXI əsrin strateji rəqabət arenası artıq kosmosda cərəyan edir.

*S.ELAY*
*XQ*

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 162 (30856) 6 avqust 2025-ci il, çərşənbə

## İDMAN

### Güləş millimiz Türkiyədə



**Sərbəst güləş üzrə Azərbaycan millisi Türkiyəyə yollanıb. Azərbaycan Güləş Federasiyasının mətbuat xidmətindən məlumat verilib.**

Yığma avqustun 20-dək Kastamonuda yerli komanda ilə birgə təlim-məşq toplanışı keçəcək. Sentyabrda Xorvatiyada təşkil ediləcək dünya çempionatına hazırlıq xarakteri daşıyan hazırlıq prosesi həm fiziki, həm də taktiki-texniki çalışmaları əhatə edəcək.

Baş məşqçi Xetaq Qazyumov, böyük məşqçi Cəbrayıl Həsənov, məşqçilər Taymuraz Kokoyev və Şərif Şərifovun rəhbərliyi altında İslam Bazarqanov, Muhamməd Əlizadə (hər ikisi 57 kq), Nürəddin Novruzov, Ceyhun Allahverdiyev (hər ikisi 61 kq), Əli Rəhimzadə, Ruslan Abdullayev, Murad Haqverdiyev (hamısı 65 kq), Kənan Heybətov, Sabir Cəfərov (hər ikisi 70 kq), Turan Bayramov, Maqomed-Başir Xaniyev (hər ikisi 74 kq), Fərid Cabbarov, Cəbrayıl Hacıyev (hər ikisi 79 kq), Arseni Cioyev, Əli Tsokayev (hər ikisi 86 kq), Osman Nurmaqomedov (92 kq), Maqomedxan Maqomedov, Zəfər Əliyev (hər ikisi 97 kq), Xetaq Karsanov və Giorgi Meşvildişvili (125 kq) toplanışda yer alıb.

### Naxçıvan karateçilərinin Türkiyə uğuru



**Naxçıvanlı karateçilər Türkiyənin Rizə şəhərində "Qara dəniz və Xəzər ölkələri karate çempionatı" yarışında uğurla çıxış ediblər. Yarışda muxtar respublikanı 3 idmançı təmsil edib.**

Onlardan Fatimə Bağırzadə (10–11 yaş, 50 kq) bütün rəqiblərinə qalib gələrək çempion olub. Xədicə Bayramova (10–11 yaş, 35 kq) isə bürünc medal qazanıb.

Qeyd edək ki, yarışda Qaradəniz və Xəzər hövzəsinə aid ölkələrdən 1000-ə yaxın idmançı uşaqlar, ümidlər və gənclər kateqoriyalarında mübarizə aparıblar.

### "Azəryol" 4 oyunçu transfer edib

**Qadın həndbolçular arasında son Azərbaycan çempionu "Azəryol" heyətinə 4 oyunçu cəlb edib. Bu barədə mətbuata Bakı klubunun baş məşqçisi Aleksandr Revva məlumat verib.**



Onun sözlərinə görə, komanda İrina Pançenko (qapıçı), İrina Mixalkoviç, Zinayda Axundova və Aida Zafarovanı transfer edib. Həmin həndbolçularla 1 illik müqavilə imzalanıb.

Qeyd edək ki, "Azəryol" Avropa Kubokunun II təsnifat mərhələsində Avstriyanın "Union Kornoyburq" komandası ilə qarşılaşacaq. Bu raundun ilk oyunları sentyabrın 27-28-də, cavab matçları isə oktyabrın 4-5-də olacaq.

*M.HACIXANLI*
*XQ*

## İnsanlar və talelər

# Muştuluq

**Uşaqlıq illərimin unudulmaz xatirələrindən biri də analarımızı qayğılandıran qızların, gəlinlərin cehizlik qeydinə qalması idi. Bilmirəm, indi anaların cehizlik qeydinə qalması nə səviyyədədir. Amma anamın gəvə, kilim, xalı toxuyan əllərinin şanı-şöhrəti elimizlə bir idi. Ömrünün sonunadək taqəti dizində, odu, hərarəti gözündə oldu xalı toxuyan anamın. O xalılar evimizin ruhuydu... O xalılara anamın üzünün qırışları, dilinin yalvarışları əriş-arğac kimi toxunurdu.**



Anamın ev-eşik qayğısının önündə oğul-qız qayğısı gəlirdi. Ömrüboyu anamın əllərini işdən-gücdən qalan görməzdik. Necə deyərlər, bir əli istidə, bir əli tüstüdə olurdu. Anam balalarını oddan- sudan keçirib böyüdürdü. O ötən günlərdən yaddaşımda nələr qalmayıb ki?!

Laylalar, bayatılar rəng-rəng ilmə salırdı anamın toxuduğu xalılara. Anamın səsində həm rəng vardı, həm su vardı, həm də od vardı. Xalı toxuya-toxuya ürəyinin odunu cilalayırdı. O əlvan xalılarda odun, suyun öz hikməti vardı.

Ruhu şad olsun. Laylalarla böyüdürdü anam məni. Bir daha anam kimi mənə layla çalan, könlümü alan tapılmaz. Həyətimizdəki xar tutun şah budağından yüyrük asıb, mənə layla çalıb anam. Yüyrüyümü yırğalaya-yırğalaya ağlayanda məni kiridib. Gümüldənə-gümüldənə ağı deyib, bayatı çağırıb, kiriyəndən yerə qoyub, oxşayıb, əzizləyib:

**Day dur, day dur, dayın gəlsin,**
**Ciblərində payın gəlsin...**

Anam məni kürəyinə alıb ki, mən də böyüyəndə onu çiynimdə gəzdirim. Yun şalı ilə məni kürəyinə bərk-bərk sarıyıb. Canımın canısan deyib.

Güllü yorğanımı gecələr üstümə çəkəndə layla umardım. Anam istəyirmi duyub başlardı laylalara. Yorğanımı quzubala kimi imsiləyib başıma çəkər, üzümü örtərdim ki, anam gözlərimin yaşını görməsin. Doluxsunmuş, yaşlı gözlərimi görsəydi dərdi təzələnərdi, yaralarının qaysağı qopardı yazıq anamın. Duyğularım zil pərdədə kökləyib Kərəm sazı kimi ötərdi. Davada itkin düşmüş dayım eşitsin deyə...

**Day dur, day dur, dayın gəlsin,**
**Ciblərində payın gəlsin...**

Dayım payımı gecələr "gətirərdi". Gecələr məni şirin yuxu tutandan sonra dayım payımı "gətirib" balıncımın altına qoyardı. Mən yorğanı başıma çəkib şirin-şirin payımı yeyərdim, anam da ürəyini. Gözlərimdən süzülən yaş damcıları yanaqlarımdan diyirlənib ağzıma dolardı.

... Qızıl inəyimizin yelinini eydirə-eydirə, sığallaya- sığallaya gümüldənərdi anam. Mis sərnicə qızıl inəyimizin südü sağıldıqca, anamın dilindən süd qoxulu bəstələr "sağılardı". Anamın o həzin bəstələrinin səsi sərnicə sağılan südün səsinə qarışıb qəribə bir melodiya yaradardı.

Evimizin bir küncündə ayağı yerə basdırılmış, başı evimizin tavanına dəyən xana ağaclarına vaxtaşırı əriş tökərdi anam. Onda mənə dedi ki, bu xananın ağaclarını dayın təzəcə yonub düzəltmişdi. Onu davaya apardılar... Sonra da anamın fristlə əlbəyaxa davası başlayardı. Əlindəki toppuzlu kirkidi zərblə qaldırıb elə çırpırdı ki, deyirdim indicə fristi gəbərdəcəkdir.

Xanada ərişlər tez-tez dəyişirdi. Kilimi kəsdimi, xurcuna başlayardı. Sonra da balçaxlı kilim və marfaş. Toxuduğu xalçalara "el gəvəsi" deyirdilər. Bir dəfə o el gəvələrindən birinin üstünə dayımın adını yazmışdı – Murtuzəli. Dayımın adı anamın and yerinə dönmüşdü.

Gəvəni kəsib qurtaran kimi anam dedi:

– Yağının ömrü də belə kəsik qalsın, a yolları odlanıb, cığırları dəşlənən qardaşım, heey!..

Xananın vərəngalan ağacını axırıncı əriş-arğacın arasından çıxarıb verərdi mənə. Di min atını. Doqqazımızın həndəvərində sür, bax, gör dayın gəlirmi... Muştuluğun məndə,-deyərdi anam.

Həmin "arıq yabı"nı ora-bura çapmaqdan qıçların lap yağır olmuşdu. Həyətimizdəki ot tayasının üstünə çıxıb, Til dağının yaxasından aşıb o üzə gedən sarı yola baxmaqdan gözlərimin kökü saralmışdı.

O dağın o üzündən tez-tez gurultu səsləri gəlirdi. O gurultu səsinin təsirindən evimiz də, ayağım altındakı taya da silkələnirdi. O dağın o üzündə davamı gedirdi, yoxsa?! O sarı yola baxa- baxa anamın bəstələri üstündə bülbül kimi cəh-cəh vurardım.

Elə bilirdim dayım bu an o dağın arxasından səsimi eşidib gələcək. Məni bağrına basacaq. Barıt qoxulu nəfəsini nəfəsimə qatacaq. Dayım döşündəki ulduzlu nişanlardan birini yaxama taxanda qaça-qaça anamı muştuluqlamağa gedəcəm...

... Ulduzlu gecələrdə yenə məni şirin yuxu tutardı. Yenə anamın güllü yorğanını başıma çəkərdim. Anamın allı-güllü laylaları ilə sabah çiçəyi çırtlayan şirin yuxu yatardım...

Həsrətdən ürəyinin başı köz-köz olan anamın oğullarının, nəvələrinin yaşı dayımın yaşını çoxdan ötüb keçmişdi. Oğulları böyüyüb ata oldular, nəvələri əsgər getdilər. Vətən borclarını verib geri qayıtdılar. Anam özü də 90 yaşın qapısını döyürdü. Amma hələ də ötən hərbdə ölüm-dirim savaşında itgin düşən əsgər qardaşının yolunu gözləyirdi. Dərdli duyğularla dilləşir, yerlə-göylə əlləşirdi.

Anam yenə fikirliydi, yenə gözləri yol çəkirdi. Əli üzündə, dirsəyi dizində televizorun qabağında oturmuşdu. Televizorda "Tütək səsi" filmini seyr edirdi.

... Ayaqyalın, başıaçıq qız uşağı yüyürüb kəndi haraylayırdı:

– Əsgər gəlir, ay camaat, əsgər gəlir.

Doğrudan da kinoda əsgərin gəldiyi görünürdü. Anamın əlləri, üzü qırış- qırış, ömrünün sonu yaxınlaşırdı addım-addım, qarış-qarış. Əlini gözünün üstünə qoyub ekrandakı əsgəri diqqətlə seyr etdi və hürkək səslə dedi:

– Gəlir, eey! Qardaşım gəlir. Özüdür ki, var- ucaboylu, qamçı kimi nərmənazik bədənli, qartal baxışlı igid qardaşım gəlir.

Sonra da durub toxuduğu el gəvəsinin birini döşəməyə sərib naxışlarını, çeşnilərini qırışmış əlləriylə sığallayıb halallıq verirmiş kimi dedi:

– Bilirəm ki, o qız gəlib muştuluq istəyəcək. Bu el gəvəsini o şad xəbəri gətirən qoşa hörüklü qıza muştuluq əvəzi verərsiniz, - dedi və el gəvəsinin üstündə tərpənməz qaldı. Nəbzi vurmurdu, nitqi laldı. Sevincdən ürəyi partlamışdı. Öz əlləri ilə toxuduğu el gəvəsinin üstündə can verdi yazıq anam.

Filmin sonuna yaxın aşığın sazı isə hələ də "Ruhani" üstündə yanıqlı-yanıqlı ötürdü. Anamın ruhuna layla çalırdı "Ruhani"...

***Həzi HƏSƏNLİ,***
***şair-publisist***

# "Huawei" tələbələrimizi Çinə aparır



**Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyində "Huawei" korporasiyasının keçirdiyi "Gələcəyin toxumları" proqramının qalibi olmuş azərbaycanlı tələbələrlə" görüş təşkil edilib.**

Nazir müavini Samir Məmmədov yay düşərgəsində iştirak edəcək tələbələri dünyanın İKT nəhənglərindən olan "Huawei"nin keçirdiyi müsabiqənin qalibi olduqlarına görə təbrik edib, onlara mənalı istirahət arzulayıb, ölkəmizə şirkətin fəaliyyəti ilə bağlı gərəkli biliklərlə qayıtmağı tövsiyə edib.

Mərasimdə Azərbaycanda rəqəmsal sahənin modernləşdirilməsi ilə bağlı bir sıra təşəbbüslərin həyata keçirildiyi, ölkəmizin qlobal süni intellekt ekosistemindəki mövqeyini gücləndirmək üçün strategiya qəbul edildiyi, istedad və bacarıqların təkmilləşdirilməsi üçün Süni İntellekt Akademiyası yaradılacağı bildirilib. Görüşdə Azərbaycanda "Huawei" şirkəti ilə birgə Təlim Mərkəzinin yaradılması da təklif olunub.

"Huawei"nin Yaxın Şərq və Mərkəzi Asiya ölkələri üzrə vitse-prezidenti Angela Lin qeyd edib ki, azərbaycanlı gənclərin Çində İKT kurslarında iştirakı sənaye innovasiyalarını anlamağa və sahibkarlıq ruhunu formalaşdırmağa kömək edəcək. Onlar düşərgədə olduqları günlərdə "Huawei"-nin Baş ofisi, Tədqiqat və İnkişaf Mərkəzində də olacaq, rəqəmsal biliklərini artırmaq imkanı qazanacaqlar.

*Qabil YUSİFOĞLU*
*XQ*

## Diaspor gəncləri Qarabağ Universitetində

**Xankəndidə keçirilən "Konstitusiya və Suverenlik İli"nə həsr edilən Diaspor Gənclərinin VI Yay Düşərgəsinin iştirakçıları Qarabağ Universitetində olublar.**



Diasporla İş üzrə Dövlət Komitəsi sədrinin müavini Elşad Əliyev universitetin fəaliyyəti və məqsədləri barədə məlumat verib.

Qarabağ Universitetinin rektoru Şahin Bayramov bildirib ki, Qarabağ Universiteti yalnız regional deyil, eyni zamanda, beynəlxalq əhəmiyyət daşıyan, çağdaş texnologiyalarla təchiz olunan, müasir təhsil modeli üzərində qurulan bir ali məktəb kimi formalaşır.

Diaspor gəncləri universitetlə və onun kollektivi ilə yaxından tanış olublar. Universitetin beynəlxalq əlaqələri, orada aparılan araşdırmalar, regionun inkişafına verə biləcəyi töhfələr, tədris dili, proqram müxtəlifliyi, qəbul imkanları və başqa mövzularda onları maraqlandıran suallar ünvanlayıblar.

*XQ*

## Hava

# Qorabişirən günlər...



**Milli Hidrometeorologiya Xidmətindən mətbuata verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin günəşli keçəcəyi gözlənilir.**

Şimal-qərb küləyi gündüz şimal-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturu gecə 26-30, gündüz 35-40 dərəcə isti olacaq. Atmosfer təzyiqi normadan aşağı 758 millimetr civə sütunu, nisbi rütubət isə gecə 70-75, gündüz 35-40 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 23-28, gündüz 35-40, bəzi yerlərdə 41 dərəcəyədək, dağlarda gecə 17-22, gündüz 29-34 dərəcə isti olacağı gözlənilir.

*XQ*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3391
SİFARİŞ 1515
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV
Çapa imzalanmışdır 00:00